Monoqrafiyada görkəmli tarixçi, mədəniyyətşünas, tarix elmləri doktoru, professor Nisbət Mehdiyevanın respublikada mədəniyyətin inkişafı sahəsində fəaliyyəti, XX əsrin 60 – 80-ci illərində Azərbaycan mədəniyyətinin inkişafının xarakterik xüsusiyyətləri, bu dövrdə mədəniyyətin müxtəlif sferalarının sürətli inkişafı, yaradıcı ziyalıların mədəniyyətin inkişafı və formalaşmasında oynadığı mühüm rol, professor Nisbət Mehdiyevanın mədəniyyət sahəsində apardığı elmi tədqiqatlar, Yaradıcılıq İttifaqlarının fəaliyyəti, sənət və sənətkarlıq məsələləri, yaradılan əsərlərin ideya – siyasi səviyyəsi və professional sənətkarlığı, ittifaqların yaradıcılıq və təşkilati işləri, bədii mədəniyyətin təbliğində yaradıcı ziyalılar və Yaradıcılıq İttifaqlarının rolu, mədəni əlaqələr və təbliğat sahəsində onların fəaliyyəti, bu dövrdə əldə edilmiş nailiyyətlər, yol verilmiş qüsurlar və s. zəruri amil və məsələlər öz əksini tapmışdır. Azərbaycan mədəniyyətinin XX əsrin 60 – 80-ci illər dövrünün aktual problemləri və tanınmış tədqiqatçı alim, professor Nisbət Mehdiyevanın bu sahədə apardığı dəyərli elmi tədqiqatların monoqrafiya şəklində çap edilməsi təqdirəlayiqdir.

Monoqrafiyadan müəllimlər, ali məktəb tələbələri, magistrantlar, mədəniyyət sahəsində araşdırma aparan tədqiqatçılar və geniş oxucu auditoriyası istifadə edə bilər.



# RƏY

*Mədəniyyət yaradıcılıq, yaradıcı insanların parlaq siması, düşündürücü sualları, düzgün cavabları, dəqiq elmi konturları, valehedici ifası, füsunkar görünüşü və bütün yaradıcılıq sahələrinin birlikdə fəaliyyət göstərdiyi bir vəhdətdə təcəssüm olunur. Mədəniyyətin hər bir sahəsi öz fərqli inkişaf yolu ilə getsə də, bütün bu sferaların ayrı – ayrılıqda inkişafı, ümumiyyətlə, mədəniyyətin inkişafı, formalaşması deməkdir.*

*Hər bir dövrün öz tələbi, obyektiv və subyektiv şərtləri, baxışı, fəaliyyət prinsipləri, mütərəqqilik və reallılıq göstəriciləri, xarakterik xüsusiyyətləri və s. əsasında formalaşan və inkişaf edən mədəniyyət anlamı vardır. Bu baxımdan XX əsrin 60–80-ci illəri istisna deyildir. Bu dövr Azərbaycan mədəniyyəti öz spefikliyi, nadir axtarış sahələri, mədəniyyətin bu dövrə xas özünəməxsusluğu, özfəaliyyətin inkişafı, professional yaradıcılıq sahələrinin getdikcə daha da mükəmməlləşməsi, müxtəlif yaradıcılıq sahələrinin formalaşması, yaradıcı ziyalıların sənətkarlıq və yaradıcılıq prinsiplərinin özünəməxsusluğu, mədəniyyətin təbliği və yayılmasında onların oynadıqları əhəmiyyətli rol, yaradıcı ziyalıların fəaliyyət göstərdikləri yaradıcılıq ittifaqları, mədəniyyət sahəsində çalışan müxtəlif təşkilatlar və s. ilə xarakterizə oluna bilər.*

*Tarixçi alim, tarix üzrə fəlsəfə doktoru, dosent Aytən Mehdiyevanın "Görkəmli tədqiqatçı alim, professor Nisbət Mehdiyevanın Azərbaycanda mədəniyyətin inkişafı sahəsində fəaliyyəti" adlı monoqrafiyası Azərbaycan mədəniyyətinin XX əsrin 60–80-ci illəri dövrünün araşdırılması sahəsində dəyərli tədqiqat əsərlərindən biri hesab oluna bilər. Bu monoqrafiya 4 fəsildən ibarət olub alimin apardığı tədqiqatları özündə əks etdirir.*

*Monoqrafiyanın I fəsli "Yorulmaz mübariz və görkəmli tarixçi alim professor Nisbət Mehdiyevanın fəaliyyəti" adlanır. Azərbaycan mədəniyyətinin XX əsrin 60–80-ci illər dövrünü geniş elmi tədqiqata cəlb etmiş yorulmaz mübariz, tarix elmləri doktoru, professor Nisbət Mehdiyevanın respublikada mədəniyyətin inkişafı sahəsində fəaliyyəti, mədəniyyətin müxtəlif sferalarının inkişafı və problemlərin işıqlandırılması sahəsində apardığı tədqiqat işi danılmazdır.*

*Monoqrafiyanın II fəsli "Görkəmli alim professor Nisbət Mehdiyevanın mədəniyyət sahəsində elmi tədqiqatları (XX əsrin 60–80-ci illəri)" adlanır. Professor Nisbət Mehdiyeva Azərbaycan mədəniyyətinin XX əsrin 60–80-ci illər dövrünə 1 dərs vəsaiti, 2 monoqrafiya, saysız – hesabsız elmi məqalə və s. tədqiqat əsərləri həsr etmişdir. Bu tədqiqatların aparılması prosesində professor Nisbət Mehdiyeva böyük elmi ədəbiyyat, zəngin mənbələr, arxiv sənədləri, real faktlar, dövri mətbuat, yaradıcılıq ittifaqlarının cari arxivləri, mədəniyyət sahəsində çalışan müxtəlif təşkilatların arxiv sənədləri və s. zəruri mənbələrə müraciət edərək fundamental elmi əsərlər yazmağa müvəffəq olmuşdur.*

*Monoqrafiyanın III fəsli "Yaradıcı ziyalıların mədəniyyətin inkişafında rolu (XX əsrin 60–80-ci illəri)" adlanır. Bu dövrdə respublikada yaradıcı ziyalıların fəaliyyəti mədəniyyətin bütün sahələrini əhatə edərək müstəqil şəkildə və eyni zamanda ümummədəniyyət kontekstində inkişaf edən bu sferaları formalaşdırır, inkişaf etdirir və zənginləşdirirdi. Yaradıcı ziyalıların mədəniyyətin inkişafı sahəsində rolu çoxşaxəli olub öz yaradıcılıq imkanları, stimulları, sənətkarların professional fəaliyyət sahələrində əldə etdikləri uğurlar, yeni – yeni yaradıcılıq sahələrinin meydana gəlməsi, inkişafı və s. xarakterik xüsusiyyətlərin rəngarəngliyi ilə diqqətəlayiqdir.*

*Monoqrafiyanın IV fəsli "XX əsrin 60–80-ci illərində Azərbaycan Yaradıcılıq İttifaqlarının təbliğat sahəsində fəaliyyəti professor Nisbət Mehdiyevanın elmi yaradıcılığında" adlanır. Yaradıcılıq İttifaqları respublikada mədəniyyətin inkişafı və təbliği sahəsində nəhəng fəaliyyətlə məşğul olub öz əməli işləri ilə cəmiyyətdə təbliğatın düzgün aparılması, sənətkar, yaradıcılıq və sənət əsərlərinin təbliği, təbliğatın forma və vasitələri, oxucu, dinləyici və tamaşaçı auditoriyası ilə düzgün ünsiyyətin qurulması, sənətkar və sənət əsərlərinin tamaşaçılara təqdimatı, kütləvi təbliğatın təşkili və s. aktual əsərlərin həlli və reallaşdırılmasında həlledici rol oynamışdır. Yaradıcılıq İttifaqlarının bu dövrdə təbliğat sahəsində apardığı məqsədyönlü fəaliyyət, onun prinsip və yolları professor Nisbət Mehdiyevanın elmi fəaliyyətində öz parlaq əksini tapmışdır.*

*Tarix üzrə fəlsəfə doktoru, dosent Aytən Mehdiyevanın "Görkəmli tədqiqatçı alim, professor Nisbət Mehdiyevanın Azərbaycanda mədəniyyətin inkişafı sahəsində fəaliyyəti" adlı monoqrafiyası Azərbaycanda mədəniyyətin XX əsrin 60–80-ci illər dövrünün araşdırılması və professor Nisbət Mehdiyevanın dəyərli*

*fundamental tədqiqat əsərlərinin öyrənilməsi sahəsində zəngin mənbə hesab oluna bilər.*

*Tarix üzrə fəlsəfə doktoru, dosent Aytən Mehdiyevanın monoqrafiyası çapa məsləhət görülür.*

***Həsənov Vəkil Səfiyar oğlu***
*Tarix elmləri doktoru, Professor Azərbaycan Dövlət İqtisad Universitetinin Humanitar fənlər kafedrasının müdiri, Əməkdar müəllim Tarix üzrə fəlsəfə doktoru, dosent Aytən Mehdiyevanın yazdığı "Görkəmli tədqiqatçı alim professor Nisbət Mehdiyevanın Azərbaycanda mədəniyyətin inkişafı sahəsində fəaliyyəti" adlı monoqrafiya haqqında*

# RƏY

*Mədəniyyət tükənməz xəzinədir. Bu xəzinənin adı gözəllik, nükəmməllik, mütərəqqilik, realizm, şüurluluq, mübarizlik, pozitivlik, yaradıcılıq və s. müsbət keyfiyyətlərin sənətin müxtəlif müstəqil sahələrinin timsalında təcəssümü deməkdir. Mədəniyyət həm də yaradıcı şəxsin həyata baxışı, fərqli insanların bir – birinə bənzəməsi, sənətkarın təxəyyülü və reallığın vəhdəti, zaman və dövrün obyektiv və subyektiv amillərinin insan və cəmiyyətə təsiri, bu həm müsbət, həm də mənfi təsir qarşısında duruş gətirmək qabiliyyəti, gözəllik və şüurun vəhdəti və s. üstün və aktual keyfiyyətlərin məcmusudur. Bu xarakterik xüsusiyyətlərin sənətə gətirilməsi və müvafiq sənət əsərlərinin yaradılması prosesi sənətkar və yaradıcı ziyalılardan xüsusi bacarıq, qabiliyyət, geniş dünyagörüşü, həyat hadisələrinin dərk edilməsi, onların yaradıcılıq süzgəcindən keçirilməsi və s. vacib elementləri tələb edir. Yaradıcı ziyalılar bütün bu nüansları nəzərə alaraq misilsiz sənət əsərləri yaradır və bu əsərləri oxucu, dinləyici və tamaşaçının anlaya biləcəyi formaya salırlar.*

*Hər bir ölkə və xalq öz tükənməz mədəniyyət xəzinəsilə fəxr edir. Bu baxımdan Azərbaycan mədəniyyəti öz təkrarsızlığı, özünəməxsusluğu və gözəlliyi ilə xüsusilə seçilir. Azərbaycan mədəniyyətinin bu xarakterik xüsusiyyətlərini – mədəniyyətin heç kimin görə bilməyəcəyi cizgiləri və əsil dəyərini görən və duyan yaradıcı ziyalılar, bu sahənin yorulmaz tədqiqatçıları, bu baxımdan ən şərəfli yerləri tuturlar.*

*Azərbaycan mədəniyyətinin XX əsrin 60–80-ci illər dövrünü araşdıran görkəmli tədqiqatçı, tarix elmləri doktoru, professor Nisbət Mehdiyeva mədəniyyətin müxtəlif sahələrinin inkişaf və təbliği, yaradıcı ziyalıların mədəniyyətin fərqli sferalarının formalaşmasında danılmaz rolu, müvafiq yaradıcılıq ittifaqlarında təmsil olunan yaradıcı ziyalıların fəaliyyəti, bu dövr Azərbaycan mədəniyyətinin sürətli və mütərəqqi inkişafı, yaranan və formalaşan vacib tendensiyalar, mədəniyyətin demək olar bütün sahələrinin öyrənilməsi və elmi tədqiqata cəlb edilməsində həlledici rol oynamışdır. Professor Nisbət Mehdiyevanın Azərbaycanda mədəniyyətin inkişafı sahəsində elmi fəaliyyəti olduqca zəngin olub fundamental tədqiqat əsərlərində öz əksini tapmışdır. Belə ki, professor Nisbət Mehdiyeva "Azərbaycan*

*Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı dərs vəsaiti, "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələri (1960–1980 – ci illər)" və "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı 2 monoqrafiya, çoxsaylı elmi məqalə və s. tədqiqat əsərləri yazaraq XX əsrin 60–80-ci illər dövründə Azərbaycan mədəniyyətinin sürətli, yaradıcı və mütərəqqi inkişafının unikal elmi analizini aparmışdır. Yorulmaz mübariz, əsil tədqiqatçı, tanınmış tarixçi və mədəniyyətşünas, yaradıcı ziyalılar və onların təmsil olunduqları Yaradıcılıq İttifaqlarının Azərbaycan mədəniyyətinin bu dövrünün inkişafında oynadığı mühüm və mütərəqqi rolun mahir bilicisi, araşdırmaçısı və mütəxəssisi olan professor Nisbət Mehdiyeva bu sahə üzrə respublikada çalışan tək – tük ziyalıdan biri hesab edilə bilər.*

*Tarixçi alim, tarix üzrə fəlsəfə doktoru, dosent Aytən Mehdiyeva Azərbaycan mədəniyyətinin XX əsrin 60–80-ci illər dövrünə aid dəyərli tədqiqat əsəri həsr etmişdir. Aytən Mehdiyevanın "Görkəmli tədqiqatçı alim, professor Nisbət Mehdiyevanın Azərbaycanda mədəniyyətin inkişafı sahəsində fəaliyyəti" adlı monoqrafiyası Azərbaycan mədəniyyətinin bu dövrünün araşdırılması sahəsində böyük və dəyərli tədqiqat əsəri olub fundamental elmi axtarışlar, müxtəlif zəngin mənbələr, dəqiq elmi faktlar və alimin real elmi analizinə istinad edir.*

*Tarix üzrə fəlsəfə doktoru, dosent Aytən Mehdiyevanın bu monoqrafiyası dəyərli elmi – tədqiqat əsəri olub çapa məsləhət görülür.*

***Mehdiyeva Aydan Əli qızı***
*Filologiya üzrə fəlsəfə doktoru*

# REDAKTORDAN

*Mədəniyyət hər bir cəmiyyətin formalaşması və inkişafında həlledici rol oynayır. Cəmiyyət inkişaf etdikcə onun dəyərləri dəyişir, təkmilləşir və getdikcə daha sivil, mütərəqqi mahiyyət kəsb etməyə başlayır. Cəmiyyətin əsasında duran bütün bəşəri dəyərlər hər bir insanın özünü dərk etməsi, püxtələşməsi, özündə bütün müsbət keyfiyyətləri inkişaf etdirməsi, hər addımda qarşılaşdığı maneə və çətinliklərə qarşı mübarizə aparması və onlara qalib gəlməsi yolunda mühüm rola malikdir. Həmin bəşəri dəyərlər cəmiyyətin hər bir üzvünün malik olmalı, qorumalı və inkişaf etdirməli olduğu həlledici məqamlardan sayıla bilər. Hər bir insan özünü və ətraf dünyanı dərk etdikcə həmin insani dəyərləri özündə tərbiyə etmiş olur. İnsan bəşəri dəyərlər fonunda formalaşdıqca addım – addım mədəniyyətin inkişafına doğru irəliləyir. Mədəniyyətin inkişafını bu bəşəri dəyərlərsiz təsəvvür etmək mümkün deyildir. Bütün bəşəri dəyərləri özündə cəmləyən mədəniyyət olduqca mühüm əhəmiyyət daşıyır. Mədəniyyətin çoxşaxəli fəaliyyəti insanın hərtərəfli və mükəmməl inkişafında mühüm rol oynayır. Bu çoxşaxəli fəaliyyət mədəniyyətin bütün sferalarının inkişafında öz əksini tapır. İnsan yaradıcılığının ən mükəmməl nümunələrini, onun istedad və bacarığının misilsiz şedevrlərini özündə cəmləyən mədəniyyət bu yaradıcılıq növlərini spesifik sahələr üzrə yönəldərək müstəqil sferaların yaranması və getdikcə inkişafına səbəb olur. Nəticədə mahiyyətcə bir – birinə bağlı, amma eyni zamanda müstəqil və yetkin mədəniyyət sahələri yaranmağa və formalaşmağa başlamışdır.*

*Mədəniyyətin hər bir cferası öz təkrarolunmaz gözəlliyi, nadir duyum tərzi, yüksək şüuru, mütərəqqi dünyagörüşü, spesifik dəst – xətti, özünəməxsusluğu, yaradıcılıq forma və metodları, ifadə tərzi, ifaçılıq və sənətkarlıq üslubu, gözəllik, mükəmməllik, qüsursuzluq, hər şeyə şüurlu və yetkin münasibətin hər zaman formalaşması yolunda daim aparılan ədalətli və yorulmaz mübarizənin özünəməxsusluğu baxımından spesifikdir. Mədəniyyət hər bir sferası ilə gözəldir. Mədəniyyət gözəl əsərlər, misilsiz ifalar, nadir istedadlar, bir – birinə bənzəməyən sənətkarlıq nümunələri, daim gözəllik və mükəmməllik axtarışı deməkdir. Hər bir sferası ilə insanın zövqünü oxşayan, onu öyrədən, tərbiyə edən və püxtələşdirən*

*mədəniyyət müasir dünyamızın cəlbedici sahələrindən biri olub hər zaman cəmiyyət və bəşəriyyəti mütərəqqi və sivil ideyalar ruhunda tərbiyə edir. İnsan mədəniyyətin müxtəlif sferalarını inkişaf etdirdikcə mədəniyyət də insanı durmadan zənginləşdirir, onun bütün yaradıcılıq bacarıq və qabiliyyətini reallaşdırır, daim hər bir insanın formalaşmasında öz həlledici rolunu oynayır. Bu baxımdan mədəniyyətin öyrənilməsi, onun müxtəlif sferalarının elmi tədqiqata cəlb edilməsi olduqca böyük əhəmiyyət daşıyır.*

*Respublikamızda mədəniyyətin tədqiqi, onun ayrı – ayrı sahələrinin öyrənilməsi və inkişaf etdirilməsi hər zaman diqqət mərkəzində olmuşdur. Mədəniyyət sferasının elmi tədqiqata cəlb edilməsi sahəsində çalışan ziyalıların fəaliyyəti bu baxımdan olduqca vacib və diqqətəlayiqdir.*

*Azərbaycanda mədəniyyətin öyrənilməsi və onun aparıcı sahələrinin ciddi elmi tədqiqata cəlb edilməsində əvəzsiz elmi fəaliyyəti olan görkəmli tədqiqatçı alim professor Nisbət Mehdiyeva bu sahə üzrə akademik tədqiqat işi aparmış, mükəmməl və fundamental elmi yaradıcılığa malikdir.*

*1990 – cı ildə professor Nisbət Mehdiyeva "Azərbaycan yaradıcılıq ittifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı dərs vəsaiti, 1991 – ci ildə "Azərbaycan yaradıcılıq ittifaqlarının mədəni əlaqələri (1960–1980 – ci illər)" adlı monoqrafiya, 2014 – cü ildə "Azərbaycan yaradıcılıq ittifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı monoqrafiya, yaradıcılıq ittifaqları və cəmiyyətlərinin fəaliyyəti, mədəniyyət məsələləri və mədəniyyətin müxtəlif sferalarına həsr olunmuş çoxsaylı elmi məqalə çap etdirmişdir. Professor Nisbət Mehdiyeva 1991 – ci ildə "Azərbaycan yaradıcılıq ittifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı doktorluq dissertasiyası müdafiə etmişdir.*

*Görkəmli tədqiqatçı alim professor Nisbət Mehdiyevanın Azərbaycanda mədəniyyətin inkişafı sahəsində fəaliyyətinə həsr olunmuş monoqrafiyası gözəl alimin mədəniyyət sahəsində apardığı akademik tədqiqat işinin həcmini, onun gərgin elmi zəhməti və fəaliyyətini, qaldırılan aktual problemlərin vacibliyini, böyük alimin fəaliyyətinin elmi dəyərini real şəkildə özündə əks etdirir. Qeyd etmək lazımdır ki, monoqrafiyada bütün məsələlərə olduqca obyektiv baxımdan yanaşılmış, eyni zamanda mədəniyyət sahəsinin qarşısında duran problemlər, mövcud çatışmazlıqlar və zəruri məqamlar öz əksini tapmışdır.*

*Əsərdən alimlər, ali məktəb tələbələri, magistrantlar, mədəniyyət sahəsində fəaliyyət göstərən və tədqiqat aparan şəxslər, ümumi oxucular istifadə edə bilərlər.*

# MÜƏLLİFDƏN

*Mədəni yüksəlişində şərəfli tarixi mərhələ keçmiş Azərbaycan xalqı keşməkeşli inkişaf yolunda əldə etdiyi maddi və mənəvi sərvətləri ilə fəxr edir. Xalqın zəngin mədəni irsini öyrənmədən onun keçmişi, bu günü, keçdiyi uzun və şərəfli mübarizə yolu haqqında heç bir təsəvvür əldə etmək mümkün deyildir. Xalqın mədəniyyəti onun yarandığı və formalaşmağa başladığı gündən bu günədək yaratdığı, inkişaf etdirdiyi və zənginləşdirdiyi irsin tarixin dərin qatlarından zaman– zaman süzülüb gələn mənəvi sərvətidir. Öz mədəni irsini durmadan zənginləşdirən və inkişaf etdirən xalq hər zaman yeni – yeni yaradıcılıq nailiyyətləri əldə edir, yaradır, ifa edir, mədəniyyətin bütün sferalarını demək olar eyni səviyyədə inkişaf etdirərək onları yeni – yeni əsərlər, tablolar, heykəltəraşlıq nümunələri, fundamental yaradıcılıq cizgi, forma və metodları, sənət nümunələri, musiqi əsərləri, teatr tamaşaları, yüksək bədiilik, ideya və yetkin süjet xəttinə malik filmlərlə zənginləşdirir.*

*Mədəniyyət yarandığı, formalaşdığı, inkişaf etdiyi və zənginləşdiyi cəmiyyətlə bilavasitə bağlı olub öz dövrünün bütün xarakterik xüsusiyyətlərini, aid olduğu sferanın spesifik cəhətlərini, dövrün siyasi, iqtisadi və mədəni mənzərəsini, xalqın bütün istək və arzularını, dövrün bədii – estetik zövqünü, mövcud obyektiv və subyektiv şərtləri və s. zəruri və aktual elementləri özündə parlaq şəkildə əks etdirir.*

*Mədəniyyətin bütün sferalarının özündə ehtiva etdiyi xarakterik komponentlər zaman – zaman bu və ya digər formada, insanların həm gündəlik həyatı, həm də onların əqli və əməli fəaliyyətində özünü büruzə verir. İnsanların həyatı, onların əqidə və mənəvi keyfiyyətləri, eyni zamanda hər bir şəxsin cəmiyyətdə bir fərd kimi formalaşmasında mədəniyyət müstəsna rol oynayır. Bu sahədə yaradıcı ziyalıların rolunu xüsusi vurğulamağa ehtiyac duyulur. Belə ki, Azərbaycan mədəniyyətinin peşəkar səviyyəyə yüksəldilməsi, yaradılan bütün əsərlərin ideya – siyasi məzmununun zənginləşdirilməsi və mədəniyyətin bütün sferalarının durmadan hərtərəfli inkişaf etdirilməsi sahəsində yaradıcı ziyalıların fəaliyyəti danılmazdır. Yaradıcı ziyalıların fəaliyyəti nəticəsində respublikada peşəkar sənətkarların sayının artırılması, səhnə yaradıcılığı və ifaçılıq sənəti, aktyorluq məharətinin spektrlarının hərtərəfli nəzərdən keçirilməsi və inkişaf etdirilməsi öz dinamikliyi*

*və rəngarəngliyi ilə seçilmişdir. Azərbaycanda mədəni nailiyyətlərin inkişafı və mədəniyyətin müxtəlif sferalarının qarşısında duran problemlərin araşdırılması sahəsində yaradıcı ziyalıların apardıqları fəaliyyət diqqətəlayiqdir. Mədəniyyətin hər biri müstəqil yaradıcılıq sahəsi olan sferalarının elmi tədqiqata cəlb edilməsi olduqca mühüm əhəmiyyət daşıyır. Bu baxımdan mədəniyyətin fərqli sahələrində fəaliyyət göstərən tədqiqatçılar mədəniyyətin qarşısında duran problemlərin elmi analizini apararaq onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi sahəsində səmərəli fəaliyyət göstərmişlər.*

*Azərbaycan mədəniyyətinin öyrənilməsi sahəsində görkəmli tədqiqatçı alim professor Nisbət Mehdiyevanın elmi fəaliyyəti xüsusi diqqət çəkir. Belə ki, tarix elmləri doktoru, professor Nisbət Mehdiyeva Azərbaycan mədəniyyətinin elmi tədqiqata cəlb edilməsi sahəsində akademik fəaliyyətlə məşğul olmuş və bu sahədə ciddi elmi nailiyyətlərə imza atmışdır. Professor Nisbət Mehdiyeva Azərbaycan mədəniyyətinin XX əsrin 60–80-ci illər dövrünü tədqiq edərək bu sahədə fundamental elmi əsərlər, monoqrafiyalar, elmi məqalələr yazmışdır. Tanınmış tədqiqatçı alimin bu sahədə apardığı elmi axtarışlarda bu dövrdə mədəniyyətin sürətli inkişafı, onun yüksək etik, əxlaqi dəyərləri, müasir və mütərəqqi dünyagörüşü, zəngin sənətkarlıq təcrübəsi və məharəti, gözəl estetik duyumu, bacarıqlı və istedadlı ifaçılıq tərzi, yazılan və tamaşaya qoyulan əsərlərin ideya – siyasi məzmununun yetkin səviyyəyə çatdırılması, sənətkar və tamaşaçı münasibətlərinin peşəkar səviyyədə qurulması, teatr səhnələrinə qoyulan dram əsərləri və çəkilən kinofilmlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və s. dövrün mədəni problemləri və aktual məsələlər öz əksini tapmışdır. Tədqiqatçı alim mədəni tədbirlərin keçirilməsi, onların təşkili, forma və metodları, mədəniyyətin təbliği, yayılması, üslub və vasitələri, insanların mənəvi keyfiyyətlərinin artırılmasında yaradıcılıq ittifaqları, birlik, cəmiyyət və təşkilatların fəaliyyəti məsələləri, tamaşaçılar və sənətkarları düşündürən suallara cavab tapılması, teatrlarımız və kino sənətimiz qarşısında duran problemlərin həll edilməsi, mədəni əlaqələrin qurulması və s. vacib mədəni məsələləri öz yaradıcılığında işıqlandırmış və onları elmi tədqiqata cəlb etmişdir. XX əsrin 60–80-ci illərində Azərbaycan Yaradıcılıq İttifaqlarının təbliğat sahəsində fəaliyyəti və bu fəaliyyətin genişləndirilməsi üçün görülən əməli işlər professor Nisbət Mehdiyevanın elmi yaradıcılığında öz əksini tapmışdır.*

*Bu monoqrafiyanın yazılması böyük zəhmət tələb edir. Görkəmli tədqiqatçı alim professor Nisbət Mehdiyevanın Azərbaycanda mədəniyyətin inkişafı sahəsində çoxşaxəli və zəngin fəaliyyəti mədəniyyətin bütün sferalarında fəaliyyət göstərən yaradıcı şəxslər və sənətkarların fəaliyyəti, onların çalışdıqları incəsənət sahələri, yaradıcı şəxslərin qarşısında duran problemlərin işıqlandırılması və elmi tədqiqata cəlb edilməsi sahəsində çox mühüm nailiyyət hesab olunmalıdır.*

*Monoqrafiyanın yazılmasında arxiv sənədləri, müxtəlif mənbələr, zəngin elmi ədəbiyyat, mədəniyyət məsələlərinə həsr olunmuş məqalələr, görkəmli tədqiqatçı alim professor Nisbət Mehdiyevanın mədəniyyət sahəsinə həsr etdiyi zəngin elmi yaradıcılığı və s. ədəbiyyatdan istifadə olunmuşdur.*

*Görkəmli tədqiqatçı alim, professor Nisbət Mehdiyevanın Azərbaycanda mədəniyyətin inkişafı sahəsində fəaliyyətinə həsr olunmuş monoqrafiya bu böyük alim, gözəl və bacarıqlı tədqiqatçı, mədəniyyət sferasının mahir bilicisi professor Nisbət Mehdiyevanın böyük elmi irsi, nəhəng zəhməti və gərgin elmi fəaliyyətinin layiqli və bariz nümunəsidir.*

# GİRİŞ

Qədim tarixə malik Azərbaycan hər zaman tarixin çətin sınaqları və üzləşdiyi maneələrdən qəhrəmanlıqla çıxmış və tarixə bir igidlik salnaməsi yazmışdır. Öz qəhrəmanları ilə öyünən və onlarla fəxr edən ölkəmiz görkəmli şəxsiyyətləri, alimləri, bütün dünyada öz sözünü demiş və dünya elmini öz böyük zəhməti, nadir istedadı, bacarıq və qabiliyyəti, təhsil və elmə sonsuz məhəbbəti və hörməti, yorulmadan çalışmaq və mübarizə aparmaq istəyi ilə seçilən qeyri – adi elmi şüur və dərrakə sahibi olan övladları ilə də tanınır.

Azərbaycan tarix elmi elmin digər sahələri kimi bir yerdə dayanmır, daim inkişaf edir. XX əsrin 60 – cı illərindən başlayaraq Azərbaycan tarix elmində özünəməxsus xüsusiyyətlər formalaşmağa başlamış və bu öz təcəssümünü gənc, istedadlı tarixçi alimlərin yaradıcılığında tapmışdır. Tarix elminin inkişafı, formalaşması, püxtələşməsi və bir elm kimi təşəkkül tapmasında öz sözünü deməyə və öz yolu ilə getməyə cəhd edən, bu sahədə üzləşdiyi bütün maneə və çətinlikləri aşmağa çalışan, öz orijinal yaradıcılıq tərzi, istedadı, bacarıq və qabiliyyəti, sonsuz zəhməti ilə xüsusilə seçilən, daim müraciət etdiyi mövzular və işlədəyi sahələrdə yalnız real faktlara dayanan və elmi fəaliyyəti dövründə hər zaman seçdiyi yoldan dönməyən tarix elminə etibarlı olan bu şəxslər Azərbaycan tarixinin ən görkəmli şəxsiyyətləri sayıla bilər. Artıq bu dövrdə yazılan əsərlər və təşəkkül tapan tarixi yazılar Azərbaycan tarix elmində gələcəyin yeni görkəmli şəxsiyyətlərinin formalaşmasından xəbər verirdi. Tarix elmi öz görkəmli şəxsiyyətləri ilə hər zaman fərqlənmişdir. Zamanın süzgəcindən keçib gələn nadir istedad, bacarıq, qabiliyyət və alimlik şücaətinə malik olan bu şəxslər tarixdə öz sözlərini demiş, deyir və deyəcəklər. Üzləşdikləri bütün çətinliklərə baxmayaraq, bu alimlərin nadir istedadı, yorulmadan çalışmaq və mübarizə aparmaq həvəsi onları durmadan elmə səsləmiş, yeni – yeni nailiyyət və uğurlar əldə etməyə vadar etmişdir. Elm böyük bir ümmandır. Bu sahədə fəaliyyət göstərən insanlar olduqca çalışqan, cəsur və qarşıya çıxan bütün maneələri keçməyə qadir olan dahi şəxsiyyətlərdir.

Belə görkəmli şəxsiyyətlərdən biri tanınmış Azərbaycan tarixçisi, tarixin müxtəlif sahələrində öz sözünü demiş və öz yolu ilə getmiş, heç zaman tarixi faktları təhrif etməmiş, daim öz yaradıcılığında real hadisə və faktlara istinad etmiş, elm sahəsində üzləşdiyi maneələrin aşılması yolunda bütün qüvvə, bacarıq və qabiliyyətini səfərbərliyə almış, nümunəvi əxlaqı və gözəl əxlaqi – mənəvi dəyərlərə malik mükəmməl alim və gözəl pedaqoq professor Nisbət Mehdiyevadır. Belə ki, müasir dövrün ən görkəmli şəxsiyyətlərindən biri olan professor Nisbət Mehdiyeva əvəzsiz tarixçi alim olduğu üçün onun yaradıcılığı, fəaliyyəti, böyük zəhməti və elmdə əldə etdiyi sonsuz nailiyyətlər ciddi tədqiqat obyekti olmalıdır. Uzun illər tarix elmində durmadan çalışan və öz sahəsində yüksək nəticələr əldə edən bu görkəmli tarixçi alim hər zaman tarix elminin inkişafında böyük rol oynamış və tarixi hadisələrə yalnız faktların gözü ilə baxması ilə seçilmişdir.

Professor Nisbət Mehdiyeva seçdiyi tarix elminin inkişafında fədakarcasına xidmətləri olan ziyalı kimi XX əsrin 60 – cı illərindən başlayaraq keşməkeşli yolda yorulmadan çalışmış və apardığı böyük elmi fəaliyyət onun bir alim kimi tam formalaşması və gözəl mütəxəssisə çevrilməsində həlledici rol oynamışdır. Hər zaman yalnız öz yüksək şüur və dərrakəsi, nadir istedadı, böyük zəhməti və elmə sevgisi ilə seçilən professor Nisbət Mehdiyeva tarix elminin müxtəlif sahələrinin inkişafında özünəməxsus fəaliyyəti ilə xarakterizə oluna bilər. Bu baxımdan professor Nisbət Mehdiyevanın yaradıclıq ittifaqlarının fəaliyyətinin işıqlandırılması, türk xalqlarının tarixinin yeni dövrünün öyrənilməsi sahəsində və s. apardığı elmi tədqiqatlar və yazdığı fundamental əsərlər olduqca diqqətəlayiqdir.

Elmi fəaliyyət durmadan gərgin zəhmət, böyük diqqət, görüləcək hər bir xırda işin üzərində ciddi təmərküzləşmə, tarixi hadisələrin alimin analizi və dünyaya baxışından keçirilməsi, geniş dünyagörüşü, elmi fəaliyyətə qədərki dövrdə şəxsiyyətin tam formalaşması, mövcud hadisə və faktlara dürüst tarixi qiymət verilməsi, pisin yaxşıdan seçilməsi, faktların təhrif edilməməsi, tarixin yazılmasında yalnız real faktlara dayanılması, elmin elm kimi formalaşması və s. olduqca zəruri və mühüm elementləri özündə ehtiva edir. Bu elementlərə malik olmayan və öz üzərində daim çalışmayan alim fəaliyyət göstərdiyi elm sahəsini heç zaman inkişaf etdirə bilməz. Məhz belə dəyərlər, bacarıq

və qabiliyyət, gözəl istedad, natiqlik sənəti, mükəmməl alimlik dərrakəsi və şüuru, böyük vicdan, dürüstlük və alimlik şərəfinə malik olan professor Nisbət Mehdiyeva uzun illər ərzində Azərbaycan tarix elminin inkişafına çox böyük töhfə vermiş görkəmli ziyalıdır.

İntelligensiya cəmiyyətin həyatında baş verən hadisələrə öz mübariz mövqeyi ilə münasibət bildirən və bu yolda hər zaman doğrunun tərəfini tutan təbəqə kimi öz dəyərli nümayəndələrini yetişdirmiş və onları mövcud təhlükələrdən qorumağa çalışmışdır. Ziyalılar baş verən tarixi hadisələr fonunda daim öndə olmuş, tarixi proseslərin əsil simasını açmağa çalışmış, insanları ziyalı işığı ilə işıqlandıraraq dürüstlüyə səsləmiş, təhsil və elmi hər zaman inkişaf etdirərək onu nöqsan və çatışmazlıqlardan qorumağa çalışmışlar. Bu baxımdan görkəmli tarixçi alim professor Nisbət Mehdiyevanın tanınmış ziyalı kimi fəaliyyəti özünəməxsusluğu, dərin elmi bilgiləri və yalnız real faktlara dayanması ilə xarakterizə olunur.

İnsan hər zaman öz istedadı, geniş dünyagörüşü, bacarıq və qabiliyyəti, böyük zəhməti, sonsuz inamı və durmadan apardığı ədalətli mübarizəsi ilə seçilir, formalaşır və cəmiyyətdə fəaliyyət göstərən digər şəxslərdən fərqlənir. Bu özünəməxsusluq o qədər xarakterik bir xüsusiyyətdir ki, onu gizlətmək və ya ört – basdır etmək mümkün deyildir. Belə özünəməxsusluğa malik olan şəxslər cəmiyyətdə rastlaşdıqları bütün çətinlik, haqsızlıq və qanunsuğluğa baxmayaraq, öz yolları ilə gedərək bu çətinlik və maneələri aşmağa müvəffəq olmuş, hər zaman öz sözlərini demiş, öz fikir, ideya və mütərəqqi mövqelərini səsləndirmiş, cəmiyyətin neqativ elementləri, müxtəlif obyektiv və subyektiv vəziyyətlə şərtlənən çatışmazlıqlara qarşı daim yorulmadan mübarizə aparmışlar. Onlar öz yüksək əxlaqi keyfiyyətləri ilə hər zaman digərlərindən seçilir və hər şeyin fövqündə dururlar. Belə dəyərlərə malik olan şəxslər elmin keşməkeşli, çətin və keçilməz cəngəllikləri xatırladan yolları ilə addımlayaraq daha da püxtələşir və getdikcə daha yetkin, geniş dünyagörüşlü, mütərəqqi fikir və ideyaları özündə ehtiva edən gözəl alimlərə çevrilirlər. Düz deyirlər: "Alim olmaq asandır, insan olmaq çətindir". Lakin həm alim, həm də yetkin insan olmaq olduqca çətindir. Həyatın dolanbacları, çətinlik və çatışmazlıqları, gündəlik həyatın müsbət və mənfi təzahürləri, ətraf mühitin cəmiyyət və ayrı – ayrı şəxslərə göstərdiyi obyektiv və subyektiv təsir metod və vasitələri,

hər bir şeyə, insanlığa şüurlu və səthi münasibət, ətrafda baş verən hadisələr, haqsızlıq və ədalətsizliyə qarşı cəmiyyət və konkret şəxslərin münasibəti və s. elementlər analiz edilir, öyrənilir, araşdırılır, problem xarakterli məsələlər qaldırılır, tədqiq edilir, onların səbəbləri, elmin həmin sahəsinin qarşısında duran həll olunmamış və öyrənilməmiş aspektlər tədqiqata cəlb edilərək öz elmi həllini tapır. Belə özünəməxsusluq elmdə ortaya çıxdıqda bu şəxslər dahi tədqiqatçılara, gözəl alimlərə və sonsuz bacarığa malik olan yaradıcı ziyalılara – mütərəqqi intelligensiyaya çevrilirlər. Belə tədqiqatçı alimlərin apardıqları elmi axtarışlar hər zaman yenilik, mütərəqqilik, elmin həmin sahəsinin durmadan inkişafı, böyük elmi yaradıcılıq, gərgin zəhmət, dəqiq və yalnız real faktlara istinad edən dəyərli elmi – tədqiqat əsərlərinin yaranması, işlənməsi və işıq üzü görməsi deməkdir. Elmdə öz sözünü deyən və öz yolu ilə gedən belə istedadlı şəxslər elmi durmadan inkişaf etdirir, onu zənginləşdirir və hər zaman öz üzərlərində çalışırlar. Aparılan gərgin tədqiqatlar nəticəsində elmin ən yüksək zirvələrini fəth etməyə qadir olan və çalışdığı konkret elm sahəsini dəqiqlik və məsuliyyətlə öyrənən, inkişaf etdirən əsl tədqiqatçı alimlər – professional ziyalılar formalaşırlar. Professional tədqiqatçı alimlər öz dəst – xətləri, yaradıcılıq üslubları, həyata və elmə realist baxışları, elmin konkret sahəsinə yanaşma tərzləri, özünəməxsusluqları və s. keyfiyyətləri ilə səciyyələnirlər. Araşdırdıqları konkret elm sahəsini xarakterik xüsusiyyətləri, mütərəqqi fikir və ideyaları, müxtəlif tədqiqat metod və formaları ilə zənginləşdirən professional tədqiqatçı alimlər bütün bunları bir yerdə çulğalaşdıraraq vahid elmi konsepsiyaların irəli sürülməsinə nail olur və onları əldə rəhbər tutaraq tədqiqat sahələrini inkişaf etdirirlər. Tədqiqatçı alim öz mütərəqqi fikir və ideyalarını elmin həmin sferasına gətirərək onu hərtərəfli tədqiqata cəlb edir, müxtəlif mənbələrə müraciət edərək problemin həlli yollarını axtarır, araşdırır, tapır və bu tədqiqatlarını mükəmməl elmi əsərlərə, fundamental yaradıcılıq məhsuluna çevirir. Professional tədqiqatçıların ən yetkin, yaradıcı, mütərəqqi, real fikir və ideyalarına söykənən bu tədqiqat əsərləri həmin sahələr üzrə ixtisaslaşan və professional tədqiqatçılara çevrilən görkəmli alimlərin gərgin zəhməti, böyük elmi axtarışları və gözəl alimlik qələminin real nəticəsi kimi ortaya çıxır. Belə tədqiqatçıların fəaliyyəti və yaradıcılığı, heç şübhəsiz, böyük hörmət və məhəbbətə layiqdir.

Tədqiqatçı alim yalnız öz istedadı, bacarıq və qabiliyyəti, özünəməxsusluğu ilə deyil, həm də gərgin zəhməti, hər zaman çalışqanlığı, apardığı elmi axtarışlar, qaldırdığı problem xarakterli məsələlər, işlədiyi və araşdırdığı fundamental elm sahələri, müxtəlif zəngin mənbələr və s. baxımdan da seçilməli, fərqlənməli və elmdə püxtələşməlidir. Tədqiqatçılar müxtəlif elm sahələri üzrə axtarışlar aparır, elmi inkişaf etdirir və yazdıqları əsərlərlə elmin bütün incəliklərinə bələd olurlar. Tarix elmi bu baxımdan istisna təşkil etmir. Görkəmli tarixçilər yazdıqları dəyərli əsərlərlə elmin bu sahəsinin durmadan inkişafını təmin edirlər. Bu baxımdan fitri istedada malik, gözəl tarixçi alim, dəyərli tədqiqatçı, hər zaman yalnız öz istedadı, sonsuz bacarıq və qabiliyyəti ilə seçilən və çalışan professor Nisbət Mehdiyeva Azərbaycan mədəniyyətinin XX əsrin 60–80-ci illəri dövrünə olduqca dəyərli və fundamental tədqiqat əsərləri həsr etmişdir. Professor Nisbət Mehdiyevanın mədəniyyət sahəsində apardığı gərgin elmi axtarışlar uzun illər ərzində alimin böyük zəhməti, yorulmaq bilmədən elmi fəaliyyəti, böyük istedadı, alimlik duyumu, əsil tədqiqatçıya məxsus bütün müsbət keyfiyyətləri, geniş dünyagörüşü, tədqiqatçı təcrübəsi, alimlik məharəti, mütərəqqi fikir və ideyalarının bariz nümunəsidir. Hər biri əvəzsiz fundamental əsər, dəyərli elmi məxəz, gərgin və böyük zəhmətin məhsulu olan bu tədqiqatlar alimin mədəniyyətin inkişafı sahəsində gördüyü nəhəng elmi fəaliyyətin məntiqi nəticəsi olub olduqca böyük əhəmiyyətə malikdir.

Görkəmli tarixçi alim, tanınmış tədqiqatçı, əsl ziyalı, qeyri – adi bacarıq və qabiliyyətə malik araşdıqmaçı, professional tarixçi – mədəniyyətşünas tarix elmləri doktoru, professor Nisbət Mehdiyeva bir gözəl tarixçi alim kimi yalnız tarix elminin inkişafında deyil, eyni zamanda mədəniyyətin inkişafı, araşdırılması və sırf elmi tədqiqi sahəsində öz orijinal sözünü deyən ən istedadlı alim hesab oluna bilər. Belə ki, Azərbaycan mədəniyyətinin XX əsrin 60–80-ci illər dövrünü dərindən tədqiq edərək mədəniyyətin müxtəlif sferalarına fundamental elmi əsərlər həsr edən professor Nisbət Mehdiyeva öz elmi – tədqiqat əsərləri ilə müxtəlif problem xarakterli məsələlər qaldırmış, araşdırmış və geniş elmi axtarışlar aparmışdır. Professor Nisbət Mehdiyevanın elmi axtarışları mədəniyyətin demək olar bütün sahələrini əhatə edir və bu baxımdan olduqca diqqətəlayiqdir.

Hər bir millətin formalaşması və təkamülündə həlledici rol oynayan mühüm amillər bəşəriyyətin daim qarşısında duran və onu düşündürən tarixi proseslər gedişində qarşıya çıxan, çətin və gərgin mübarizələr səhnəsində baş verən vacib və olduqca əhəmiyyətli proseslərdəndir. Belə ki, millətin formalaşması, püxtələşməsi, saflaşması və inkişafı prosesi onun ziyalılarının formalaşması, meydana çıxması, təkamül prosesi və s. aktual məsələlərlə birbaşa bağlıdır. Cəmiyyət öz ziyalılarını inkişaf etdirdikcə özü də inkişaf edir, durmadan təhsil və elmin müxtəlif sahələrində misilsiz nailiyyətlər əldə edir, öz elmi potensialını gücləndirərək yeniliklər, inkişaf, mütərəqqi metodlar, realizm və yalnız dəqiq faktlara dayanan müasir elmi nailiyyətlərə can atır. Hər bir ziyalı öz millətinin işıqlı övladı, onun sağlam və mütərəqqi düşüncəsi, elmi potensialı, yaradıcı insanı və çox qiymətli elm xəzinəsidir. Hər bir ziyalının yaradıcılığı onun əsas fəaliyyət sahəsi, onun çalışdığı, zəhmət çəkdiyi, uzun illər gərgin mübarizə nəticəsində əldə etdiyi olduqca qiymətli elmi nailiyyətləri, qaldırdığı aktual problemlər, həllini tapdığı və araşdırdığı məsələlər, açdığı yeni yollar, müəyyən etdiyi yeni elmi – tədqiqat sahələri, apardığı gərgin araşdırmalar və axtarışlar, gəldiyi elmi nəticələr, qaldırdığı vacib elmi baxışlar və s. deməkdir. Ziyalılar bu sahələrdə çalışaraq onları daim inkişaf etdirir, təkmilləşdirir, müasirləşdirir, mütərəqqi ideyalarla zənginləşdirir və müasir elmin tələbləri ilə səsləşən problemlərin həlli yollarını axtarıb taparaq özlərini bu rolda əsil alim və ziyalı kimi formalaşdırırlar. Bu baxımdan yaradıcı ziyalıların yaradıcılığı onların istedad və qabiliyyəti, bacarıq və məharətinin parlaq nümunəsidir. Yaradıcı ziyalıların fəaliyyət dairəsi olduqca geniş olub mədəniyyətin bütün sferalarını əhatə edir.

Mədəniyyətin inkişafı cəmiyyətin qarşısında duran ümdə məsələlərdən biridir. Mədəniyyət cəmiyyətin formalaşması, təkmilləşməsi, mütərəqqi inkişaf yoluna qədəm basması, sivil və hüquqi aspektdə fəaliyyət göstərməsi yolunda mühüm rol oynayan sahələrdən hesab oluna bilər. Mədəniyyət inkişaf etdikcə cəmiyyət də inkişaf edir, təhsil və elm öz həqiqi və rəngarəng çalarını kəsb edərək insanların düzgün yolla, mütərəqqi və şüurlu formalaşma istiqaməti ilə addımlamasını təmin edir. Məhz bu baxımdan mədəniyyət öyrənilməli, təbliğ edilməli, tədqiq olunmalı, araşdırılmalı və əlaqələrin həlledici istiqamətlərindən biri olmalıdır. Mədəniyyətin öyrənilməsi çoxşaxəli proses

olub onun bütün sahələrinin eyni dərəcədə səmərəli və ədalətli şəkildə elmi araşdırmaya cəlb edilməsi deməkdir. Mədəniyyətin elmi cəhətdən tədqiqi, analizi və öyrənilməsi onun bədiilik və əyləncə xarakterindən uzaqlaşaraq daha çox realizm, hadisələrin qanunauyğun izahı, şərhi, öyrənilməsi və uğurlu həlli istiqamətində inkişafının təmin edilməsi deməkdir. Mədəniyyət elə bir sahədir ki, o yalnız alimləri və ziyalıları deyil, həm də cəmiyyətin digər təbəqələrini maarifləndirməli, tərbiyə etməli, öyrətməli, istiqamətləndirməli və formalaşdırmalıdır. İnsanın bir şəxsiyyət kimi formalaşmasında mədəniyyətin bütün sahələri müstəsna əhəmiyyət daşıyır. Mədəniyyətin müxtəlif sahələri ilə tanış olan şəxs getdikcə özündə bu müsbət və realist keyfiyyətləri formalaşdıraraq mükəmməl və yetkin şəxsiyyət kimi cəmiyyətdə fəaliyyət göstərməyə başlayır. Belə insanlar müasir dünyanın bütün çətinlik, işgəncə və haqsızlıqlarına igidliklə sinə gərərək hər zaman qələbə çalır və mədəni, yetkin, savadlı, şüurlu və mütərəqqi insan obrazının həyatda real və bariz nümunəsi olur. Mədəniyyətin təbliği çox vacib məsələlər sırasındadır. Təbliğat müasir dünyanın ən güclü və təsirli vasitəsi olub insanların mənəvi tərbiyəsi və düzgün formalaşması prosesində həlledici rol oynayır. Belə ki, elm və texnikanın son nailiyyətləri ilə tanış olan insan bu yenilikləri real həyata, gözəlliyə, yaradıcılığa, təcrübəyə və gündəlik fəaliyyətinə gətirməyə çalışır. Bu cəhdlər nəticədə mədəniyyətin müxtəlif sferalarının rəngarəng inkişafı, yenilənməsi, mütərəqqi ideya və tendensiyaların mədəniyyətə sirayət etməsi, təhsil və elmin tərəqqisinə səbəb olur. Məhz buna görə mədəniyyətin təbliği olduqca mühüm əhəmiyyət daşıyır və o yanlış yolla yox, düzgün yolla gedərək insanların tərbiyəsi, həyatı, dünyagörüşü və formalaşmasına öz müsbət töhfəsini verməlidir. Mədəniyyətin araşdırılması bu baxımdan təbliğatın daha səmərəli aparılmasına kömək edərək onu elmi faktlar, düzgün təhlil və əsərlərlə zənginləşdirə bilər. Mədəniyyətin öyrənilməsi prosesi alimlərdən böyük məsuliyyət, ziyalı vicdanı, sonsuz zəhmət, geniş dünyagörüşü və s. müsbət keyfiyyətlərin formalaşması və yalnız bundan sonra mədəniyyətin qarşısında duran problemlərin düzgün tədqiq edilməsini tələb edir. Mədəniyyət həm də əlaqələrin həlledici istiqamətlərindən biridir. Belə ki, insanlar müxtəlif xalqların nümayəndələri olduqlarını yaratdıqları əsərlər, əl işləri, yaradıcılıq nümunələri və s. rəngarəng formalarda ifadə edərək onları öz

dünyagörüşləri, istedad və bacarıqları, mütərəqqi fikirləri, yeniliklər və fərdi xarakterik xüsusiyyətləri ilə zənginləşdirirlər. Bu işdə yaradıcı ziyalıların rolu və fəaliyyəti müstəsna əhəmiyyət daşıyır.

Mədəniyyət problemləri hər zaman aktual olub öz rəngarəngliyi, özünəməxsusluğu, xarakterik xüsusiyyətləri, real faktlara istinad etməsi, eyni zamanda sənətkarın bədii təxəyyülünün məhsulu olması ilə seçilir. Yaradıcı ziyalı bir sənətkar kimi çalışdığı sahəni işləyərək rəngarəng edir və onu öz yaradıcılığı ilə, həmçinin gözəl əsərləri, qəhrəmanları, süjetləri, istedadı, bacarıq və qabiliyyəti ilə zənginləşdirir, nəticədə mədəniyyət zənginləşir, fərqli və misilsiz yaradıcılıq koloritləri ilə maraqlı, baxımlı, düşündürücü, ideya baxımdan mükəmməl, səlis, formaca milli, məzmunca realist olur. Bu baxımdan yaradıcı ziyalıların Azərbaycan mədəniyyətinin inkişafında oynadığı rol xüsusilə diqqətəlayiqdir. Onlar Azərbaycan elminin inkişafında öz gərgin və yorulmaq bilməyən fəaliyyəti ilə xüsusilə seçilmiş və hər zaman özünəməxsusluqları ilə fərqlənmişlər.

Azərbaycan tarix elminin görkəmli ziyalısı, tarix elmləri doktoru, professor, gözəl tədqiqatçı alim Nisbət Mehdiyeva elmin çox çətin sahələrində cəsarətlə addımlamış və böyük tədqiqat işləri aparmışdır. Professor Nisbət Mehdiyevanın Azərbaycan Yaradıcılıq İttifaqlarının fəaliyyəti və təbliğat sahəsində gördüyü və apardığı yaradıcı əməyinə həsr olunmuş tədqiqat əsərlərində bu təşkilatların 1960–1980 – ci illərdə ölkəmizdə mədəniyyətin inkişafı, istedadlı və yaradıcı şəxslərin üzə çıxarılması, hər bir şəxsin elmi potensialının təşviqi, xalqın və əhalinin ümumi mədəni səviyyəsinin yüksəldilməsi, yaradıcı fəaliyyətlə məşğul olan istedadlı və həqiqətən bacarıqlı şəxslər üçün işgüzar və yaradıcı mühitin təmin edilməsi, ölkənin görkəmli ziyalılarının bu yaradıcılıq prosesinə cəlb edilməsi, dövlətin mədəniyyətin inkişafı sahəsində sağlam və düzgün siyasətinin formalaşdırılması və s. aktual məsələlər geniş tədqiqata cəlb edilmiş və alimin böyük səyi nəticəsində öz layiqli elmi həllini tapmışdır.

Müasir dövrün xarakterik xüsusiyyətlərindən biri də insanların siyasi, iqtisadi və mədəni sahələrdə fəaliyyətini formalaşdırmaq, təşviq etmək, inkişaf etdirmək, istiqamətləndirmək, bu məqsədlə zəruri fəaliyyət planları hazırlamaq və həyata keçirmək üçün həlledici vasitə və yollar axtarmaqdır.

Beləliklə, bütün bu sahələrin inkişafı mədəniyyətin inkişafı və təşviqi ilə birbaşa bağlıdır. Bu baxımdan, mədəniyyətin kompleks inkişafı birbaşa və ya dolayı yolla onunla əlaqəli sahələrin tədricən yetkinləşməsi, inkişafı və formalaşması deməkdir. Dövlətin peşəkar və həvəskar yaradıcılığın inkişafına qayğısı, özünəməxsusluğu ilə seçilən, öz yoluna malik, bu sahədə bütün incəlikləri mənimsəmiş və zamanla daha hazırlıqlı kadr halına gələn peşəkar yaradıcılıqla hələ də yeni yollar açan və öz sözünü deməyə çalışan həvəskar yaradıcılıq arasındakı fərqə baxmayaraq, hər ikisinə cəmiyyətdə yer verilməsi və onların təşviqi olduqca diqqətəlayiqdir. Yaradıcılıq İttifaqlarının incəsənət əsərlərinin təbliği sahəsində həyata keçirdiyi fəaliyyət bu sahədə mühüm rol oynayır.

Professor Nisbət Mehdiyevanın bu sahədə apardığı gərgin, olduqca yaradıcı və məhsuldar elmi fəaliyyəti danılmazdır. Azərbaycanın milli – mənəvi dəyərləri və dünyanın ən mükəmməl elmi və mədəni nümunələrinə söykənən, cəmiyyətin ümumi mədəni səviyyəsinin formalaşmasında xüsusi rol oynayan və bədii yaradıcılıqla məşğul olan Yaradıcılıq İttifaqlarının fəaliyyətinin araşdırılması professor Nisbət Mehdiyevanın tadqiqatlarında irəliyə doğru atılmış yaradıcılıq uğuru hesab olunmalıdır.

I fəsil

# YORULMAZ MÜBARİZ VƏ GÖRKƏMLİ TARİXÇİ ALİM PROFESSOR NİSBƏT MEHDİYEVANIN FƏALİYYƏTİ

## 1.1. Elmi fəaliyyət

Zaman hər şeyi öz yerinə qoyur. Tarixin çətin sınaqlarından şərəf və cəsarətlə çıxan, heç zaman öz haqq yolundan çəkinməyən, düz mövqeyindən dönməyən və bu işdə daim yorulmaz mübariz olan görkəmli şəxslər sözün əsil mənasında ən dəyərli münasibət və hörmətə layiqdirlər. Belə şəxslər elmdə öz sözünü deyəndə tamamilə fərqli və olduqca gözəl bir mənzərə ilə qarşılaşmış olursan. Onlar fəaliyyət göstərdikləri bütün sahələri öz tükənməz və yorulmaq bilməyən münasibəti və mövqeyi ilə daim inkişaf etdirir, yeniləyir, dəyişir, mükəmməlləşdirir, formalaşdırır, sivil və yetkin səviyyəyə qaldırırlar. Elm belə mübarizlər, dürüst insanların səmimi və yetkin baxışı, düzgün əməlləri və bəşəriyyətə sivil münasibətin təcəssümü olan, şərəfli, saf ürəkli insanlar və elmi anlayan, dərk edən, yaxşılığa doğru dəyişən əsil alim və görkəmli tədqiqatçıların böyük zəhməti, inamı və istedadı üzərində formalaşır, inkişaf edir və elmə çevrilir. Bunu edən alimlər zamanın bütün sınaqlarından keçərək ona qalib gəlir və heç nəyə baxmayaraq əsil tədqiqatçı və insan kimi formalaşırlar. Dünyanın ən dəyərli insanları olan alimlər əsil ziyalı işığında bütün əməlləri və zəhmətlərini formalaşdıraraq elmin dəyərini və aparılan tədqiqatların qiymətini parlaq şəkildə nümayiş etdirirlər. Belə həmişəyaşar alimlər, yaradıcı ziyalılar, görkəmli tədqiqatçılar və istedadlı şəxslər elmin çətin yollarında cəsarət və inamla addımlayaraq bütün maneələri keçir və dünyanı elm xəzinəsi ilə zənginləşdirirlər. Öz açdığı dürüst yolla inamla irəliləyən və bu yolda heç bir maneədən çəkinməyən belə şəxslər alimlik şərəfini uca tutaraq hər zaman mübariz mövqelərini nümayiş etdirirlər. Tarix belə mövqeli şəxslər və əsil ziyalıların həyata və elmə baxışı üzərində formalaşır. Tarix elmi də görkəmli alim və tədqiqatçıların gərgin əməyi, sonsuz inamı, yorulmaz

fəaliyyəti və tükənməz münasibəti sayəsində əsil elmə çevrilir, yetkinləşir və keçdiyi bütün maneələrdən şərəf və cəsarətlə çıxır. Belə görkəmli şəxslər zamanın istəyi ilə deyil, zaman onların istəyi ilə fəaliyyət göstərir və çalışdıqları sahəni mükəmməlləşdirərək düzgün istiqamətdə yönəldir. Aparılan böyük tədqiqatlar, çəkilən zəhmət, görülən gərgin iş, bəslənilən əsil ziyalı münasibəti, nümayiş etdirilən sonsuz inam və mübarizlik belə alim və tədqiqatçıları görkəmli şəxslər və peşəkarlara çevirir. Onlar hər inkişaf mərhələsində daha mübariz, inamlı, yetkin və şüurlu fəaliyyətə imza atırlar. Azərbaycan elmi də belə gözəl alimlərin dürüst münasibəti və şüurlu addımları, apardıqları geniş elmi fəaliyyət nəticəsində müasir inkişaf səviyyəsinə yüksəlmişdir. Bu inkişafın arxasında böyük zəhmət və gözəl alimlik istedadı dayanır. Azərbaycan tarix elminin inkişafında öz sözünü deyən və heç kimə bənzəməyərək hər zaman öz dəst – xətti ilə seçilən belə görkəmli alimlərdən biri də tarix elmləri doktoru, professor Nisbət Mehdiyevadır. Tədqiqatçı alim uzun illər müxtəlif tədqiqat sahələri üzrə fəaliyyət göstərərək fundamental əsərlər yazmış və hər zaman yenilik, mütərəqqilik və realizmə üstünlük vermişdir. O bütün tədqiqat əsərlərində real tarixi faktlar, əsil tarixçi duyumu, hər zaman düşünən, anlayan, dərk edən, dürüst qiymətləndirməyi bacaran və yaradıcı alimlik məharətinə əsaslanaraq görkəmli alim, gözəl tədqiqatçı və böyük pedaqoq kimi fəaliyyət göstərmişdir. Professor Nisbət Mehdiyevanın elmi yaradıcılığı bütün təriflərdən artıqdır. Onun şərəfli elmi və əmək fəaliyyətinin Azərbaycan tarix elminin inkişafında oynadığı rol danılmazdır.

Gənc Nisbət Mehdiyeva 1960 – cı ildə Azərbaycan Dövlət Universiteti Tarix fakültəsinin əyani şöbəsini bitirmişdir. O 1960–1963 – cü illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır. Nisbət Mehdiyeva 1964–1967 – ci illərdə Azərbaycan Dövlət Universitetində əyani aspirant olmuşdur. O 1967–1973 – cü illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda müəllim və baş müəllim vəzifələrində işləmişdir. Gənc Nisbət Mehdiyeva 1968 – ci ildə "Azərbaycan Həmkarlar İttifaqlarının partiyanın rəhbərliyi altında neft sənayesinin bərpası uğrunda mübarizəsi (1921–1925 – ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. O 1973–1991 – ci illərdə Azərbaycan Dövlət Universitetində dosent əvəzi və dosent olmuşdur. Nisbət Mehdiyeva 1991 – ci ildə "Azərbaycan Yaradıcılıq

İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı doktorluq dissertasiyası müdafiə etmişdir. Tarixçi alim Nisbət Mehdiyeva 1991–1994 – cü illərdə Bakı Dövlət Universitetində professor əvəzi, 1994 – cü ildən isə professor olmuşdur.



**Şəkil 1.** Gənc tarixçi alim Nisbət Mehdiyeva

Gənc tarixçi alim Nisbət Mehdiyeva (Şəkil 1) tədqiqat sahəsi kimi ictimai təşkilatlar, yaradıcılıq ittifaqları və cəmiyyətləri, mədəniyyət problemləri, türk xalqlarının tarixi və s. məsələləri araşdırmış və bununla bağlı tədqiqat əsərləri yazmışdır. Alim 1968 – ci ildə müdafiə etdiyi namizədlik dissertasiyasında Azərbaycan Həmkarlar İttifaqlarının Azərbaycanın demək olar bütün aparıcı sahələri, o cümlədən neft sənayesində apardığı böyük mübarizə və gördüyü əməli işi ətraflı şəkildə tədqiqata cəlb etmişdir. Müəllif Həmkarlar İttifaqlarının Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyətində işçi və əmək hüquqlarının qorunması, insanların əməyə cəlb edilməsi, şüurlu və səmərəli əməyin təşkili, eyni zamanda əməyin işçilərin təminatı və həyat fəaliyyətinin yaxşılaşdırılmasında oynadığı mühüm və həlledici rolu öz tədqiqat əsərində

yalnız real faktlar əsasında araşdırmışdır. O, əməyin təşkili, səmərəliliyinin artırılması, işçilərin hüquq və azadlıqlarının qorunması, iş prsesində əməyin təhlükəsizliyinin təminatı, işçilərin sağlamlığının mühafizəsinin təminatının ən vacib məsələlərdən biri olması və s. problemlərə diqqətlə yanaşmışdır. Azərbaycan Həmkarlar İttifaqlarının apardığı səmərəli fəaliyyət və davamlı mübarizə müəllif tərəfindən ciddi tədqiqata cəlb edilmiş və fundamental səviyyədə yazılmışdır.




**Şəkil 2.** Tarix elmləri doktoru, Professor Nisbət Mehdiyeva

Artıq 1991 – ci ildə gənc tarix elmləri namizədi Nisbət Mehdiyeva (Şəkil 2) 1960–1980 – ci illərdə Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyətini araşdıraraq yeni fundamental elmi – tədqiqat əsəri – doktorluq dissertasiyası yazmış və bu mövzuda müdafiə etmişdir. Bu keçmiş SSRİ – də Yaradıcılıq İttifaqlarının tarixinə həsr olunmuş ilk doktorluq dissertasiyasıdır.

Azərbaycan Yaradıcılıq İttifaqlarının fəaliyyətinin 1960–1980 – ci illər dövrü olduqca zəngin olub bu sahədə görülən nəhəng işin miqyasını və gərəkli olduğunu göstərir. Yaradıcılıq İttifaqları bədii fəaliyyətlə məşğul

olaraq mədəniyyətin inkişafı sahəsində yorulmadan təbliğat və təşviqat işi aparmışdır.

Müəllif Yaradıcılıq İttifaqlarının insanların əxlaqi – mənəvi dəyərləri, estetik dünyagörüşü, bilik və bacarıqları, mənəvi dünyası, yetkin bir şəxs kimi yetişməsi və formalaşması, yaradıcı və istedadlı insanların üzə çıxarılması, mədəniyyətin digər elm sahələrinin inkişafında həlledici rol oynaması, yaradıcı ziyalıların bəşəriyyətin və vətəndaşların problemləri, gündəlik üzləşdikləri çətinlik və maneələrin aradan qaldırılması sahəsində apardıqları gərgin və gərəkli əməyin araşdırılması, fəaliyyət sahələrinin öyrənilməsi və elmi analizə cəlb edilməsi sahəsində böyük tədqiqat işi aparmışdır. Hər bir Yaradıcılıq İttifaqının mədəniyyətin inkişafı sahəsində apardığı özünəməxsus fərdi iş dəyərli tədqiqatçı alim Nisbət Mehdiyevanın tədqiqat obyektinə çevrilmiş, müasir mədəniyyətin nəzəri və praktik problemlərinin araşdırılması sahəsində yaradıcı ziyalıların oynadığı elmi və bədii fəaliyyət diqqətə çatdırılmışdır.

Yaradıcılıq İttifaqları ölkənin mədəniyyətinin əsas inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün mütəmadi olaraq müxtəlif əməli tədbirlərin keçirilməsi, klassik və müasir dövr nadir əsərlərin üzə çıxarılması, qorunması, nəşri, yayılması, təbliği, öyrədilməsi və s. – in təşkili, görkəmli yaradıcı ziyalıların sənət və yaradıcılığının təbliği, dəyərli kadr və ziyalıların qorunması, onların qiymətli incəsənət əsərləri və nümunələrinin dəyərləndirilməsi və s. sahələrdə fəaliyyət göstərmişdir.

Azərbaycan Yaradıcılıq İttifaqlarının 1960–1980 – ci illərdə mədəniyyətin inkişafı sahəsində apardığı fəaliyyət mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsi alan alim Nisbət Mehdiyeva Azərbaycanda bu sahədə belə fundamental əsər yazmış ilk dəyərli və istedadlı tədqiqatçılardan biridir. Belə ki, dəyərli alim Nisbət Mehdiyeva Azərbaycan Yaradıcılıq İttifaqlarının Azərbaycan mədəniyyətinin inkişafında oynadığı əhəmiyyətli rolu, onların cəmiyyətin mənəvi inkişafına təsiri, mədəniyyətin inkişafı sahəsində əldə olunmuş nailiyyət və nöqsanların dəqiq analizini apararaq növbəti fundamental əsər yazmışdır. Bu tədqiqatın elmi dəyəri və yeniliyi ondan ibarətdir ki, əsərdə ilk dəfə olaraq Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti belə geniş aspektdə araşdırılmış və ciddi tədqiqata cəlb edilmişdir.



**Şəkil 3.** Professor Nisbət Mehdiyeva

Professor Nisbət Mehdiyeva (Şəkil 3) bu sahədəki tədqiqatlarını daha da genişləndirərək mövzu üzərində işləməkdə davam etmiş və 2014 – cü ildə "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı fundamental monoqrafiya yazmışdır. Monoqrafiyada Azərbaycan tarixşünaslığında Yazıçılar Birliyi, Bəstəkarlar İttifaqı, Rəssamlar İttifaqı, Teatr Xadimləri İttifaqı və Kinematoqrafçılar İttifaqının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti məsələləri öz əksini tapmışdır. Yaradıcı ziyalıların ideya – siyasi səviyyəsi və professional sənətkarlığı, ittifaqların yaradıcılıq və təşkilati işləri, bədii mədəniyyətin təbliğində onların rolu, mədəni əlaqələr sahəsində fəaliyyəti və s. problemlər tədqiqat əsərində yüksək dəqiqliklə işlənmişdir.

Əsər tədqiqat obyekti kimi böyük maraq doğurur. İttifaqların fəaliyyət dairəsi olduqca geniş və əhəmiyyətli olub özünəməxsusluğu ilə seçilir. Hər bir məsələnin izahı və inkişafı prosesində əldə edilmiş nailiyyət və qazanılmış müvəffəqiyyətlərin verilməsi ilə yanaşı, çatışmazlıq və yol verilmiş qüsurlar da müəllifin diqqətindən yayınmamışdır. Bu mövzuları işləyərkən professor

Nisbət Mehdiyeva yeni anlayış tərzi və tədqiqat prosesində müxtəlif faktların aşkar olunması ilə bağlı məsələləri də ətraflı şəkildə şərh etməyə nail olmuşdur.

Professor Nisbət Mehdiyeva bununla yanaşı türk xalqlarının tarixinin yeni dövrünə aid gözəl bir tədqiqat əsəri – dərsliyin müəllifidir. Onun “Türk xalqlarının tarixi. Yeni dövr (XIX–XX əsrin əvvəlləri)” adlı fundamental əsəri türk xalqlarının yeni dövrü, regionun bu dövrdə üzləşdiyi ictimai – siyasi proseslər, inzibati – idarəetmə sistemi, siyasi durum, türk xalqlarının həyatında baş verən müxtəlif hadisələr, üzləşdiyi çətinlik və problemlər, iqtisadi vəziyyət, mədəniyyət problemləri və s. aktual sahə və mövzuları özündə ehtiva edir. Müəllif türk xalqlarının XIX–XX əsrin əvvəlləri dövrünü tədqiqata cəlb edərkən burada regionun işğala qədərki, işğal və işğaldan sonrakı dövrdə vahid idarəetmə sisteminə daxil edilməsi, türk xalqlarının yaşadıqları ərazilərdə feodal – patriarxal idarəetmə sisteminin getdikcə tənəzzülə uğraması və kapitalist münasibətlərinin formalaşması, bu dövrdə gedən müxtəlif ictimai – siyasi proseslərdə türk xalqlarının oynadığı rol, əhəmiyyəti və hadisələrin gedişi prosesində tutduqları mövqeni araşdırmış və bu sahədə fəaliyyət göstərən digər alimlərdən fərqli olaraq hadisələri yaln; z real faktlar və mənbələr əsasında tədqiq etməyə nail olmuşdur. Professor Nisbət Mehdiyevanın bu fundamental əsəri 2003 və 2010 – cu illərdə işıq üzü görmüşdür. Dərslik türk xalqlarının tarixinin yeni dövrünün (XIX–XX əsrin əvvəlləri) öyrənilməsi və tədrisi sahəsində dəyərli mənbə olub olduqca qiymətli elmi məxəz hesab oluna bilər.

Ayrı – ayrı dövrlərdə professor Nisbət Mehdiyeva türk xalqlarının XIX–XX əsrin əvvəllərində inzibati – idarəetmə sistemində dəyişikliklər, Türküstanda təhsil sisteminin vəziyyəti və üzləşdiyi problemlər, region xalqlarında elmin inkişafı və ona şərait yaradan ictimai – siyasi vəziyyət, türk xalqlarının dövlətçilik məsələləri, maarifçiliyin təbliği və inkişafı problemləri, bu regionda fəaliyyət göstərən elmi cəmiyyət və təşkilatlar, onların elmi ekspedisiyaları və yazdıqları fundamental əsərlər, burada dövri mətbuat və mədəni – maarif müəssisələrinin gördüyü səmərəli iş və fəaliyyət sahələri, mədəniyyət problemləri və s. aktual mövzuları elmi tədqiqata cəlb edərək türk xalqlarının yeni dövrünün xarakterik xüsusiyyətləri və özünəməxsus cəhətlərini araşdırmışdır.



**Şəkil 4.** Pedaqoq Professor Nisbət Mehdiyeva

## 1.2. Əmək fəaliyyəti

Professor Nisbət Mehdiyeva (Şəkil 4) uzun illər pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Onun böyük zəhməti sayəsində yüzlərlə tələbə tərəfindən təhsil və elmin mükəmməl səviyyədə mənimsənilməsi, öyrədilməsi, təbliği, o cümlədən təhsilin aparıcı sahələrdən birinə çevrilməsi məsələsində böyük pedaqoji iş görülmüşdür. Professor Nisbət Mehdiyeva "Türk xalqlarının tarixi. Yeni və Müasir dövr" fənnindən bakalavriat pilləsi, "Mərkəzi Asiya, Qazaxıstan, Volqaboyu, Sibir və Krımda ictimai – siyasi vəziyyət (XIX–XX əsrin əvvəlləri)" və "Türk xalqlarının mədəniyyəti (XIX–XX əsrin əvvəlləri)" problemləri üzrə magistratura pilləsində dərslər aparmışdır.

Pedaqoji fəaliyyətlə bağlı professor Nisbət Mehdiyeva ali məktəblər üçün dərslik "Türk xalqlarının tarixi. Yeni dövr (XIX–XX əsrin əvvəlləri). Bakı: 2003 və 2010, orta ümumtəhsil məktəbləri üçün 8 dərslik (2001, 2002, 2004, 2005 və 2007) (birinci və yenidən işlənmiş nəşrlərdə), dərs vəsaiti, metodik göstəriş, 11 proqram və s. yazmışdır.

Azərbaycan tarix elminin görkəmli nümayəndəsi, elmin bütün maneə və çətinliklərinə igidlik və qəhrəmancasına sinə gərən, fəaliyyət göstərdiyi tarix

elmini inkişaf etdirərək onu daim irəliyə aparan, gənc və həmişəyaşar tarixçi alim, böyük şəxsiyyət və pedaqoq, professor Nisbət Mehdiyevanın elmi və pedaqoji fəaliyyəti olduqca dəyərlidir.

# II fəsil
# GÖRKƏMLİ ALİM PROFESSOR NİSBƏT MEHDİYEVANIN MƏDƏNİYYƏT SAHƏSİNDƏ ELMİ TƏDQİQATLARI (XX ƏSRİN 60–80 – Cİ İLLƏRİ)

## 2.1. Mədəniyyət sahəsində görülən işlər

Hər dövrün öz obyektiv və subyektiv şərtləri vardır. Bu şərtlər cəmiyyətin inkişafı və formalaşması, getdikcə şablon mövqelər və həyat tərzindən uzaqlaşaraq mütərəqqi, novatorçu, şəffaf və düzgün yola çıxması, ədalətli inkişaf kursu götürməsinə öz təsirini göstərir. Dövrün ən vacib tələbi dövləti və xalqı, o cümlədən xalqın əsl tükənməz dəyəri hesab olunan ziyalıları siyasi, iqtisadi və mədəni baxımdan şüurlu, yetkin səviyyəyə qaldırmaq və bunun üçün ziyalıların elmi və yaradıcı potensialını ən səmərəli və humanist şəkildə səfərbərliyə almaqdan ibarət olmalıdır. Bu baxımdan XX əsrin 60–80-ci illəri Azərbaycan tarixinin ən məhsuldar, ideya – siyasi fikrin inkişafı baxımdan yetkin, insani baxımdan ən humanist, mədəni baxımdan ən mütərəqqi və qabaqcıl dövrlərindən hesab olunmalıdır.

Hər bir xalq öz mədəniyyəti ilə formalaşır, inkişaf edir və bu prosesdə bütün nöqsan və çatışmazlıqlardan qurtularaq özündə ən müsbət keyfiyyətləri, insana hörmət, valideynlərə böyük ehtiram və qayğı, əsil ziyalıların qorunması, vətənin düzgün istiqamətdə inkişafı, yanlış sözlər və hərəkətlərdən çəkinmək, başqa insanlara hörmət etmək və onların həyatlarına müdaxilə etməmək, hər zaman oxumaq, çalışmaq, haqsızlıq və ədalətsizliyə qarşı mübarizə aparmaq, elm və kitablarla dostluq etmək, zülm və işgəncələri cəmiyyətin həyatından çıxarmaq, ideya – siyasi cəhətdən yetkin olmaq, dünya və ölkədə baş verən düzgün və yanlış hadisələrə yalnız obyektiv və elmi prizmadan yanaşmaq, nadan və cahil şəxslərin əsil ziyalılarla yolverilməz davranışına qarşı müqavimət göstərmək, dünyanı və ölkəni sevmək, onun maddi və mənəvi sərvətlərini qorumaq, onlara sahib çıxmaq, xalqın zəngin mənəvi dəyərlərinin

hifz edilməsi və qorunması yolunda hər zaman qarşıya çıxan bütün maneə və çətinliklərə qarşı mübarizə aparmaq və qalib gəlmək, dünyamızı düzgün dəyərlər üzərində qurmaq və s. dəyərli xüsusiyyətləri tərbiyə etmək üçün durmadan çalışır. Bütün bu əxlaqi – estetik və mənəvi inkişafda aparıcı rol mədəniyyətə məxsusdur.

Mədəniyyət bütün sferaları ilə mükəmməl və gözəldir. Bu gözəllik xalqın təhsili, elmi, incəsənəti, davranışı və gündəlik həyatı, insanların münasibəti, dünyanın qavranması, ətraf mühitin dərk edilməsi, təbiət gözəlliklərinin insanın həyat və məişətinə sirayət etməsi və s. epizodlarda təzahür edir. Bu gözəllik və üstün mədəni nailiyyətlərin yaranması üçün mədəniyyət sahəsində çalışan ziyalılar, müxtəlif təşkilat və qurumlar durmadan çalışır, işləyir və zəruri fəaliyyətlə məşğul olurdular. Bu baxımdan Azərbaycan Yaradıcılıq İttifaqları və onların sıralarında təmsil olunan yaradıcı ziyalıların fəaliyyəti XX əsrin 60–80-ci illərində xüsusilə diqqətəlayiq olmuşdur.

Mədəniyyətin inkişafı milli mədəniyyətin tükənməz xəzinəsi hesab olunan – memarlıq, musiqi, təsviri incəsənət, dekorativ – tətbiqi incəsənət və s. sahələrin öyrənilməsi və dərk edilməsi ilə sıx bağlıdır. Rəssamlıq, memarlıq, təsviri incəsənət, dekorativ – tətbiqi incəsənət, musiqi, teatr və kinonun müxtəlif növlərinin inkişafı 1960–1970 – ci illərdə mürəkkəb və çoxçalarlı palitraya malik olmuşdur. Bu dövr Azərbaycan mədəniyyəti yaradıcılıq forma və metodlarının rəngarəngliyi, özünəməxsus xüsusiyyətləri və fərqli üslub tendensiyaları ilə xarakterizə olunurdu. Bu dövrdə mədəniyyətin bütün sahələrinin intensiv inkişafı elmdə yeni sahə – memarşünaslıq və incəsənətşünaslığın meydana gəlməsi və inkişafına səbəb olmuşdur. İncəsənətşünaslar musiqi folklor nümunələrinin toplanması və tədqiqi, bu dövr Azərbaycan musiqisinin inkişaf problemləri, teatr sənətinin tarixi və müasir inkişafı məsələləri və s. aspektlərin öyrənilməsi ilə məşğul olmuşlar. XX əsrin 60 – cı illərində bir sıra tədqiqat əsərləri – "Sovet Azərbaycanının monumental heykəltəraşlığı" (1960), "Azərbaycanın memarlıq ornamenti" (1961), "Azərbaycan sovet qrafikası" (1962), "Azərbaycan memarlığı tarixi" (1963), "Azərbaycan xalq memarlığı və onun mütərəqqi ənənələri" (1963) və "Azərbaycan bədii keramikası" (1964) yazılmış və çapdan çıxmışdır. Artıq XX əsrin 60 – cı illərinin sonu – 70 – ci illərinin əvvəllərində təsviri incəsənətin tarixi və müasir

tendensiyalarının öyrənilməsi sahəsində müəyyən tədqiqat işləri aparılmışdır. Nəticədə bu sahəyə həsr olunmuş tədqiqat əsərləri – "Sovet Azərbaycanının təsviri incəsənəti" (1970), "Sovet Azərbaycanının memarlığı" (1973), "Əzim Əzimzadənin yaradıcılığı və Azərbaycan sovet qrafikasının inkişafında onun yeri" (1976), "Azərbaycan dekorativ – tətbiqi sənəti (1976), "Sovet Azərbaycanının heykəltəraşlığı" (1979) və s. çapdan çıxmışdır.

Musiqi sahəsində Azərbaycan xalq musiqisi və professional musiqi yaradıcılığı, görkəmli bəstəkarların fəaliyyəti, o dövrün müasir tendensiyaları, yaradıcılıq problemləri, milli musiqi folklorunun toplanması, klassifikasiyası və öyrənilməsi, Azərbaycan muğamlarının elmi təhlili, tədqiqi və nəşri, aşıq yaradıcılığı, rəqs musiqisi, xalq mahnıları, xalq musiqi alətləri, Azərbaycanın musiqi – etnoqrafik atlasının yaradılması və s. aktual məsələlərə həsr olunmuş dəyərli tədqiqat əsərləri yaradılmış və nəşr edilmişdir. Onlardan "Azərbaycan sovet bəstəkarlarının kamera – instrumental yaradıcılığı" (1961), "Çargah və Humayun" (1962), "Rast və Şahnaz" (1963), "Bayatı – Şiraz və Şur" (1963), "Çargah" (1970) kimi Azərbaycan muğamları, həmçinin "Azərbaycan musiqili teatrının yaranması və inkişafı" (1968) və s. – ni misal göstərmək mümkündür.

Azərbaycan Teatrının öyrənilməsi sahəsində teatrşünasların apardığı tədqiqatlar teatrın qarşısında duran aktual problemlər, teatr və tamaşaçı ünsiyyətinin qurulması, teatrların repertuarlarının müasir dövr və reallıqla səsləşməsi, aktyor sənətinin püxtələşməsi, aktyor, rejissor, tamaşaçı baxışının qurulması, cəmiyyətin müxtəlif təbəqələrini narahat edən və düşündürən sənət əsərlərinin səhnələşdirilməsi, bacarıqlı aktyor kollektivinin seçilməsi və formalaşdırılması, peşəkar kadrların tamaşa və teatrlara cəlb edilməsi və s. məsələlərə həsr olunmuşdur. Bu tədqiqat əsərlərindən "Azərbaycan dramatik teatrı" (1962), "Axundov və teatr" (1962), "Sovet Azərbaycanının gənclər teatrı" (1969), "Azərbaycan teatrı 100 il ərzində" (1974) və s. – ni misal göstərmək mümkündür.

Kinoşünasların Azərbaycan kino sənətinin müasir tendensiyalarına həsr olunmuş müxtəlif tədqiqat əsərləri kinonun tarixi və inkişafı, kino aktyorlarının yetişdirilməsi, kinofilmlər üçün ssenarilərin yazılması, tamaşaçı auditoriyasının formalaşması, kino ədəbiyyatının yazılması və təhlili,

kinodramaturqların hazırlanması, kino əsərlərinin müasir vəziyyəti, peşəkar kino aktyorların yetişdirilməsi, kino yaradıcılığı məsələləri, kinoşünaslıq və kino tənqidi kimi sahələrin formalaşması, bədii və sənədli filmlərin aktual məsələlərə həsr edilməsi, bədii filmlərdə süjet xəttinin bədii təxəyyül və real faktlar əsasında formalaşması, kinofilmlərdə qaldırılan problemlərin cəmiyyətin bütün təbəqələrinin mənəvi ehtiyaclarına cavab verməsi və s. zəruri aspektləri əks etdirmişdir. "Azərbaycan sənədli filmi" (1971) adlı kitab sənədli filmlərin yaranma, formalaşma və inkişafı tarixinə həsr olunmuşdur.

XX əsrin 60–80-ci illərində ədəbiyyat böyük və məhsuldar inkişaf yolu keçmişdir. Ədəbiyyat müasir reallığın çoxçalarlı inkişaf tendensiyalarının dərk edilməsi, bədii yaradıcılıq ənənələrinin işlənib hazırlanması, janr – üslub və ideya – tematik məhdudiyyətin aşılması, mütərəqqi fikir və ideyaların bədii ədəbiyyata gətirilməsi, yazıçı təxəyyülü və real həyat hadisələrinin mütənasibliyi və qanunauyğun inkişafı, ideya – tematik rəngarənglik, janr və bədii üslub istiqamətlərinin zənginliyi, təkrarolunmaz forma və metodların inkişaf etdirilməsi sahəsində nəzərəçarpacaq uğurlara nail olmuşdur.

XX əsrin 60 – cı illərində Azərbaycan nəsrinin inkişafı sənədli – bədii janrla bilavasitə bağlı olmuşdur. Əsərdə təsvir olunan hadisələrin süjetinin real həyatdan götürülməsi, ən yaxşı ədəbi əsərlərə xas olan insan xarakterlərinin öz əksini tapması və s. xarakterik xüsusiyyətlər bu dövr Azərbaycan nəsri üçün aktual idi. Müasir Azərbaycan poeziyasının inkişaf templəri, poema yaradıcılığına yaranan həvəs və s. – nin janr və üslub rəngarəngliyi, yeni poetik forma və vasitələrin üzə çıxarılması üçün intensiv yaradıcılıq axtarışlarının aparılmasında rolu, vətəndaş mövqeyinin nümayiş etdirilməsi, poetik fikrin obrazlılığı, yetkinliyi və bədii formanın mükəmməlliyi və s. özünəməxsus xüsusiyyətlər həmin dövr üçün səciyyəvi idi. Azərbaycan dramaturgiyası bu dövrdə ideya – tematik və janr rəngarəngliyinə görə olduqca aktual idi. Yazılan pyeslər daha çox tarixi, mənəvi – etik, cəmiyyətin pozitiv və neqativ xüsusiyyətləri, əxlaqi – fəlsəfi və əxlaqi nöqteyi – nəzərin şərhi aspektlərinə həsr edilirdi.

Azərbaycan ədəbiyyatının inkişafı sahəsində Azərbaycan Yazıçılar Birliyinin apardığı ictimai – siyasi və yaradıcılıq – təşkilat işlərinin rolunu qeyd etmək lazımdır. Azərbaycan Yazıçılar Birliyi V və VI qurultaylar arasında 10

plenum keçirmişdir. 1972 – ci ildə “Tənqid, ədəbiyyat, müasirlik” mövzusunda müasir ədəbi tənqidin vəziyyəti və vəzifələrinə həsr olunmuş plenum keçirilmişdir. 1973 – cü ildə “Mahnı janrı, onun inkişafı və təbliği” məsələsinə həsr olunmuş plenum Azərbaycan Yazıçılar Birliyi, Bəstəkarlar İttifaqı və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilmişdir. Burada mahnı janrının inkişaf və təbliğ etdirilməsi üçün Azərbaycan Bəstəkarlar İttifaqında xüsusi mahnı bölməsinin yaradılması məqsədəuyğun hesab edilmişdir. 1974 – cü ildə Yazıçılar Birliyi “Yazıçı və həyat” mövzusunda səyyar plenum keçirmişdir. 1973 – cü ildə Azərbaycan Yazıçılar Birliyi Jurnalistlər İttifaqı ilə birlikdə publisistika məsələlərinə həsr olunmuş plenum keçirmişdir. Burada publisistikanın müasir dövrdə mühüm ictimai – siyasi əhəmiyyəti və qarşısında duran ümdə məsələlərdən bəhs olunmuşdur.

Bu dövrdə Yazıçılar Birliyi yaradıcılıq bölmələrinin işinin səmərəli aparılması üçün yaradıcılıq – təşkilat tədbirlərini həyata keçirməyə başlamışdır. Yazıçılar Birliyinin Tənqid bölməsi, Uşaq ədəbiyyatı bölməsi, Tərcümə bölməsi, Nəsr və şeir bölməsi, Dram bölməsi və s. struktur yaradıcılıq bölmələri müxtəlif sferaların inkişafı sahəsində səmərəli fəaliyyət göstərirdi. 1975 – ci ildə respublikada bədii tərcümənin vəziyyətinin yaxşılaşdırılması üçün mətbuat orqanları, nəşriyyat idarələri, radio və televiziya komitəsinin ədəbiyyat şöbələri qarşısında məsələ qaldırılmışdır. Yazıçılar Birliyinin mətbuat orqanları – “Ədəbiyyat və incəsənət” qəzeti, “Ulduz” jurnalı, “Azərbaycan” və “Литературны Азербайджан” jurnallarında ədəbi tənqidin vəziyyəti, tənqidi məqalələrin daha çox nəşri, aktual problemlərin qaldırılması və s. aspektlərlə bağlı Birlik müxtəlif əməli tədbirlər həyata keçirmişdir. Azərbaycan Yazıçılar Birliyi Bədii ədəbiyyat təbliği bürosu kütləvi mədəni tərbiyə işinin aparılmasında həlledici rol oynayırdı. 1970–1975 – ci illərdə yazıçılar 27 563 görüş keçirmişlər. Bu görüşlərdə 200 – ə yaxın yazıçı iştirak etmişdir. Büro hər il uşaq və gənclər kitabı həftələrinin təşkili, həmçinin oxucu konfransları, mədəni – maarif müəssisələrində keçirilən kitab müzakirələri və s. tədbirlərdə fəal iştirak edirdi. Azərbaycan Yazıçılar Birliyi xalqın mənəvi – estetik tərbiyəsində iştirak edərək onun mütərəqqi ideyalar ruhunda, yetkin mənəvi – əxlaqi dəyərlər zəminində və yalnız real faktlara dayanan demokratik prinsiplər işığında formalaşması üçün mühüm ictimai – siyasi və yaradıcılıq – təşkilat fəaliyyəti ilə məşğul idi.

Azərbaycan musiqi sənəti öz genişmiqyaslı və rəngarəng nailiyyətləri ilə zəngindir. Onun əsas məqsədi Azərbaycan musiqisini dünya musiqi mədəniyyətinin layiqli inkişaf mərhələsinə qaldırmaq, eyni zamanda onun özünəməxsusluğunu qoruyub saxlamaq, dövrün tələblərinə cavab verən, forma və mahiyyətinə görə mütərəqqi xarakter daşıyan nadir sənət nümunələri yaratmaq və onu yeni novatorçu fikir və ideyalarla zənginləşdirmək idi. XX əsrin 60–70 – ci illərində Azərbaycan musiqisi müasir musiqi mədəniyyətinin ən yaxşı nümunələri ilə zənginləşmişdir. Bu dövr musiqi sənəti bədii təzahürlərin rəngarəngliyi və ənənəvi musiqi dilinə köklü dəyişikliklər gətirən müxtəlif ifadə vasitələrinin mürəkkəbliyi ilə xarakterizə olunurdu.

XX əsrin 60 – cı illərində fərqli mövzularda yazılan balet musiqi yaradıcılığı geniş vüsət almağa başlamışdır. Gözəl ifa, mükəmməl bəstəkar işi və balet tamaşalarına verilən təkrarolunmaz quruluşlar əsrarəngiz balet musiqisini bir sənət incisinə çevirmişdir. Bu dövrdə misilsiz balet musiqisi ilə yanaşı, xoreoqrafik miniatürlər və balet – novella musiqisi də yazılmışdır. Bununla yanaşı yeni operalar yazılırdı. 1963 – cü ildə respublikada ilk uşaq opera baleti səhnəyə qoyulmuşdur. Bu əsərlər ölkənin teatr həyatını zənginləşdirsə də, opera janrının inkişafı balet janrı kimi intensiv və səmərəli olmamışdır. Bu dövrdə musiqili komediya əsərlərinin siyahısı artmaqda davam edirdi. Simfonik musiqi yaradıcılığı sahəsində novatorçu meyllər özünü göstərməkdə idi. Kamera orkestri üçün musiqi bəstələnirdi. Kamera– instrumental yaradıcılıq sahəsi getdikcə genişlənir, orqan musiqisi yazılırdı. Bu dövr Azərbaycan musiqisində kantata – oratoriya janrının əhəmiyyəti artırdı. Musiqi sənətinin bu sahələrinin inkişafı musiqi yaradıcılığına yeni – yeni ideyaların sirayət etməsi, novatorçu istiqamətlərin vüsət alması, ənənəvi Azərbaycan musiqisinin professional yaradıcılıqla çulğalaşması və nəticədə mükəmməl sənət nümunələrinin yaranması demək idi.

Mahnı yaradıcılığı sahəsi də durmadan inkişaf edir və bu sferada ölkənin görkəmli bəstəkarları fəaliyyət göstərirdi. XX əsrin 60–80-ci illəri opera yaradıcılığının sürətli inkişafı və bu sahədə yeni – yeni əsərlərin meydana gəlməsi ilə əlamətdar olmuşdur. Bu əsərlərdə məişət motivləri, qədim əfsanə və əsatirlərin mövzuları, uşaq nağılları istifadə olunurdu. Bəzi bəstəkarlar operaların yazılmasında muğam elementləri və xalq yaradıcılığından geniş

istifadə edirdilər. Musiqi folklorunun professional musiqiyə gətirilməsi olduqca mütərəqqi tendensiya hesab oluna bilərdi. Bu dövrdə Azərbaycan bəstəkarları musiqi sənətinin bütün sahələrində uğurla fəaliyyət göstərirdilər. Professional musiqi yaradıcılığı balet, vokal – xoreoqrafik poema, musiqili komediya, opera, operetta, vokal – simfonik, kamera – instrumental və s. sahələr üzrə dinamik şəkildə inkişaf edirdi.

XX əsrin 60–80-ci illərində Azərbaycan musiqişünaslıq sahəsi demək olar bütün görkəmli ölkə bəstəkarlarına həsr olunmuş dəyərli tədqiqat əsərləri, populyar broşyurlar, Azərbaycan musiqisinin inkişaf yolları və bəstəkarların yaradıcılığında müxtəlif janrların evolyusiyası haqqında elmi oçerklərin yazılması ilə əlamətdar olmuşdur.

Respublikada musiqi sənətinin inkişafının yekun hesabat və perspektivlərinə həsr olunmuş Azərbaycan Bəstəkarlar İttifaqının IV və V qurultayları (1973 və 1979) bu sahədə mövcud irəliləyiş, nailiyyət və uğurları müzakirə etmiş, qarşıya çıxan bütün maneə və çətinlikləri nəzərə alaraq əməli tədbirlərin görülməsi üçün fəaliyyət kursu müəyyən etmişdir.

Azərbaycan rəssamlıq sənəti təsviri incəsənətin aparıcı sahələrindən biri olaraq mövzu və janr rəngarəngliyi, parlaq yaradıcı şəxslərin gərgin zəhməti və fəaliyyəti ilə xarakterizə olunur. Görkəmli rəssamların yaradıcılıq təcrübəsini əldə rəhbər tutaraq Azərbaycan rəssamlıq sənətinin əsas tendensiyaları – mövzunun emosional– obrazlı anlamı, parlaq görüntülü dekorativ forma axtarışları, milli bədii irsə böyük maraq, novatorçuluq, mütərəqqi ideyaların sənətə gətirilməsi və s. – ni qeyd etmək lazımdır. Tematik tablolar, portret və mənzərə janrlarında çalışan rəssamlar öz əsərlərinin qəhrəmanlarını dövrün aktual məsələləri, vətən mövzusu, öz müasirləri olan cürbəcür sənət sahələrinin adamlarının təsviri, görkəmli şəxslər, tarixi şəxsiyyətlər, təbiət mənzərələri, insan taleyinə həsr olunmuş süjetlər və s. kimi nəzərəçarpacaq hadisələrin prizmasından dəyərləndirərək öz incə fırçaları ilə gözəl sənət nümunələri yaradırdılar. Bu dövr Azərbaycan rəssamlıq sənətinin əsas keyfiyyətlərindən biri – şəxsi xüsusiyyətlərin rəngarəngliyi olmuşdur. XX əsrin 60–80-ci illərində Azərbaycan rəssamları qrafika, avtolitoqrafiya, linoqravür, rəngli və qara – ağ qravür, kitab qrafikası, qrafikanın kütləvi formaları – plakat və karikatura, bədii əsərlərə çəkilən illüstrasiyalar və s. aparıcı sahələrdə fəaliyyət

göstərirdilər. Satirik qrafika sahəsində çəkilən karikatura nümunələri müasir qrafikanın digər janrları arasında xüsusilə seçilir və getdikcə öz layiqli yerini tuturdu. Bu dövrdə monumental – dekorativ və teatr – dekorasiya yaradıcılıq sahələrində müəyyən irəliləyiş əldə olunmuşdu. Respublikada peşəkar teatr və kino rəssamları, monumental – dekorativ sənət ustaları formalaşırdı. Azərbaycan rəssamları, onların çəkdikləri qrafika, kitab illüstrasiyaları və plakatları müxtəlif yerlərdə, o cümlədən Avropa ölkələrində tanınırdı. Müxtəlif sənaye müəssisələri, mədəniyyət sarayları, mehmanxanalar və s. ictimai – iaşə obyektlərini istedadlı rəssamların yaratdıqları monumental əsərlər bəzəyirdi. Bu dövrdə Bakıda və respublikanın digər şəhərlərində çoxsaylı sərgilər təşkil olunur, yaradıcılığın daha çox kütləviliyi ilə seçilən teatr tamaşaları və kinofilmlərə səhnə tərtibatının verilməsi, dekorativ – tətbiqi sənət nümunələrinin yaradılması, müxtəlif sənət sahələri ilə memarlığın sintezinin əldə olunması və s. məsələlərə xüsusi diqqət yetirilirdi. Müxtəlif muzey ekspozisiyaları və bədii sərgilərə tamaşaçı axını getdikcə güclənirdi. Təsviri incəsənət insanların mənəvi və ideya – estetik səviyyəsinin formalaşmasında həlledici rol oynayırdı. Azərbaycan incəsənəti çoxsaylı tematik, səyyar, şəxsi və xarici ölkələrdə keçirilən sərgilərdə geniş nümayiş etdirilir, mətbuat səhifələrində bu barədə yazılır və tamaşaçılar öz rəylərini bildirirdilər. Tarixi keçmişin keşməkeşli hadisələri, insanların məişət qayğıları və problemləri, öz müasirlərinin obrazları, vətənin təbiət mənzərələri və s. aktual aspektləri özündə əks etdirən o dövr Azərbaycan rəssamlıq sənəti öz gözəl sənət nümunələri ilə Bakı şəhərinin bütün sərgi, qalereya və muzey ekspozisiyalarını bəzəyirdi.

Bu dövrdə heykəltəraşlıq sahəsi də dinamik inkişaf edirdi. Azərbaycan heykəltəraşları monumental, kompozisiya, portret, dekorativ və memorial heykəltəraşlıq sahələrində məhsuldar fəaliyyət göstərirdilər. Onlar öz əsərlərini müxtəlif sənətlərin sintezində hazırlayaraq rəngarəng heykəltəraşlıq kompozisiyaları, relyeflər və döymə üsulu ilə sənət nümunələri yaradırdılar. XX əsrin 60–70 – ci illərində rəssamlıq və heykəltəraşlıq üçün xarakterik olan əsas yaradıcılıq tendensiyaları real hadisələrlə bağlılıq, vətəndaş mövqeyinin təzahürü, təsvir vasitələrinin rəngarəngliyi və novatorluğu, bəzi qrafik janrların inkişaf dinamikasının getdikcə bərpası, siyasi plakat və kitab illüstrasiyasının inkişafı, çap məhsullarının bədii tərtibatının keyfiyyətinin

yüksəldilməsi, klassik və müasir dövr ədəbiyyat nümunələrinin bədii tərtibatı və illüstrasiyası məsələləri bu baxımdan önəmli yer tuturdu. Akademik Dram Teatrı və Akademik Opera və Balet Teatrının səhnələrində qoyulan dramatik və musiqili tamaşaların bədii tərtibatını verən rəssamlar Azərbaycan teatr sənətinin inkişafında mühüm rol oynayırdılar. Artıq XX əsrin 70 – ci illərində rəssamlıq sahəsində yaradılan əsərlərin ideya – tematik səviyyəsi getdikcə güclənmiş və professional yanaşma tərzi ön plana keçmişdir. Yeni – yeni kompozisiyalar, portretlər, mənzərələr, qrafik əsərlər, müxtəlif xarakterli plakatlar və s. meydana gəlməyə başlamışdır. Müxtəlif mədəniyyət sarayları, ictimai binalar və mədəni – maarif müəssisələri rəngarəng mozaika, rəsm nümunələri və freskalar ilə bəzədilirdi. Bu prosesdə novatorçu gənc rəssamlar da yaxından iştirak edirdilər. Artıq bu dövrdə Azərbaycan Rəssamlar İttifaqında 400 nəfərdən artıq rəngkar, qrafika ustası, heykəltəraş, tətbiqi və teatr – dekorasiya sənəti ustaları – peşəkar rəssamlar fəaliyyət göstərirdilər. Bakı şəhəri öz mədəniyyət sarayları, şəkil qalereyaları, sərgi salonları, muzeylər və misilsiz heykəltəraşlıq nümunələrinin ucaldığı yaraşıqlı bir şəhərə çevrilmişdi. Bütün bunlar təsviri incəsənət sahəsində çalışan yaradıcı ziyalıların böyük zəhməti və əməli fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Azərbaycan teatrı böyük və şərəfli inkişaf yolu keçmişdir. O respublikada mütərəqqi ictimai fikrin formalaşması və inkişafında fəal iştirak etmişdir. Teatr xalqın mənəvi xəzinəsinin zənginləşməsi, mühüm problemlərin səhnəyə gətirilərək insanlara real cizgilərlə təqdimatı, ölkənin milli intelligensiyası və xalqla sıx bağlı olmuşdur. Teatr xadimləri incəsənətə gətirdikləri əvəzsiz xidmətləri ilə teatr sənətini nəinki olduqca inkişaf etdirə bilmiş, həm də ümumbəşəri mədəniyyətə öz töhfələrini verməyə müvəffəq olmuşlar. Azərbaycan teatrı həm də Azərbaycan tarixinin real təcəssümüdür. XX əsrin 60 – cı illərinin əvvəlində müxtəlif yeni əsərlər tamaşaya qoyulmuşdur. Azərbaycan dramaturqlarının orijinal əsərlərini səhnələşdirməklə yanaşı, tərcümə ədəbiyyatının ən yaxşı nümunələrinin səhnələşdirilməsi sahəsində də müəyyən addımlar atılmışdır. Bu dövrdə teatr səhnələrinə çıxan gənc və istedadlı aktyorlar yaşlı və orta nəslin nümayəndələri ilə çiyin – çiyinə işləyərək yüksək bədii – estetik zövqü oxşayan teatr tamaşalarında çıxış edirdilər. Mürəkkəb formalaşma və inkişaf yolu keçmiş Azərbaycan Milli Dram

Teatrı bütün fəaliyyəti dövründə realist sənət uğrunda mübarizə aparmışdır. Bu yolda durmadan çalışan Azərbaycan teatrı bədii cəhətdən olduqca yetkinləşmiş və xalqın ideya – estetik tərbiyəsində həlledici rol oynamışdır. Azərbaycan teatrı orijinal milli kadrlar, istedadlı rejissor və teatr xadimləri yetişdirmişdir. Bu rejissorların səhnə quruluşu verdiyi tamaşalar hər zaman özünəməxsusluğu ilə seçilmiş və Azərbaycan teatrının öz inkişaf dəst – xəttini formalaşdırmışdır. 1971 – ci ildə Bakı şəhərində A. M. Şərifzadə adına Aktyor evi açılmışdır. Burada keçirilən tədbirlər teatr sənətinin inkişafı və təbliğində mühüm rol oynayırdı. Azərbaycan Teatr Cəmiyyəti Aktyor evində müxtəlif tədbirlər – "Gənc aktyor və teatr", "Bəstəkar və teatr", "Səhnə ustaları ekranda", "Dramaturq və teatr", Beynəlxalq Teatr günü və s. deviz altında toplantılar təşkil edirdi. Aktyor evində "Azərbaycan səhnə ustaları ekranda" və "Teatr, musiqi və poeziya" silsilələrindən tədbirlər də keçirilirdi. Burada aktyorlar, rejissorlar, baletmeysterlər, bəstəkarlar, şairlər, yazıçılar, teatr və kino xadimləri öz yaradıcılıq hesabatlarını verir, kinolentlərə tamaşa edilir və onların ifa etdikləri əsərlərdən parçalar göstərilirdi.

Respublika Yaradıcılıq İttifaqları əsərlərin bədii – estetik və tərbiyəvi əhəmiyyətinin artırılması sahəsində daim yeni forma və vasitələr axtarışında idi. Belə formalara bədii əsərlərin müzakirəsi, oxucu və tamaşaçı konfransları, tamaşaçı – dinləyici auditoriyası ilə aktyor – rejissor münasibətlərinin qurulması, yaradıcılıq hesabatları və diskussiyaları, fikir mübadilələri, tamaşaçı rəyləri və s. aspektdə keçirilən tədbirləri aid etmək olar. Oxucu konfranslarının forma və əhatə dairəsi olduqca rəngarəng idi. Bu sahədə Azərbaycan Teatr Cəmiyyətinin fəaliyyəti diqqəti cəlb edirdi. Azərbaycan Teatr Cəmiyyəti 1960 – cı ildə hər il müntəzəm olaraq oxucu konfranslarının çağrılması və tamaşalardan sonra yaradıcılıq disputlarının keçirilməsi üçün əməli fəaliyyət göstərirdi. Məqsəd hər bir tamaşaçını əsər və onun ifaçıları ilə tanış etmək idi. Azərbaycan Teatr Cəmiyyətinin keçirdiyi tamaşaçı konfranslarının da təsir dairəsi çox geniş idi. 1971 – ci ildə Azərbaycan Teatr Cəmiyyəti mühazirə – təbliğat vasitəsindən səmərəli istifadə edərək 6 il ərzində respublikanın müxtəlif yerlərində teatr sənətinin problemləri ilə bağlı 596 mühazirə oxunmasını təşkil etmişdir. Bunlardan "Teatrda realizm", "Klassiklərin müasir oxunuşu" və s. – ni misal göstərmək mümkündür. Oxunan mühazirələr tamaşaçıları teatr

sənətinin problemləri, repertuarı, sənətkarlıq məsələləri və s. ümdə aspektlərlə tanış etməyə yönəlmişdir. Azərbaycan Teatr Cəmiyyəti Teatr həftələri keçirərək müntəzəm şəkildə incəsənət əsərlərinin təbliği ilə məşğul olurdu. 1971 – ci ildə Azərbaycan Teatr Cəmiyyəti Xalq yaradıcılığı Evi ilə birlikdə “Xalq teatrları həftəsi”ni keçirmişdir. Belə tədbirlərin keçirilməsi xalq istedadlarının üzə çıxması və xalq teatrlarının inkişafında önəmli rol oynayırdı. 1963 – cü ildə xalq teatrlarına təşkil edilmiş 20 – yə yaxın baxış nəticəsində məlum olmuşdur ki, onların arasında istedadlı kollektivlər və yaradıcı, bacarıqlı şəxslər vardır. Buna görə Respublika Teatr Cəmiyyətində xalq teatrlarına kömək üçün daimi komissiya yaradılmışdır. Teatr Cəmiyyəti xalq teatrları ilə yaradıcılıq mövzusunda söhbət və mühazirələr keçirir, onlar üçün müvafiq ədəbiyyatlar buraxırdı. Xalq teatrlarına köməklik məqsədilə Azərbaycan Mədəniyyət Nazirliyi nəzdində yaradıcı – metodik şura fəaliyyət göstərirdi. Respublikanın bəzi teatrlarının artistləri xalq teatrlarına rəhbərlik edirdilər. Teatr sənətinin təbliği sahəsində müəyyən tədbirlər görülürdü. Dramaturgiya və teatr sənəti sahəsində “ədəbi hadisə” olan əsərlər, qlobal mövzular, aktual pyeslər və tamaşalar, müxtəlif dövrlərin mühüm hadisələrinə nisbətən az yer ayrılırdı. Müasir tələblərə cavab verən festivalların təşkili, teatr truppalarının fəaliyyətinin nizamlanması və s. bu dövrdə qarşıda duran vəzifələrdən sayıla bilər. 1986 – cı ildə II Respublika xalq yaradıcılığı festivalı keçirilmişdir. Festival çərçivəsində respublikanın şəhər və rayonlarında baxış və müsabiqələr keçirilmiş, tamaşa və çıxışlar ifa olunmuşdur. Bu baxış əvvəlki festivallardan öz miqyası və vəzifələrinə görə fərqlənirdi. İlk dəfə olaraq xalq yaradıcılığı festivalının proqramı üzrə dram kollektivlərinin tamaşa və çıxışlarına zonalar üzrə baxış keçirilmişdir. Peşəkar rejissor, aktyor və teatrşünaslar 100 – dən çox kollektiv – 48 xalq teatrı, 35 dram dərnəyi və 20 təbliğat briqadasının çıxışlarına baxmışlar.

Teatr tamaşalarına olan həvəs və marağı gücləndirmək üçün teatrların repertuarlarını daim yeniləmək, aktyor ifası və rejissor işini təkmilləşdirmək, peşəkar mütəxəssisləri teatrlara cəlb etmək və teatrların qastrol səfərlərini ardıcıl olaraq təşkil etmək olduqca zəruri idi. XX əsrin 60–70 – ci illərində respublika teatrlarının repertuarında xarici və ölkə müəlliflərinin müxtəlif əsərlərinə qoyulan tamaşalar mühüm yer tuturdu. Belə ki, Azərbaycan Dövlət

Akademik Opera və Balet Teatrında müxtəlif opera və baletlər, Azərbaycan Dövlət Akademik Dram Teatrında müasir və klassik dövr müəlliflərinin əsərlərinə qoyulan tamaşalar, xalq teatrlarının səhnəsində müxtəlif aktual məsələləri özündə əks etdirən peşəkar və gənc müəlliflərin əsərləri səhnələşdirilmişdir. Azərbaycan teatrlarının repertuarında olan tamaşalar həm professional teatrlar, həm də xalq teatrları vasitəsilə respublikanın müxtəlif yerlərində oynanılırdı. 1966–1967 – ci illərdə respublikanın bütün teatrları 8015 tamaşa göstərmişdir. Bunlardan 100 tamaşa yeni quruluşda olmuşdur. Teatr kompleks yaradıcılıq sahəsidir. Burada yaradıcılıq təşkilatları, teatr kollektivləri, dramaturqlar və teatr tənqidçiləri birgə fəaliyyət göstərirdi. Azərbaycan Teatr Cəmiyyəti teatr sənətinin aktuallığının artırılması və təbliğinin gücləndirilməsi üçün müxtəlif ədəbi – bədii tədbirlər və tarixi hadisələrlə bağlı görüşlər, məruzələr, yaradıcılıq gecələri, foto – sərgilər, foto – stendlər və s. təşkil edirdi. XX əsrin 80 – ci illərinin əvvəlində Azərbaycanda 14 dövlət və 41 xalq teatrı fəaliyyət göstərirdi. 1980 – ci ildə respublika teatrlarında 849 tamaşa göstərilmiş, tamaşaçıların sayı isə 195 minə çatmışdır. Azərbaycan teatrı hər zaman xalqın yüksək əxlaqi və mənəvi keyfiyyətlərinin formalaşması və mədəni tərbiyə işində fəal rol oynamışdır. Teatr cəmiyyətin mənəvi aləmini zənginləşdirir və estetik zövqünü oxşayırdı. Bu baxımdan teatrın rolu əvəzsizdir.

Kino sahəsində hələ mütəxəssislər – milli kadrlar çatışmadığı bir vaxtda Azərbaycan Dram Teatrı görkəmli sənətkarlar nəsli hazırlamağa müvəffəq olmuşdur. Bu kadrların kino sahəsində fəaliyyəti Azərbaycan kinosunun inkişafı və misilsiz sənət əsərlərinin yaranmasına səbəb olmuşdur. Artıq XX əsrin 60–80-ci illərində Azərbaycan kinosu çox qısa bir müddət ərzində xalqın və ölkənin ən vacib və əhəmiyyətli hadisələrini lentə alaraq gözəl kinofilmlərin timsalında nəzərəçarpacaq uğurlara imza atmışdır. XX əsrin 60 – cı illərində respublikanın həyatının müxtəlif aspektlərini əks etdirən materiallar əsasında rəngarəng kinofilmlər lentə alınırdı. Bu baxımdan uşaq və gənclər üçün çəkilən filmlər milli kinonun zənginləşməsi və kino xadimlərinin yaradıcılığının inkişafında mühüm rol oynamışdır. 60 – cı illərin əvvəlində Azərbaycanda ilk rəngli filmlər yaranmağa başlamışdır. Daha sonra musiqili komediya janrında genişekranlı rəngli filmlər də çəkilmişdir. 1964 – cü ildə ilk dəfə olaraq

kinoalmanax janrına müraciət olunmuşdur. Müxtəlif mövzulara həsr olunmuş novellalar əsasında çəkilən almanaxlar tez – tez idmanın bəzi növlərinə də həsr olunurdu. Belə ki, 1966 – cı ildə I Ümumittifaq idman filmləri kinofestivalında idman mövzusunun poetik təcəssümünə görə “Cazibə qüvvəsi” adlı novella Azərbaycan filmləri, o cümlədən kinoalmanaxları arasında xüsusi yer tutmuş və tamaşaçıların rəğbətini qazanmışdır. 1966 – cı ildə 2 novelladan ibarət ikinci kinoalmanax çəkilmişdir. Bu kinoalmanax da fərqli süjeti, gözəl rejissor işi və məharətli aktyor oyununa görə olduqca maraqla qarşılanmış, kino ictimaiyyəti və tamaşaçıların rəğbətinə səbəb olmuşdur. XX əsrin 60 – cı illərinin sonunda Azərbaycan kinosuna yeni mütəxəssislər – rejissor və ssenaristlərin gəlişi bu sahənin inkişafı və maraqlı filmlərin yaranmasına səbəb olmuşdur. Bu dövrdə çəkilən filmlərin sayı artmış, burada peşəkar rejissorlarla yanaşı gənc rejissorlar da iştirak etmiş və öz istedadlarını üzə çıxarmağa müvəffəq olmuşlar. 1974 – cü ildə “Azərbaycanfilm” kinostudiyasında bir neçə novella əsasında yeni kinoalmanax çəkilmişdir. Bu novellalarda müxtəlif mövzular, o cümlədən hər zaman insanları narahat edən mənəvi – etik problemlər öz əksini tapmışdır. Bədii film kimi, sənədli film yaradıcılığı da Azərbaycanda şərəfli inkişaf və formalaşma yolu keçmişdir. Artıq XX əsrin 60–80-ci illərində sənədli filmlər çəkilmiş, mövzu rəngarəngliyi və faktoloji analiz forması nəzərəçarpacaq uğurlara nail olmuşdur. Bu sahədə peşəkar addımlar atılır, sənədli film çəkilişi ilə məşğul olan kino xadimləri getdikcə püxtələşir, ölkə və xaricdə tanınırdılar.

“Azərbaycanfilm” kinostudiyası “Sovet Azərbaycanı” və “Gənc nəsil” jurnalları, həmçinin “Mozalan” satirik jurnalı buraxırdı. Bu dövrdə respublikanın müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər ölkənin yaradıcı ziyalıları – sənədli film ustaları – rejissorların çəkdiyi müxtəlif mövzulu sənədli filmlər – “Mənim respublikam haqqında həqiqət”, “Bizim Azərbaycan” və s. – də öz əksini tapırdı. Bu filmlərdə respublikanın xarici ölkələrlə siyasi, iqtisadi və mədəni əlaqələri haqqında maraqlı və real faktlar da təcəssüm olunurdu. Qeyd etmək lazımdır ki, müasir həyatın aktual problemləri hər zaman Azərbaycan kinematoqrafçılarının diqqət mərkəzində olmuşdur. Əsil mənəvi – əxlaqi dəyərlərin qorunması, etik normaların mürəkkəb formalaşma prosesi, cəmiyyət və xalqın üzləşdiyi çətinlik, problem və çatışmazlıqlara qarşı durmadan

mübarizə bu illərdə çəkilən bütün filmlərin əsas süjet xəttini təşkil edirdi. Kinematoqrafçılar bu işdə kino sənətinin rolu və funksiyasını düzgün dərk edərək başlıca olaraq öz sənətləri və əməli fəaliyyətləri ilə mədəni tərbiyə prosesində əvəzolunmaz mövqeyə malikdirlər.

Respublikada kino işinin inkişafı ilə Azərbaycan Kinematoqrafiya İşçiləri İttifaqı məşğul olurdu. Bu yaradıcılıq ittifaqında kinodramaturqlar, kinorejissorlar, kinooperatorlar, aktyorlar, kino tənqidçiləri, redaktorlar, bəstəkarlar, rəssamlar, səs operatorları və kino işçiləri təmsil olunurdular. 1975 – ci ildə Azərbaycan Kinematoqrafçılar İttifaqının 137 nəfər üzvü var idi. Kinematoqrafçılar İttifaqında kinodramaturgiya şöbəsi, bədii film şöbəsi, sənədli film şöbəsi, kinotənqid şöbəsi, kinosevərlər şöbəsi, televiziya şöbəsi, multiplikasiya (animasiya) şöbəsi fəaliyyət göstərirdi. 1970 – ci ildə Respublika Yaradıcılıq İttifaqlarının birgə toplantısında Azərbaycan kinosunun inkişafı, qarşısında duran məsələlər, nailiyyətlər və çatışmazlıqlar müzakirə edilmişdir. 1971 – ci ilin oktyabrında Azərbaycan Kinematoqrafçılar İttifaqının "Respublika kinematoqrafçılarının problemləri və müasir dövrdə vəzifələri" adlı plenumu sənədli film yaradıcılarının vəzifələrinə həsr edilmişdir. 1972 – ci ildə Azərbaycan Kinematoqrafçılar İttifaqı respublika yaradıcılıq ittifaqlarının birləşmiş plenumunda iştirak etmişdir. 1973 – cü ilin dekabrında "Azərbaycan Televiziya filmlərinin problemləri" adlı növbəti plenumda "Azərbaycanfilm" yaradıcılıq birliyinin ssenari – redaksiya kollegiyasının məruzəsində Azərbaycan televiziya filminin müasir vəziyyətinin analizi aparılmış, professional və yaradıcılıq imkanları üzə çıxarılmış, vacib və aktual problemləri səslənmişdir. Bu dövrdə Azərbaycan Kinematoqrafçılar İttifaqının qarşısında duran məsələlər – yaradıcılıq ezamiyyətlərinin verilməsi, xarici qonaqların qəbulu, məruzə və hesabatların müzakirəsi, yeni kino – Kinolektoriya Evinin yaradılması, Kino Evinin fəaliyyəti, yaradıcılıq şöbələrinin işinin təşkili, kinofestivalların keçirilməsi, istedadlı və yaradıcı şəxslərin Kinematoqrafçılar İttifaqına üzvlüyə qəbul edilməsi və s. – dən ibarət idi. Azərbaycan Kinematoqrafçılar İttifaqının əsas yaradıcılıq tədbirləri filmlərin rejissorları, yaradıcı kollektivləri, çəkiliş qrupları, kinodramaturqlar, kino həvəskarları, sənədli filmlərin yaradıcı kollektivləri ilə yaradıcılıq görüşləri, müzakirələr və dəyirmi stolların keçirilməsi, kinonun problemləri və

kino yaradıcılığına həsr olunmuş mühazirələrin oxunması, "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi bədii filmlər, sənədli filmlər və animasiya filmlərinə baxış və premyeraların təşkili, konfranslar və nəzəri konfransların keçirilməsi, kino tənqidçilərinin qəzet redaksiyaları ilə əlaqələrinin qurulması, kino tənqidi üzrə yaradıcılıq konfranslarının təşkili və s. – dən ibarət idi. Eyni zamanda "Mozalan" satirik kinojurnalın yeni çəkilmiş nömrələri müzakirə edilir və onlara baxış həyata keçirilirdi. Azərbaycan Kinematoqrafçılar İttifaqı Kinematoqrafiya üzrə Azərbaycan Dövlət Komitəsi və Respublika Kinoprokat kontoru ilə birgə "Yeni filmlər" informasiya – reklam bülleteninin buraxılışlarının müzakirəsini keçirirdi. Bu tədbirlərin əksəriyyəti Azərbaycan Kinematoqrafçılar İttifaqının müvafiq yaradıcılıq şöbələri tərəfindən təşkil edilir və keçirilirdi. İttifaq ssenarilərin yazılması, müzakirəsi və müasir dövrün tələblərinə cavab verməsinə diqqət yetirirdi. Hər ay televiziyada "Yazıçı və Ekran" verilişi nümayiş olunurdu. Burada bədii əsərlərin ekranlaşdırılması, ədəbiyyat və kinonun çoxçalarlı əlaqələri və s. aktual məsələlər müzakirə edilirdi. Azərbaycan kinematoqrafçıları kinomuzun müasir tendensiyaları, müasir dövrün aktual məsələləri və mövzularına həsr olunmuş filmlərin istehsalında kinodramaturgiyanın qarşısında duran vəzifələr və s. haqqında keçirilən tədbirlərdə çıxışlar, məruzələr edir, mühazirələr oxuyur, fikir mübadiləsi aparır, nəzəri və yaradıcılıq konfranslarında iştirak edirdilər. Bu işə gənc və istedadlı kadrlar da cəlb edilirdi.

Kino Evinin əsas fəaliyyət forması yeni filmlərə müntəzəm olaraq informasiya baxışlarının keçirilməsi idi. Kino Evində Azərbaycan Kinematoqrafçılar İttifaqının yaradıcılıq şöbələri öz fəaliyyətini təşkil edir, burada "Azərbaycanfilm" kinostudiyası və "Azərbaycantelefilm" yaradıcılıq birliyinin yeni filmlərinin premyeraları və müzakirələri keçirilirdi. Kino Evinə xarici filmlərin proqramları ilə gələn mühazirəçilər burada amerikan, ingilis, fransız və italyan kinosunun müasir tendensiyaları haqqında silsilə mühazirələr oxumuşlar. Burada həm də Diskussiya kinoklubu fəaliyyət göstərirdi. Ayda bir dəfə Kino Evi Aktyor Evi ilə birgə tədbir keçirirdi. Burada kinoşünaslar mütərəqqi kino ustaları və dünya kinematoqrafının ən yaxşı nailiyyətləri haqqında mühazirələrlə çıxış edirdilər. Kino Evində xarici qonaqlar üçün Azərbaycan bədii və sənədli filmlərinin baxışı da keçirilirdi. Bu baxışların

keçirilməsində məqsəd qonaqları respublikada kino sənətinin vəziyyəti, inkişafı, nailiyyətləri və çatışmazlıqları ilə tanış etmək idi. Azərbaycan Kinematoqrafçılar İttifaqı respublikada kino sənətinin inkişafında əməli fəaliyyət göstərir və kino yaradıcılığının səmərəli və uğurlu olması yolunda durmadan mübarizə aparırdı.

## 2.2. Professor Nisbət Mehdiyevanın mədəniyyət sahəsində apardığı elmi tədqiqatların mədəniyyətin inkişafına təsiri

Müxtəlif sahələrin qovuşuğunda formalaşan və fəaliyyət göstərən mədəniyyət hər bir xalqın ən gözəl, bacarıqlı, istedadlı, zəhmətkeş, mübariz və qəhrəman övladları, yetkin və şüurlu nümayəndələri, zamanın ən çətin və mürəkkəb maneələrinə sinə gərən və onlara qalib gələn nəhəng ziyalılarının böyük zəhməti, istedadı və misilsiz şücaəti sayəsində inkişaf etmiş, zənginləşmiş və dövrün bütün keşməkeşlərindən keçərək müasir, mütərəqqi, novatorçu və demək olar bütün pozitiv ənənələrə sadiq mükəmməl səviyyəyə çatmışdır.

İnsan elm yaradan, onu formalaşdıran və biliyi elm səviyyəsinə qaldıran şəxsdir. Mədəniyyət isə incə zövqlü, dəqiq konturlu, yüksək pafoslu, eyni zamanda məlahətli, ritmik, oynaq, şux melodiyalı, rəngarəng çalarlı, monumental görünüşlü, gözəl ornamentli, kəskin və mürəkkəb xarakterli, mahir aktyorluq və ifaçılıq məharətli, misilsiz erudusiyalı və s. üstün və əvəzolunmaz keyfiyyətlərə malik və hər biri elmin ayrıca müstəqil sahəsi olub, eyni zamanda müstəqil elm sahələrinin birlikdə mükəmməl təzahürü, vahid məcmusudur. Mədəniyyəti formalaşdıran müstəqil elm sahələri həm ayrı – ayrılıqda, müstəqil şəkildə, həm də ümummədəniyyət kontekstində mədəniyyətin ayrılmaz tərkib hissələri kimi inkişaf etmişdir. Mədəniyyətin belə çoxşaxəli inkişaf prosesi hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Hər bir sferası ayrı – ayrılıqda tədqiqata cəlb edilən mədəniyyət sahəsi hər tədqiqatçıdan hazırlıqlı olmağı, dünya mədəniyyətinin nadir sənət inciləri ilə tanışlığı, eyni zamanda tədqiqat obyekti olan ölkə mədəniyyətinin klassik və müasir dövr nümunələrinə bələd olmağı, bu sahədə görülən işləri bilməyi, tədqiqat obyekti olan sahənin xarakterik xüsusiyyətləri, tədqiqat

prosesinin özünəməxsusluğu və s. obyektiv və subyektiv şərtləri nəzərə almağı, real olmağı, ədalətli mövqedən çıxış etməyi, realizm ideyalarına sadiq qalmağı, hər bir şeyin, hadisənin adını öz üstünə qoymağı, böyük zəhmət, istedad, bacarıq və qabiliyyət tələb edir. Müxtəlif dövrlərdə fərqli tədqiqatçılar bu sahəni araşdırsalar da, yalnız tək – tük əsil tədqiqatçı alim bu sferanın mahiyyətini dərk etməyə, onu elmi tədqiqata cəlb etməyə, gecə – gündüz bu sahədə gərgin elmi axtarışlar aparmağa, dəyərli elmi əsərlər yaratmağa, mədəniyyətin hər bir sahəsini diqqətlə, təvazökarlıqla, əsil alim dəqiqliyi və məharəti ilə araşdırmağa, bu sahədə çalışan və onu tədqiq edən alim kimi öz sözünü deməyə müvəffəq olmuşdur.




Н. Ч. МЕҺДИЈЕВА

АЗӘРБАЈЧАН ЈАРАДЫЧЫЛЫГ ИТТИФАГЛАРЫНЫН КҮТЛӘВИ ТӘБЛИГАТ САҺӘСИНДӘ ФӘАЛИЈЈӘТИ

(1960—1980-чи илләр)

**Şəkil 1.** Tarix elmləri doktoru, professor Nisbət Mehdiyeva və onun "Azərbaycan Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980-ci illər)" adlı dərs vəsaiti (1990)

Möhtəşəm tədqiqatçı, əsil alim, sevimli pedaqoq, gözəl və əziz ana tarix elmləri doktoru, Professor Nisbət Mehdiyeva mədəniyyətin öyrənilməsi sahəsində öz alim sözünü deyən, bu sahəni uzun illər araşdıran, onun hər bir sferasını qaygı ilə öyrənən, elmi tədqiqata cəlb edən tək – tük alimlərdən hesab oluna bilər. Professor Nisbət Mehdiyeva respublikada mədəniyyətin

öyrənilməsi sahəsində fundamental elmi əsərlərin müəllifi kimi ən ön sırada qərar tutur. Professor Nisbət Mehdiyeva 1990 – cı ildə "Azərbaycan Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı dərs vəsaiti (Şəkil 1) yazmış və çapdan buraxmışdır. Professor Nisbət Mehdiyevanın 1991 – ci ildə "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələri (1960–1980 – ci illər)" adlı monoqrafiyası nəşr olunmuşdur. Dəyərli tədqiqatçı alim 1991 – ci ildə "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı doktorluq dissertasiyası müdafiə etmişdir. Professor Nisbət Mehdiyeva 2 monoqrafiya və 5 dərsliyin müəllifidir. Tədqiqatçı alim birinci monoqrafiyasını 1991 – ci ildə, ikinci monoqrafiyasını isə 2014 – cü ildə yazmış və çapdan buraxmışdır. 2014 – cü ildə professor Nisbət Mehdiyevanın "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı monoqrafiyası nəşr olunmuşdur.

Professor Nisbət Mehdiyeva 1990, 1991 və 2014 – cü illərdə respublikada 1960–1980 – ci illərdə Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyətinə həsr olunmuş 1 dərs vəsaiti, 2 monoqrafiya və çoxsaylı elmi məqalə yazmış və çapdan buraxmışdır. 1991 – ci ildə tədqiqatçı alim professor Nisbət Mehdiyeva Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyətinin 1960–1980 – ci illər dövrü üzrə doktorluq dissertasiyası müdafiə edərək bu sahə üzrə respublikada çalışan ən görkəmli tədqiqatçı – alim kimi tanınmışdır.

Tədqiqatçı alim professor Nisbət Mehdiyeva 1990 – cı ildə "Azərbaycan Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı yazdığı dərs vəsaitində bu təşkilatların müxtəlif forma və metodlardan istifadə edərək ədəbiyyat və incəsənət əsərlərinin geniş şəkildə yayılması sahəsində gördüyü kütləvi – təbliğat işi və respublikada mədəniyyətin inkişafı sahəsində onların həyata keçirdiyi əməli tədbirləri ətraflı tədqiq etmişdir. Müxtəlif yaradıcılıq ittifaqlarında təmsil olunan yaradıcı ziyalıların bədii mədəniyyətin təbliği sahəsində həyata keçirdiyi tədbirlər, sərgilər, musiqi ifaçılığı, baxışlar, müsabiqələr, festivallar, yarmarkalar, teatr və kino əsərlərinin nümayişi, təbliği və s. aktual məsələlər ətraflı şəkildə işıqlandırılmışdır. Yaradıcılıq ittifaqlarının respublikada aparılan mədəni – tərbiyə işində böyük

rolu, incəsənət əsərlərinin təbliğində göz önündə olan əməli fəaliyyət, yaradıcı ziyalıların gördükləri rəngarəng işin əhatə dairəsi, kütləvi informasiya vasitələrinin incəsənətin təbliğinə cəlb edilməsi və bu sahədə görülən işlər, sənət adamları və peşəkar yaradıcı ziyalıların müxtəlif xarakterli görüşlər, dəyirmi stollar, müzakirələr, disputlar və yaradıcılıq saatlarında iştirakı, yaradıcılıq hesabatları və s. vacib məsələlər tədqiqatçı alim professor Nisbət Mehdiyevanın gərgin araşdırmaları, qaldırılan elmi ədəbiyyat, müxtəlif mənbələr, arxiv materialları və s. nəticəsində fundamental elmi – tədqiqat əsərlərinin obyektinə çevrilmişdir. Professor Nisbət Mehdiyeva respublikada yaradıcılıq ittifaqlarının kütləvi təbliğat sahəsində apardığı işin forma və metodları, onların novatorçu meylləri, mütərəqqi addımları, yeni fikir və ideyalarını araşdırmışdır. Tədqiqatçı ədəbiyyat və incəsənət əsərlərinin tərbiyəvi əhəmiyyətinin artırılması və mədəni tərbiyə işinin qurulması sahəsində musiqi lektoriyaları, ədəbi – bədii əsərlərin müzakirəsi, oxucu və tamaşaçı konfransları, disputlar, geniş dinləyici, tamaşaçı və oxucu auditoriyası ilə birbaşa ünsiyyət, görüşlər, yaradıcılıq diskussiyaları, dəyirmi stollar, fikir mübadilələri və s. – nin rolunu düzgün qiymətləndirərək mədəniyyətin inkişafı sahəsində bu fəaliyyət istiqamətlərini zəruri hesab etmişdir.

Azərbaycan Yaradıcılıq İttifaqlarının müntəzəm olaraq müxtəlif təşkilatlar, kitabxanalar, mədəniyyət sarayları və klublarda keçirdiyi poeziya günləri, ədəbi – bədii tədbirlər, oxucu konfransları, nəzəri və yaradıcılıq konfransları, yaradıcılıq disputları və s. mədəniyyətin müxtəlif sferalarının durmadan inkişafını təmin edirdi. Tədqiqatçı alim, professor Nisbət Mehdiyeva hesab edir ki, belə konfranslar, yaradıcılıq disputları və görüşlərin keçirilməsinin yaradıcılıq ittifaqları tərəfindən dəstəklənməsi və müntəzəm olaraq ona əməl olunması mədəniyyətin inkişafı və şəffaf fikir, mütərəqqi ab – havanın formalaşmasında olduqca zəruri idi. Azərbaycan Teatr Cəmiyyəti və Azərbaycan Kinematoqrafçılar İttifaqının keçirdiyi tamaşaçı konfransları, yaradıcılıq görüşləri, teatr və kino xadimləri ilə görüşlər, gənc dramaturqların formalaşması, teatr truppaları, kino çəkiliş qrupları, incəsənət klubları və onların nəzdində müxtəlif bölmələrin – aktyor, teatrşünas, bədii tərtibat və s. – nin yaradılması və fəaliyyəti professor Nisbət Mehdiyevanın əsərində öz əksini tapmışdır. Tədqiqatçı göstərir ki, bu dövrdə Azərbaycan bəstəkarlarının xalq, məişət

musiqisi və professional musiqinin müxtəlif istiqamətlərinin inkişafı ilə əlaqədar olaraq göstərdikləri sənətkarlıq, əsil yaradıcı ziyalı mübarizəsinin aparılması prosesində əldə edilmiş nailiyyətlər, mövcud çatışmazlıqların tədqiqata cəlb edilməsi və ətraflı şəkildə öyrənilməsi zəruri idi. Yaradıcılıq ittifaqları mühazirə – təbliğat, məruzələr, çıxışlar, səyyar plenumlar, müxtəlif xarakterli konfranslar, təbliğat büroları, yaradıcılıq ezamiyyətləri, klublar, mədəniyyət sarayları və mədəni – maarif müəssisələrində təşkil edilən cürbəcür yaradıcılıq tədbirləri kimi fərqli forma və metodlardan da istifadə edirdi. Respublikada mədəni– tərbiyə işi və əhalinin mədəni – estetik tərbiyəsinin səmərəli surətdə həyata keçirilməsində Sərgi salonları, Şəkil qalereyaları, Bəstəkarlar evi, Kino evi, Aktyor evi, Incəsənət klubları və s. təşkilatların da rolu böyük idi idi. Bu dövrdə uşaq və yeniyetmələrə aid ədəbiyyat və poeziya günləri, ədəbiyyat və incəsənət həftələri, dekadaları, rəssam günləri, teatr günləri, mədəniyyət günləri, təsviri incəsənət həftəsi, görkəmli fırça ustaları – rəssamların emalatxanalarında sənətsevərlərlə təşkil olunmuş "Açıq qapı" günləri, teatr həftələri, xalq teatrları həftəsi, kino həftələri, uşaq və gənclər filmləri həftəsi, musiqi həftələri və s. tədbirlər həyata keçirərək əhalinin ideya – siyasi və estetik tərbiyəsi uğrunda yaradıcılıq ittifaqları müntəzəm şəkildə mübarizə aparırdı. Bunları professor Nisbət Mehdiyeva öz əsərində apardığı elmi axtarışların nəticəsi olaraq göstərmişdir. Azərbaycan Yaradıcılıq İttifaqlarının respublikanın müxtəlif guşələrində mədəni işin aparılması sahəsində fəaliyyəti də professor Nisbət Mehdiyevanın diqqət mərkəzində olmuşdur. Tədqiqatçı haqlı olaraq qeyd edir ki, respublikada mədəni – maarif müəssisələrinin təşkili və onların fəaliyyətinin təkmilləşdirilməsi də yaradıcılıq ittifaqlarının əsas məşğuliyyət sahələri siyahısına daxil edilmişdir. Bu baxımdan Azərbaycan Yaradıcılıq İttifaqlarının Mədəniyyət Nazirliyi və Respublika Aşıqlar Birliyi ilə birgə təşkil etdiyi Poeziya evləri, Ədəbi postlar, Aşıq evləri, Rəsm qalereyaları və s. müəssisələr də bu təşkilatların fəaliyyət dairəsinin XX əsrin 60–80-ci illərində nə qədər geniş olduğunun bariz nümunəsidir. Yaradıcılıq ittifaqları mədəniyyət sferasının qarşısında duran problemlərin həllini öz fəaliyyətinin prioritet sahəsi hesab edərək yüksək zövqlü, geniş dünyagörüşlü, hərtərəfli inkişaf etmiş, yetkin, mütərəqqi fikir və ideyalarla tərbiyə olunmuş insan və

mədəniyyətin müxtəlif problemlərinə bələd olan şəxsin formalaşması və püxtələşməsində həlledici rol oynayırdı.

1991 – ci ildə tədqiqatçı alim, professor Nisbət Mehdiyevanın "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələri" adlı monoqrafiyası nəşr olunmuşdur. Azərbaycan Yazıçılar İttifaqının bədii tərcümə, ədəbiyyatın təbliği və ədəbi – mədəni tədbirlər sahəsində əlaqələri, Respublika Bəstəkarlar, Rəssamlar, Kinematoqrafçılar İttifaqları, Teatr Cəmiyyəti və "Azərbaycanfilm" kinostudiyasının musiqi, rəssamlıq, teatr və kino əsərləri vasitəsilə çoxsahəli əlaqələri tədqiqatçının monoqrafiyasında öz əksini tapmışdır. Keçmiş sovet respublikaları və xarici ölkələrin müvafiq ittifaq və təşkilatları ilə qarşılıqlı surətdə həyata keçirilən bu mədəni əlaqələrin rəngarəng spektri və istiqamətləri burada ətraflı araşdırılmışdır. Müəllifin qeyd olunan monoqrafiyasında Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələrinin forma və metodlarının təkmilləşdirilməsi, onların səmərəliliyinin artırılması sahəsində müəyyən təkliflər və yol verilmiş nöqsanların aradan qaldırılması ilə əlaqədar olaraq bəzi tövsiyələrin irəli sürülməsi olduqca aktual olub XX əsrin 60–80-ci illərində yaradıcılıq ittifaqlarının mədəni əlaqələrinin öyrənilməsi sahəsində olduqca böyük nailiyyət hesab edilməlidir. Cəmiyyətin inkişafında mədəniyyətin rolunun artması XX əsrin 60–80-ci illərində ən mühüm qanunauyğunluqlardan biri idi. Mədəniyyətin inkişafını təmin edən ən mühüm elementlərdən biri mədəni əlaqələrin öyrənilməsi və elmi tədqiqata cəlb edilməsi idi. Mədəni əlaqələrin təsiri ilə milli mədəniyyətin inkişafı xalqın mənəvi aləminin zənginləşməsi və tərəqqisinə də kömək edirdi. Azərbaycan Yaradıcılıq İttifaqları respublikanın mədəni əlaqələrinin qurulması, formalaşması və inkişafında fəal iştirak edirdi. Bu əlaqələrin forma və vasitələri zəngin, coğrafi dairəsi geniş, əhəmiyyəti isə böyük idi. Professor Nisbət Mehdiyeva göstərir ki, yaradıcılıq ittifaqlarında keçirilən yığıncaqlarda mədəni əlaqələr, tərcümə problemləri, müzakirələr, söhbətlər və s. ədəbi – mədəni hadisələr geniş vüsət almışdı. Respublikanın bədii ziyalıları mədəniyyətin inkişafı, mədəni əlaqələrin qurulması və möhkəmlənməsi, mədəniyyətin bütün sahələrinin təkmilləşdirilməsi, onların istedad və sənətkarlığının üzə çıxarılması sahəsində ziyalı mövqeyi nümayiş etdirərək bütün qüvvələrini səfərbərliyə almışdılar. Azərbaycan Yaradıcılıq İttifaqlarının müxtəlif ölkələrin ədəbiyyat və incəsənət əsərlərinin

nəşri, nümayişi və təbliği ilə məşğul olan müəssisələri və təşkilatları ilə əlaqələrinin forma və metodları olduqca rəngarəng idi. Tanışlıq, öyrənmək, əlaqə yaratmaq, onu inkişaf etdirmək, zənginləşdirmək və s. yaradıcılıq ittifaqlarının fəaliyyətində mühüm yer tuturdu. Professor Nisbət Mehdiyeva Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələrinin öyrənilməsi sahəsində olduqca böyük və dəyərli tədqiqat işi aparmışdır.

Görkəmli tədqiqatçı alim professor Nisbət Mehdiyeva 2014 – cü ildə ikinci monoqrafiyasını çapdan buraxmışdır. Bu monoqrafiya "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlanır. Professor Nisbət Mehdiyevanın bu monoqrafiyasında Azərbaycan tarixşünaslığında Yazıçılar İttifaqı, Bəstəkarlar İttifaqı, Rəssamlar İttifaqı, Teatr Xadimləri İttifaqı və Kinematoqrafçılar İttifaqının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti məsələsi öz əksini tapmışdır. Respublikada yaradıcı ziyalıların ideya – siyasi səviyyəsi və professional sənətkarlığı, yaradıcılıq ittifaqlarının yaradıcılıq və təşkilati işləri, bədii mədəniyyətin təbliğində onların rolu və mədəni əlaqələr sahəsində fəaliyyəti monoqrafiyada ətraflı işlənmişdir. Professor Nisbət Mehdiyevanın əsəri dəyərli tədqiqat obyektidir.

İttifaqların fəaliyyəti olduqca geniş, əhəmiyyətli və özünəməxsus idi. Öz sıralarında müxtəlif sənət sahələrində çalışan istedadlı yaradıcı ziyalıları birləşdirən yaradıcılıq ittifaqları yaradır, inkişaf etdirir və insanların bədii – estetik zövqünün formalaşması və mədəni səviyyəsinin yüksəldilməsində mühüm rol oynayırdı. Professor Nisbət Mehdiyeva hər bir məsələnin izahı və inkişafı prosesində əldə edilmiş nailiyyətləri və uğurları göstərməklə yanaşı, yol verilmiş çatışmazlıqları da ətraflı şəkildə tədqiqata cəlb etmişdir. Mədəniyyət problemlərinin belə qlobal işlənməsi tədqiqatçıdan böyük qüvvə və əmək tələb edir. Müəllif bu mövzunu işləyərkən nəzəri problemlərin praktik fəaliyyətə tətbiqi, yeni anlayış tərzi və həqiqətin aşkar olunması, mədəniyyət problemlərinin fərqli spektr və müxtəlif nöqteyi – nəzərdən tədqiqata cəlb edilməsi sahəsində olduqca nəhəng və fundamental elmi – tədqiqat əsəri yazmağa müvəffəq olmuşdur.

Görkəmli tədqiqatçı, nəhəng alim, uzun illər mədəniyyət sahəsində böyük tədqiqat işləri aparan, durmadan bu sahədə çalışan, çoxsaylı fakt və mənbə ilə işləyərək yalnız real hadisələr, elmi analiz, dəqiq rəqəmlər, səlis

mənbələr və elmi göstəricilərə əsaslanan Professor Nisbət Mehdiyevanın respublikada mədəniyyət sahəsində apardığı elmi axtarışlar olduqca əvəzsiz olub onların Azərbaycan mədəniyyətinin inkişafı, formalaşması və zənginləşməsinə çox böyük təsiri vardır və bu nəhəng fəaliyyətin çox dəyərli elmi əhəmiyyəti danılmazdır.

III fəsil

# YARADICI ZİYALILARIN MƏDƏNİYYƏTİN İNKİŞAFINDA ROLU (XX ƏSRİN 60–80 – Cİ İLLƏRİ)

## 3.1. Yaradıcı ziyalıların formalaşması

Hər dövrün öz tələbi, meyarları, inkişaf istiqamətləri və tendensiyaları vardır. Dövrün mövcud ictimai – siyasi mühiti və vəziyyəti ilə ayaqlaşmaq, onu dərindən dərk və analiz etmək bacarığına malik olmaq, düzgün həll etmək, çətinliklərə qarşı hər zaman mübarizə aparmaq, ədalətsizliyə boyun əyməmək, haqsızlığa susmamaq, hər zaman vicdanın səsinə qulaq asmaq və s. üstün və müsbət keyfiyyətləri özündə tərbiyə etmək və onları tamamilə fərqli aspektlərdə yaradıcılığa gətirmək olduqca vacibdir. Belə ki, ideoloji cəhətdən yetkin şəxsin cəmiyyətdə fəal mövqedən çıxış etməsi vacib və məqsədyönlüdür. İnsan cəmiyyətdə formalaşır və inkişaf edir, tərbiyə edilir və şəxsiyyətə çevrilir. Sənətkar isə mədəniyyətin müxtəlif sahələrində vicdan və məsuliyyətlə çalışaraq peşəkar sənətkarlığa aparan yolda qarşıya çıxan bütün çətinlik və maneələri aşaraq yetkinləşir, ixtisaslaşır və getdikcə peşəkar mütəxəssisə çevrilərək öz sənətinin mahir bilicisi kimi şərəfli mərhələyə qədəm qoyur. Mədəniyyət bütün sfera və istiqamətləri ilə bütünlüklə sırf yaradıcılıq prosesinə istinad edir. Yaradıcılıq isə yaradıcı ziyalıların birbaşa fəaliyyət sahəsi olub mərhələli öyrənmə, hazırlanma, ixtisaslaşma, təcrübə qazanma, çalışma, nəzəri biliklərin praktikaya gətirilməsi, püxtələşmə, yetkinləşmə və hərtərəfli formalaşma kimi inkişaf strategiyasına əsaslanır. Sənətkar hansı cəmiyyətdə yaşamasından asılı olmayaraq öz sənətini hər zaman yüksəltməli və inkişaf etdirməlidir. Yaradıcı ziyalılar mədəniyyətin yaradıcısı, daşıyıcısı, inkişaf etdiricisi, yayıcısı və əlaqələrin genişlənməsinin əsas vasitələri hesab oluna bilər.

Yaradıcı şəxslərin cəmiyyətdə axtarıb tapılması, onların bacarıq və qabiliyyətinin üzə çıxarılması, istedadlı və xüsusi istedada malik şəxslərin məhv edilməməsi, əksinə onların qorunub saxlanması, bu istedadın daha da inkişaf

etdirilərək onlardan geniş dünyagörüşlü, gözəl təhsilli, dünya mədəniyyətinin nadir sənət nümunələrinə yaxından bələd olan, tam hazırlıqlı və incə zövqlü sənətkarların hazırlanması cəmiyyət və dövrün qarşısında duran ən mühüm problemlərdən hesab oluna bilər. Mədəniyyət yaradıcılıq tələb edir. Yaradıcılıq isə sənət və sənətkarlıq tələb edir. Sənəti isə sənətkar yaratmalı və inkişaf etdirməlidir. Sənətkarı isə nadir istedad kimi üzə çıxarmaq, oxutmaq, öyrətmək, hazırlamaq, inkişaf etdirmək, yetkinləşdirmək və formalaşdırmaq vacib şərtdir. Yaradıcı şəxslərin hazırlanması üçün onlara müvafiq şərait yaradılmalı, dövlətin siyasəti və strategiyası xalqın belə istedadlı şəxslərinin məhvinə yox, əksinə onların qorunub saxlanması, hifz edilməsi, inkişaf etdirilməsi və müasir mürəkkəb dünyada layiqli yerlərini tutmaqda onlara köməklik göstərilməsinə əsaslanmalıdır. Bədii yaradıcılıqla məşğul olan ziyalılar isə bu vəzifələrin yerinə yetirilməsinə səy göstərməlidirlər. Yaradıcı ziyalıların formalaşması, fəaliyyəti və rolunu çox gözəl araşdırmış tədqiqatçı alim, tarix elmləri doktoru, professor Nisbət Mehdiyeva (Şəkil 1) göstərir ki, tarixi proses özündə mədəni hadisələrin geniş spektrini birləşdirir və burada bədii yaradıcılıq mühüm yer tutur. Bədii yaradıcılıq mədəniyyət hadisəsidir. Mədəniyyətin inkişafı isə ümumi tarixi prosesin ayrılmaz hissəsidir.

Hər bir kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Lakin yaradıcı ziyalılar bu mədəni prosesin aparılmasında tamaşaçı, dinləyici kimi deyil, yaradıcı tərəf kimi iştirak edir.

Yaradıcı ziyalılar gözəl əsərlər yazır, oynaq, şux və zəngin musiqilər bəstələyir, misilsiz rəsm əsərləri, tablolar çəkir, füsunkar heykəllər ucaldır, yaraşıqlı memarlıq nümunələrinin layihələrini hazırlayır, maraqlı rollar ifa edir və gözəl tamaşalar səhnələşdirir, dərin və düşündürücü sənədli və bədii filmlər ekranlaşdırır, onlara librettolar, ssenarilər yazır, tamaşalar, animasiya və kinofilmlər üçün müxtəlif koloritli və təntənəli musiqilər bəstələyirlər. Bu qədər geniş sferada məharətlə fəaliyyət göstərən peşəkar yaradıcı kadrlar – yaradıcı ziyalıların hazırlanması və formalaşması dövlətdən xüsusi qayğı, diqqət, kömək və yaradıcı şəxslərin qorunması və hifz edilməsi üçün xüsusi dövlət siyasəti tələb edir. Bu baxımdan XX əsrin 60–80-ci illərində respublikada yaradıcı ziyalıların hazırlanması, istedadlı şəxslərin üzə çıxarılması,

onlara yaradıcılıq və fəaliyyət azadlığının verilməsi, onların zaman – zaman ixtisasının artırılması, peşəkar ziyalı – yaradıcı məfhumunun yaranması, onlara dövlət qayğısının təmin edilməsi, incə zövqlü yaradıcı şəxslərin cəmiyyətdə rast gəlinən xoşagəlməz hallar və amansızlıqdan qorunması dövlət, xalq və cəmiyyət qarşısında duran ən vacib və aktual məsələlərdən hesab olunmalıdır.



**Şəkil 1.** Tədqiqatçı alim, tarix elmləri doktoru, Professor Nisbət Mehdiyeva

Bu dövrdə ölkəmizdə estetik tərbiyəyə böyük əhəmiyyət verilirdi. Bu baxımdan özfəaliyyət və professional yaradıcılığın hər vasitə ilə təbliği, burada tamamilə təmənnasız olaraq yalnız istedadlı şəxslərin üzə çıxarılması, onların ölkənin mədəni həyatına cəlb edilməsi, peşəkar yaradıcılıqla məşğul olmaq

üçün müvafiq sənətlər üzrə təhsil alması, oxuması, hazırlanması, ixtisaslaşması və s. ümdə məsələlərin həlli böyük əhəmiyyət daşıyırdı.

Müxtəlif müsabiqələr, görüşlər, diskussiyalar, disputlar, cürbəcür yaradıcılıq sahələri üzrə peşəkar sənətkarların gənc və istedadlı yaradıcı şəxslərə oxuduqları məruzələr, yaradıcılıq hesabatları, tamaşaçı konfransları, özfəaliyyət və bədii özfəaliyyət dərnəklərinin çıxışlarının təşkili, onların rəhbərləri və əməkdaşlarının fəaliyyəti, müxtəlif hərbi hissə və təşkilatların nəzdində fəaliyyət göstərən dram dərnəkləri və özfəaliyyət kollektivlərinin üzvləri ilə görüşlərin keçirilməsi və s. bu kimi aktual tədbirlər yaradıcı şəxslərin üzə çıxarılması və inkişafında müstəsna rol oynayır.

Azərbaycan Teatr Cəmiyyətinin keçirdiyi tamaşaçı konfranslarının təsir dairəsi çox genişdir. Belə konfranslarda təşkilatların müdirləri, dram dərnəklərinin rəhbərləri və əməkdaşları, Bakı Şəhər Xalq Maarif şöbəsinin nümayəndələri və s. təşkilatların üzvləri iştirak edirdilər. Belə ki, 1971–1972 – ci illərdə Gənc Tamaşaçılar Teatrı 50 – dən artıq şəhər və rayon miqyasında geniş həcmli tədbirlər həyata keçirmişdir. Bunlardan nəzəri konfranslar, uşaq rəsmləri sərgilərinin təşkili, gənc şair və dramaturqların yaradıcılıq görüşləri və s. mühüm əhəmiyyət daşıyırdı. İncəsənət klubunda birləşən teatrın gənc fəalları aktyor, teatrşünas, təbii tərtibat və s. bölmələr yaratmışdılar. Bu dərnək və bölmələrin əsas vəzifəsi istedadlı şəxslərin üzə çıxarılması, tərbiyə olunması, hazırlanması və mövcud mühitdə formalaşması idi. Belə ki, yalnız 1962 – ci ildə Bakı şəhərində keçirilmiş 20 – dən artıq tamaşaçı konfransında 15 mindən artıq insan iştirak etmişdir. Burada müxtəlif kinofilmlərin müzakirələri keçirilmiş, kino əsərlərinin yaradılması, kinofilmlərin hazırlanması, ssenarilərin yazılması, müzakirəsi, çəkilişi, aktyor və rejissor işinin təşkili, aktyor və tamaşaçı münasibətlərinin yaranması, peşəkar aktyor kollektivinin seçilməsi, rejissor təxəyyülünün əsərin əsas ideyasına xələl gətirməməsi, bədii – tərtibat məsələləri və s. mühüm aspektlər diqqət mərkəzində olmuşdur. Bu dövrdə respublikada XX əsrin 60 – cı illərindən nəşr olunmağa başlayan "Kino yenilikləri" adlı qəzetdə kinofilmlərin reklamı, kino əsərlərinin çəkilişi, hazırlanması, yayılması, yaradıcı kollektivin fəaliyyəti, iş prinsipi və s. yaradıcılıq məsələləri ətraflı işıqlandırılırdı.

Rəssamlar İttifaqının orta ümumtəhsil məktəblərində təsviri incəsənət və estetik tərbiyənin inkişafına yönəlmiş fəaliyyəti uşaq və gənclərin tərbiyəsi, onların gələcək yaradıcı şəxs kimi formalaşması və fəaliyyətində həlledici rol oynamışdır. Belə ki, kitabxanalarda təsviri incəsənətə aid əsərlərə tələbatın artması, bədii sərgilər və ayrı – ayrı incəsənət əsərlərinə aid müxtəlif məzmunlu inşaların yazılmasının intensiv xarakter alması, uşaqların əl əməyindən təşkil olunmuş sərgilərin keçirilməsi, istedadlı uşaq və gənclərin əl əməyi işlərindən seçilmiş ən yaxşı incəsənət – rəsm nümunələri ilə məktəblərin sinif və dəhlizlərinin bəzədilməsi və s. həvəsləndirici və yaradıcılıq metodları geniş vüsət almağa başlamışdır. Respublika Rəssamlar İttifaqının üzvləri 1960 – cı ildə 85 mühazirə, 1962 – ci ildə isə 102 məruzə oxumuşlar.

Yaradıcı ziyalıların yaranması və formalaşması prosesində xalq universitetlərinin rolu xüsusi əhəmiyyət daşıyırdı. 1959 – cu ildən başlayaraq Azərbaycanda xalq universitetləri yaranmağa başlamışdır. İnsanların mənəvi tərbiyəsində mühüm rol oynayan xalq mədəniyyət universitetlərinin yeni sahələri meydana çıxmış və yayılmışdır. Bunlardan musiqi sənəti universiteti, kino universiteti, ictimai elmlər universiteti, valideynlərin kino universiteti, sağlamlıq universiteti və s. xüsusilə fərqlənirdi. Mədəniyyət universitetlərinin işi və onların inkişafına xüsusi diqqət yetirilirdi. Belə ki, xalq mədəniyyət universitetlərinin fəaliyyətinin düzgün istiqamətləndirilməsi üçün Respublika İctimai Şurası, həmçinin mədəniyyət təşkilatları, siyasi və elmi bilikləri yayan cəmiyyət – həmkarlar və yaradıcılıq ittifaqlarının nümayəndələrindən ibarət daha bir ictimai şura yaradıldı. 1959 – cu ildə Azərbaycan Bəstəkarlar İttifaqında Mədəniyyət universiteti təşkil olunmuşdu. Yalnız 1961 – ci ildə mədəniyyət universitetlərinin xətti ilə 84 məruzə oxunmuş və yaradıcılıq görüşü keçirilmişdir.

1960 – cı ildə ittifaq və respublika miqyasında mədəniyyət universitetlərinin fəaliyyətinin gücləndirilməsi üçün xüsusi mühazirəçilər qrupunun yaradılması qərara alınmışdır. Belə ki, Respublika Rəssamlar İttifaqı mədəniyyət sarayları və müxtəlif müəssisələrdə təşkil olunmuş mədəniyyət universitetlərinin işinə kömək məqsədilə əməli fəaliyyətə başlamışdır. Rəssamlar İttifaqı incəsənətin geniş təbliği və təsviri sənətin müxtəlif məsələləri haqqında 67 mühazirə təşkil etmişdir. Rəssam və sənətşünaslar "Azərbaycan tətbiqi

iscəsənəti 40 ildə", "Tətbiqi incəsənətin növ və janrları" və s. mövzularda Bakı şəhəri və respublikanın rayonlarında fəaliyyət göstərən müxtəlif müəssisə və təşkilatlarda yaradılan xalq universitetlərində çıxış etmişlər.

Kinematoqrafiya İşçiləri İttifaqı 1960–1961 – ci illərdə mədəniyyət universitetlərinə kömək məqsədilə 15 nəfərdən ibarət mühaziraçılar qrupu təşkil etmişdir. Onlar kino sənətinin qarşısında duran mühüm məsələləri özündə əks etdirən "Kinofilm necə yaradılır", "Kinofilm necə çəkilir", "Azərbaycan kino sənətinin tarixi haqqında" və s. mövzularda çıxış etmişlər. Kinematoqrafiya İşçiləri İttifaqının üzvləri bu dövrdə mədəniyyət universitetlərində 400 – dən artıq məruzə oxumuşlar. Kinematoqrafçılar İttifaqı xalq fakültəsi, "Vətən" kinoteatrında kino sənətinin xalq universiteti, kinoklub və s. təşkil etmişdir. 1976–1980 – ci illərdə kinoşünaslar, tənqidçilər, rejissorlar və aktyorlar respublika üzrə 165 məşğələ keçirmişlər. "Azərbaycanfilm" kinostudiyasında xalq kino universiteti yaradılmışdı. Bu universitetə istedadlı və bacarıqlı gənclər cəlb edilir, onlar müvafiq institutlara daxil olmaq və həvəskar filmlər çəkmək üçün hazırlanırdı. Göründüyü kimi, mədəniyyət universitetləri istedadlı, xüsusi qabiliyyəti olan şəxslərin üzə çıxarılması, gələcək peşəkar təhsilə hazırlanması, hazırlıqlı yaradıcı şəxslər kimi müxtəlif sferalar üzrə formalaşması sahəsində müstəsna rol oynayırdı.

Müxtəlif xarakterli və rakurslu mövzuların aşılanması zamanı dinləyici və tamaşaçı auditoriyası peşəkar sənətin incəliklərinə bələd olmaq, onu dərindən əxz etmək və sənət yolu ilə fəaliyyət göstərmək istəyən istedadlı və qabiliyyətli şəxslərin üzə çıxması üçün əlverişli şərait yaradılmasına imkan əldə edirdi. Müxtəlif yaradıcılıq ittifaqlarında təmsil olunan, çalışan və professional sənətlə məşğul olan yaradıcı ziyalılar oxuduqları mühazirələr və etdikləri məruzələrin səviyyəsinin yüksəldilməsinə çalışırdılar. Hər bir məşğələnin xarakterindən asılı olaraq əyanilik və rəngarəng illüstrativ materiallar zənginləşir və getdikcə onlar aktual məzmunlu sənədli filmlərin nümayişi, Opera və Balet Teatrı artistlərinin çıxışları, sərgilər, stendlər, fotoalbomların tərtibatı, şəkil qalereyalarının təşkili, həvəskar və gənc yaradıcı şəxslərin əl işləri və sənət nümunələrinin toplandığı fotostend və roliklərin təqdimatı və s. ilə müşayiət olunurdu. Eyni zamanda Bakı şəhərinin tarixi – memarlıq abidələrinə təşkil olunan öyrədici və tərbiyəvi əhəmiyyətə malik

müxtəlif ekskursiyalar bu baxımdan mühüm elementlərdən biri hesab oluna bilərdi. Bir neçə incəsənət sahəsini özündə birləşdirən belə mədəniyyət universitetləri yaradıcı şəxslərin tapılması, üzə çıxarılması, təlim – tərbiyəsi, hazırlanması, dünyagörüşünün zənginləşməsi, yaradıcılıq bilik və vərdişlərinə yiyələnməsi və getdikcə formalaşması sahəsində olduqca mühüm rol oynayırdı.

XX əsrin 60–70 – ci illərində respublikada fəaliyyət göstərən xalq universitetlərinin sayı artmışdır. 1968–1969 – cu illərdə 26,9 min dinləyicisi olan 237 xalq universiteti, 1971–1972 – ci illərdə 36 198 dinləyicisi olan 273 xalq universiteti, 1979–1980 – ci illərdə 123,7 min dinləyicisi olan 671 xalq universiteti fəaliyyət göstərirdi.

Qeyd etmək lazımdır ki, hər bir xalq universitetinin fəaliyyəti yalnız dinləyicilər və burada oxunan mühazirələrin sayına görə deyil, həmçinin məşğələlərin keyfiyyəti, oxunan mühazirə və keçirilən məşğələlərin dinləyicilərə təsiri, burada çalışan sənət adamlarının istedad axtarışında olarkən istifadə etdikləri səmərəli yaradıcılıq forma, metod və üsulların rəngarəngliyinə görə də qiymətləndirilirdi. Xalq universitetlərində seminarlar, disputlar, sual – cavablar, diskussiyalar, kinofilmlərin nümayişi, tamaşaçıların müzakirəsi və s. rəngarəng yaradıcılıq forma və metodlarından bəzən bir qədər zəif istifadə edilirdi. Teatrlar, konsert təşkilatları, kinostudiya və s. təşkilatlar da xalq universitetlərinin normal fəaliyyət göstərməsi üçün müəyyən köməklik göstərirdi. Lakin eyni zamanda onu da qeyd etmək lazımdır ki, müəyyən təşkilatların xalq universitetlərinə mühazirəçilərin ayrılması, onların müvafiq dərslik, dərs vəsaiti və s. ədəbiyyatla təchiz olunması üçün müntəzəm əməli fəaliyyət və köməklik səviyyəsi bir qədər aşağı idi.

Azərbaycan Yaradıcılıq İttifaqları yarandığı gündən ölkədə əhalinin ideya – tərbiyəvi mühitdə, yaradıcı və istedadlı şəxslərin sırf yaradıcılıq atmosferində və ümumilikdə, xalqın incə estetik zövqü və yaradıcı ziyalıların peşəkar sənətinin formalaşması uğrunda daim mübarizə aparmışdır.

Yaradıcı ziyalıların formalaşmasında respublikada fəaliyyət göstərən özfəaliyyət yaradıcılığı da özünəməxsus rol oynayırdı. 1975 – ci ildə mədəniyyət və incəsənət xadimləri I Respublika bədii özfəaliyyət yaradıcılığı festivalının keçirilməsi ilə bağlı bəzi özfəaliyyət kollektivlərini hamiliyə götürmüşlər.

Yaradıcılıq ittifaqları bu işdə kitabxana, klub və s. mədəni – maarif müəssisələri ilə də geniş əlaqə saxlayırdı.

XX əsrin 60 – cı illərində ölkədə yaradılan "Yaradıcılıq görüşləri klubu-"na yazıçılar, bəstəkarlar, rəssamlar, memarlar və b. yaradıcı ziyalılar daxil olmuşdu. Bu klubun təşkil edilməsində məqsəd ölkədə fəaliyyət göstərən, ədəbiyyat və incəsənətin müxtəlif sahələrində çalışan peşəkar və gənc yaradıcı ziyalılar arasında yaradıcılıq əlaqələrinin möhkəmlənməsi və sırf yaradıcılıq mühitində istedadlı şəxslərin yetişməsi və formalaşmasını təmin etmək idi.

Respublika Bəstəkarlar İttifaqı ölkənin şəhər və rayonlarında musiqi klublarının yaranmasında fəal iştirak edirdi. XX əsrin 70 – ci illərində musiqi məktəblərinin fəaliyyətinin güclənməsi gənc musiqiçilər klubu və xalq – çalğı orkestrlərinin yaranmasına imkan verdi.

Bədii özfəaliyyətin inkişafına qayğı və onların fəaliyyətinə dəstək yaradıcılıq ittifaqlarının ümdə vəzifələrindən sayılırdı. Xalq teatrları özfəaliyyət kollektivlərinin geniş növüdür. Onlar xalq yaradıcılığını professional sənətkarlıqla əlaqələndirən və yaradıcı ziyalıların formalaşmasında mühüm rol oynayan fəal incəsənət növlərindən biridir. Cəmiyyət inkişaf etdikcə bədii özfəaliyyət və professional sənətin qarşılıqlı zənginləşməsi prosesi güclənirdi. Müxtəlif həvəskar dərnək və kollektivlərlə təmsil olunan xalq yaradıcılığı – bədii özfəaliyyət kollektivlərinin tamaşa və çıxışlarında bəzən elə elementlər, süjetlər, quruluşlar və yaradıcılıq cizgiləri rast gəlinir ki, onlara heç professional teatrların repertuarlarına daxil edilən tamaşalarda təsadüf etmək mümkün deyildir. Bədii özfəaliyyət incəsənətin bütün növlərində öz yaradıcılığını inkişaf etdirir, bununla təkmilləşir və formalaşır. Bədii xalq yaradıcılığının inkişafı müxtəlif vasitələrlə həvəsləndirilirdi. Ölkəmizdə xalq teatrları 1953 – cü ildə yaradılmışdır. Artıq 1962 – ci ildə 17 belə xalq teatrı fəaliyyət göstərirdi. 1963 – cü ildə Azərbaycan Teatr Cəmiyyəti müntəzəm olaraq xalq teatrlarına köməklik göstərilməsi, yaradıcılıq məsləhət və təcrübəsinin bölüşdürülməsi üçün rejissor, rəssam və artistlərin göndərilməsini qərara almışdır. 1963 – cü ildə xalq teatrlarına keçirilmiş 20 – yə yaxın baxış nəticəsində bəlli olmuşdur ki, xalq teatrları arasında istedadlı kollektivlər və ayrı – ayrı ümidverici həvəskarlar, unikal şəxslər vardır. Məhz buna görə Teatr Cəmiyyətində xalq teatrlarına kömək edən daimi komissiya yaradılmışdır.

Belə ki, 1969 – cu ildə ölkədə 1427 bədii özfəaliyyət kollektivi var idi. Onlardan 559 xor, 928 dram, 290 xoreoqrafiya, 277 xalq – instrumental orkestri, 148 instrumental ansambl, 345 bədii təbliğat briqadası, 425 uşaq özfəaliyyət kollektivi və s. – ni göstərmək olar. Artıq 1980 – ci ildə respublikada 214746 iştirakçısı olan 12549 bədii özfəaliyyət kollektivi fəaliyyət göstərirdi. Eyni zamanda "Həvəskar birliklər", "Marağa görə klublar", "Gənclik klubları", "Estetik tərbiyə klubları" və s. klubların yaranması da diqqət mərkəzində idi.

Həvəskar kinostudiya və kinoklubların fəaliyyəti qənaətbəxş idi. 1960 – cı ildə Azərbaycan Kinematoqrafiya İşçiləri İttifaqının Təşkilat Bürosu və Kino Evinin kino həvəskarları bölməsinin məşğələlərində həvəskar filmlər müzakirə edilmiş və məsləhətlər verilmişdir. Belə ki, müxtəlif təşkilat və müəssisələrdə həvəskar kinostudiyalar yaradılmışdır.

Respublika Bəstəkarlar İttifaqı gənc musiqi kollektivləri – mahnı və rəqs ansambllarının inkişafına xüsusi diqqət yetirirdi. Onların yaradıcılıq səviyyəsinin yüksəldilməsi üçün bu ansambllara görkəmli bəstəkarlar, baletmeysterlər və başqa professional yaradıcı ziyalılar təhkim edilmişdi. Görkəmli bəstəkar A.Məlikov Azərbaycan Dövlət Konservatoriyasının hələ tələbəsi ikən bədii özfəaliyyət kollektivlərinə göstərilən ictimai vəzifə – xidmət işində yaxından iştirak etmişdir. 1961–1963 – cü illərdə müxtəlif professional bəstəkarlar respublikanın müəssisə və təşkilatlarında fəaliyyət göstrən gənclər teatrları, bədii özfəaliyyət dərnəkləri, estrada orkestrləri və xor kollektivlərinə yaradıcılıq məsləhətləri və göstərişlər vermişlər. Bu yaradıcılıq köməyi və əməkdaşlığı həvəskar bədii özfəaliyyət kollektivlərinin püxtələşməsi, inkişaf etməsi, təcrübə qazanması və sırf yaradıcılıq mühitində getdikcə professionallaşan yaradıcı ziyalı kimi formalaşmasına səbəb olurdu.

Azərbaycan rəssamları müxtəlif forma və metodlardan istifadə edərək bədii özfəaliyyət dərnək və kollektivlərinin inkişafına köməklik göstərirdilər. 1960–1961 – ci illərdə Rəssamlar İttifaqının 10 nəfər üzvü özfəaliyyət dərnəklərinə rəhbərlik etmiş, həvəskarlar üçün məsləhət saatları keçirmişlər. 1960–1961 – ci illərdə həvəskar rəssamların əsərlərinin respublika sərgisi keçirilmişdir. Məqsəd özfəaliyyət vasitəsilə gənc istedadları üzə çıxarmaqdan ibarət idi. Bu məqsədlə Rəssamlar İttifaqı həvəskar rəssamlar üçün seminar və məsləhət saatları təşkil edir, əsərlərinin müzakirəsini və onlara baxış keçirir,

sərgilərini təşkil edir və yaradıcılıq fəaliyyətini istiqamətləndirmək üçün müxtəlif əməli tədbirlər görürdü.

Respublika Yaradıcılıq İttifaqları ölkədə sırf yaradıcılıq mühitinin yaranmasında əməli fəaliyyət göstərərək gənc və həvəskar istedadlı şəxslərdən peşəkar, yüksək intellektual yaradıcı ziyalıların formalaşması üçün müntəzəm şəkildə fəaliyyət göstərir və professional ziyalı səviyyəsinin əldə olunması üçün durmadan yaradıcı və mütərəqqi formada mübarizə aparırdı.

## 3.2. Yaradıcı ziyalıların mədəniyyətin inkişafı sahəsində rolu

Yaradıcı ziyalılar – yazıçılar, bəstəkarlar, rejissorlar, aktyorlar, kino işçiləri və b. ölkədə mədəniyyətin inkişaf etdirilməsində mühüm rol oynayaraq, hər zaman mədəniyyətin müxtəlif sahələrinə yaradıcı mütərəqqi və pozitiv yanaşma tərzləri, yeni yaradıcılıq axtarış və yenilikləri, yeniliyin üzə çıxarılması və peşəkarcasına işlənməsi, əvvəlki element və cizgilərin isə məhv edilməməsi, əksinə qorunub saxlanması və inkişaf etdirilməsi, hər bir xalqın özünəməxsusluğunun hifz edilməsi və s. xarakterik xüsusiyyətlər ilə fərqlənmişlər. Bu baxımdan bədii mədəniyyətin əhəmiyyəti, onun xalqın mənəvi dünyagörüşünün düzgün formalaşması, zənginləşməsi, dünyanın ən mütərəqqi və pozitiv mədəniyyət nümunələri ilə yaxından tanış olması, onları doğru – dürüst dərk və əxz etməsi, hadisələrə və həyatda rast gəlinən ədalətsizlik və qanunsuzluğa qarşı düzgün mövqedən çıxış etməsi və s. məsələlərin həllində tutduğu obyektiv mövqe olduqca zəruridir.

Bədii mədəniyyət insanları düşündürür, başa salır, öyrədir, istiqamət verir, nəyin doğru, nəyinsə yanlış olduğunu göstərir, haqsızlığı üzə çıxarır və onu ifşa edir, insanları yaramaz əməllərdən çəkinməyə dəvət edir, onları tərbiyə edir və mükəmməl insan obrazını təsvir edərək ən dürüst və insani cizgiləri real həyata gətirmək uğrunda durmadan vicdan və məsuliyyətlə mübarizə aparır. Mədəniyyət geniş xalq kütlələri, cəmiyyət tərəfindən başa düşülməli, anlaşılan olmalı, xalqın duyğu və arzularını ifadə etməli, öz yaradıcılıq əsərlərində onları birləşdirməli, yazıb, çəkib, ifadə edib göstərməli və yaymalıdır. Belə mədəniyyətin ideya məzmunu dərin, bədii sənətkarlığı

yetkin, forma, janr və üslubu isə müxtəlif olur. Bədii yaradıcılıq mürəkkəb və çoxcəhətli proses olmaqla yanaşı, eyni zamanda fərqli olması ilə də səciyyələnir. Bədii yaradıcılıq yazıçı, şair, rəssam, heykəltəraş, rejissor, aktyor və b. yaradıcı ziyalıların bədii təxəyyülü, ideya tərzi, istifadə etdiyi forma və metodlar, əsərlərində yaratdıqları müxtəlif obrazlar, fikir və ideyaların sənətkarcasına təcəssümü və məcmusudur. Mədəniyyətin inkişafında rol oynayan yaradıcı ziyalıların ideya – siyasi səviyyəsinin yüksəldilməsi və professional sənətkarlığının artırılması olduqca vacibdir. Belə istedadlı yaradıcı ziyalılar yaradıcılıq ittifaqlarında təmsil olunaraq sırf yaradıcı mühitə düşür və öz professional sənətkarlığını artırmaq, əsil peşəkar kimi formalaşmaq və mədəniyyətin inkişafında iştirak etmək üçün əlverişli şərait əldə etmiş olurdular. Bununla belə yaradıcılıq ittifaqlarında hər bir sənətkara öz fərdi xüsusiyyətlərini inkişaf etdirmək üçün verilmiş sərbəstlik, müstəqillik və şəxsi azadlıq olduqca mütərəqqi və pozitiv hal olub mədəniyyətin inkişafında həlledici rol oynamışdır. Azərbaycanda Yazıçılar İttifaqı (1934), Bəstəkarlar İttifaqı (1934), Rəssamlar İttifaqı (1940), Kinematoqrafiya İşçiləri İttifaqı (1958) yaradıldı. Respublika teatr işçilərinin ictimai yaradıcılıq təşkilatı olan Teatr Cəmiyyəti (1948) daha sonra Teatr Xadimləri İttifaqına (1987) çevrildi. Bu yaradıcılıq ittifaqlarının mədəniyyətin inkişafı sahəsində oynadığı rol, mədəni quruculuq işində onların iştirakı, prinsipal mövqeyi, funksiyaları, tutduğu və müəyyən etdiyi ədəbi – bədii istiqamət, götürdüyü inkişaf kursu və bu baxımdan apardığı fəaliyyət güclənmiş və möhkəmlənmişdir (Şəkil 2).

Yaradıcılıq ittifaqlarında öz ideya – siyasi səviyyələrini artıran və professional sənətkarlığını yüksəldən yaradıcı ziyalıların sənətkarlıq yolları, ifadə vasitələri, çalışdıqları sahələr, sənətə gətirdikləri mövzular, qaldırdıqları problemlər və sənətkarlıq səviyyələri kifayət qədər fərqli olsa da, onların sənətdə oynadıqları rol – Azərbaycan mədəniyyətinin inkişaf etdirilməsi məsələsi danılmazdır. İfadə vasitələrinə görə bir – birindən fərqlənən, “söz”, “rəng”, “şəkil” və “ifa” vasitəsilə öz fikir və ideyalarını sənətə gətirərək onu gözəlləşdirən, fərqli, amma özünəməxsus və real cizgilərlə öz əsərləri və yaratdıqları obrazlar, qəhrəmanlara görə səciyyələnən, fərdi, amma eyni zamanda mütərəqqi və pozitiv elementləri ilə təcəssüm olunan bu yaradıcı ziyalılar çəkdikləri tablolar, bəstələdikləri fundamental musiqi əsərləri, ucaltdıqları

gözəl və ecazkar cizgili heykəltəraşlıq abidələri, qoyduqları gözəl və realizm üslublu teatr tamaşaları, çəkdikləri bir – birindən maraqlı sənədli və bədii filmlər, oynadıqları müxtəlif xarakterli rollar və ifalar ilə olduqca rəngarəng, özünəməxsus, cəsarətli, realistik, baxımlı, düşündürücü və tərbiyəvidir.




**Şəkil 2.** Azərbaycan Yaradıcılıq İttifaqları

Maarif, mədəniyyət ocaqları və elmi mərkəzlərlə yanaşı, yaradıcılıq ittifaqları da Azərbaycan mədəniyyətinin inkişafı sahəsində öz yaradıcılıq töhfələrini verməyə çalışırdı. Yaradıcı ziyalılar elə ictimai və peşəkar qüvvədir ki, onlar xalqın mənəvi – əxlaqi aləmi, ideya – siyasi tərbiyəsi, müasir və realist dünyagörüşünün formalaşması, cəmiyyətdə mükəmməl və sağlam insan obrazının yaranması, vətəndaşlıq mövqeyinin güclənməsi, hər bir məsələyə şüurlu münasibət bəslənməsi, insanların ideya və fikirlərini açıq şəkildə ifadə etməsinə öz yaradıcılıqları ilə bilavasitə və ya bilvasitə təsir etmək gücünə malikdirlər. Bu dövrün xarakterik xüsusiyyətləri kimi – insanların mənəviyyatca zəngin, ahəngdar inkişaf etmiş şəxslər kimi formalaşması üçün onlara gözəllik hissinin aşılanması, yüksək estetik zövqün formalaşması, tarixi və memarlıq abidələri, incəsənət əsərlərinin əhəmiyyəti və dəyərini düzgün qiymətləndirmək bacarığının tərbiyə edilməsi, şəxsiyyət fenomeninin dərk edilməsi və s. xüsusiyyətlər ön plana çəkilirdi.

Yaradıcı ziyalılar mənəvi tərbiyənin əsas amilləri olan ədəbiyyat və incəsənəti inkişaf etdirir, bədii əsərlər yaradır, onları yeni və mütərəqqi ideyalarla zənginləşdirir, respublikamızı digər ölkələrdə tanıdırlar. Yaradıcılıq İttifaqlarının iş mexanizmi, təşkilati fəaliyyəti, istedadlı və yaradıcı kadrlara bəslənən münasibət, cəmiyyətin qarşıya qoyduğu və onu düşündürən problemlərin bədii ədəbiyyat və mədəniyyətə gətirilməsi, sənət və sənətkar qarşısında duran vacib yaradıcılıq suallarına yaradıcı ziyalıların öz fəaliyyəti və əsərlərində özünəməxsus həll yolları axtarması, yeni yaradıcılıq axtarışları, ədəbi əsərlər və incəsənət nümunələrinin mövzularının real həyat hadisələrindən götürülməsi və s. məsələlər, şübhəsiz, mədəniyyətin inkişafında həlledici rol oynayırdı.

Ədəbiyyat və incəsənət ideoloji fəaliyyətin ən mübariz sahələrindən biridir. Yaradıcı ziyalıların gözəl sənət əsərləri yaratması üçün onların bədii cəhətdən savadlı olması, ideya – siyasi səviyyəsi və professional sənətkarlığının yüksəldilməsi zəruri idi. Bu baxımdan nəzəri seminarlar mühüm rol oynayırdı. 1961–1962 – ci illərdə Rəssamlar İttifaqı respublika rəssamlarının ideya – siyasi səviyyəsinin artırılması üçün Respublika Siyasi Maarif Evində məruzə və seminar məşğələləri təşkil etmiş, burada müxtəlif mövzularda 67 məruzə oxunmuşdur. Belə nəzəri seminarlar demək olar bütün yaradıcılıq ittifaqlarında keçirilirdi. Bu məqsədlə bəzən dərnəklərdən də istifadə edilirdi. Belə dərnəklərdə başlıca olaraq ədəbi jurnallar və "Ədəbiyyat və incəsənət" qəzetində işləyən şəxslər təmsil olunurdular.

Yaradıcılıq İttifaqlarının fəaliyyət sahələrindən biri də yaradıcı ziyalıların peşəkar sənətkarlığının yüksəldilməsi olmuşdur. Bunun üçün ixtisasartırma, təcrübə keçmə, yaradıcılıq seminarları, məzuniyyət və ezamiyyətlər, müsabiqələr və s. təşkil olunurdu. Gənc yaradıcı ziyalıların yaradıcılıq ezamiyyətləri yeni – yeni sənət əsərlərinin yaranması, yeni yaradıcılıq axtarışları, yeni mövzuların tapılması, sənət əsərlərinə gətirilməsi, müasir tələblərlə səsləşən nadir sənət nümunələrinin yaranması, nümayişi, təbliği və s. demək idi. Gənc rəssamların yaradıcılıq ezamiyyətinin nəticəsi onların yaratdıqları əsərlərin hesabat sərgisinin təşkili demək idi. Respublikanın gənc və peşəkar yaradıcı ziyalıları müxtəlif ölkələrə, o cümlədən rayonlara yaradıcılıq ezamiyyətlərinə göndərilirdi. Rəssamlar, yazıçılar, musiqiçilər, rejissorlar, kino işçiləri və b.

yaradıcı şəxslərin vaxtaşırı yaradıcılıq ezamiyyətlərinin təşkil olunması ölkəmizdə mədəniyyətin inkişafında müstəsna rol oynayırdı.

Yaradıcılıq İttifaqlarının fəaliyyətinin əsas istiqamətlərindən biri də gənclərlə işin təşkili, istedadlı gənclərin üzə çıxarılması, seminar və müşavirələrin təşkil edilməsi, bölmələr, gənclər studiyası, gənclər klubu, gənc rəssam və sənətşünaslar birliyi və gənc iş komissiyasının yaradılması, gənclər günü və müxtəlif tədbirlərin keçirilməsi, gənc rəssamların sərgilərinin təşkil edilməsi, gənc bəstəkarların musiqi əsərlərinin dinlənilməsi və s. gənclərin mədəni səviyyəsinin yüksəldilməsi, məsuliyyətlə mədəniyyətin inkişafına qayğı və köməklik göstərilməsidir. Belə ki, 1963 – cü ildə Bakı şəhərində kinomexaniklərin birinci respublika toplanışı keçirilmişdir. 1964 – cü ildə kinolaşdırma və kinoprokat işçilərinin müşavirəsi keçirilmiş və o əhaliyə kino xidmətinin yaxşılaşdırılmasına həsr olunmuşdur. Kinematoqrafiya və kino sahəsində xidmətin keyfiyyətinin artırılması və bu sahədə konkret əməli tədbirlərin görülməsi nəticəsində artıq 1965 – ci ildə Respublika Kinematoqrafiya Komitəsi üzrə 1340 kinoteatr və kinoqurğusu var idi. Bakı şəhərinin bəzi kinoteatrlarında fəaliyyət göstərən janr kinoklublarında sənədli filmlər, animasiya filmləri və s. nümayiş etdirilirdi. Bunlardan "Kinoprokat kuryeri", "Kaleydoskop", " Kino həvəskarları klubu", "İrs" adlı təkrar filmlər zalını qeyd etmək mümkündür. 1986 – cı ildə bu kinoklubların repertuarında 200 – dən artıq əsər – bədii filmlər, sənədli filmlər, cizgi filmləri və s. nümayiş etdirilmişdir. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, elmi – kütləvi, tarixi – xronikal, xronikal – sənədli və tədris filmlərinin əhəmiyyəti olduqca böyük olsa da, onlara kino sənətinin inkişafı və yaradıcılıq prosesində kifayət qədər yer ayrılmırdı. Eyni zamanda kinofilmlərin istehsalı zamanı müasir elm və texnikanın nailiyyətlərinin tətbiqinə də ehtiyac duyulurdu.

Yaradıcı ziyalıların fəaliyyəti və yaratdıqları əsərlərin nümayişi mədəniyyətin inkişafı sahəsində görülən işlərin bir növ yaradıcılıq hesabatı sayıla bilər. Bu baxımdan rəssamlar, bəstəkarlar, dramaturqlar, teatr və kino xadimlərinin əsərlərinin sərgiləri təşkil edilir, fəaliyyətlərini əks etdirən fotostend və fotoalbomlar hazırlanır, əsərləri radio və televiziya verilişlərinin proqramlarına salınır, tamaşaları hazırlanır, kinofilmləri nümayiş etdirilir, oynadıqları rolların əhəmiyyəti sənətşünaslar və ədəbi tənqidçilər tərəfindən araşdırılır və

təhlil edilirdi. Müxtəlif yeni əsərlər, teatr tamaşaları, sənədli və bədii filmlər tamaşaçıların müzakirəsinə verilir, onların obyektiv və mütərəqqi fikir və rəyləri nəzərə alınırdı.

1960 – cı ildə respublikanın müxtəlif müəssisə və təşkilatlarında cürbəcür mövzularda məruzələr oxumaq üçün Opera və Balet Teatrı, Gənc Tamaşaçılar Teatrının aktyorları və Teatr Cəmiyyətinin üzvlərindən ibarət 4 briqada təşkil olunmuşdu.

Azərbaycan Yaradıcılıq İttifaqları mədəniyyətin inkişafı sahəsində nəzəri və əməli fəaliyyətlə məşğul olaraq öz yaradıcılıq və təşkilati işlərini formalaşdırırdı. Yaradıcılıq İttifaqları, birlikləri və cəmiyyətlərində təmsil olunan yaradıcı ziyalıların qarşısında duran ən mühüm vəzifələrdən biri bədii cəhətdən yüksək səviyyəli əsərlərin yaradılması üçün durmadan çalışmaq və mübarizə aparmaqdır. Sənət əsərlərinin ideya – bədii səviyyəsinin yüksəldilməsi üçün müzakirələr, diskussiyalar, dəyirmi stollar təşkil olunur, əsərlərə müsabiqə və baxış keçirilirdi. İttifaqların həyata keçirdiyi yaradıcı – təşkilati işlər onların fəaliyyətinin əsas sahələrindən birini təşkil edirdi. Azərbaycan Yaradıcılıq İttifaqlarının respublikada göstərdiyi fəal nəzəri və əməli fəaliyyətin dərin elmi tədqiqi tarix elmləri doktoru, professor Nisbət Mehdiyeva tərəfindən aparılmışdır. İstedadlı tarixçi alim, bu sahənin gözəl bilicisi, Azərbaycan mədəniyyətinin aktual məsələləri, yaradıcı ziyalıların mədəniyyətin inkişafı sahəsində fəaliyyəti, Yaradıcılıq İttifaqlarının mədəniyyət sahəsində rolu, yeri və fəaliyyətinin 1960–1980 – ci illər dövrünün araşdırmaçısı professor Nisbət Mehdiyeva fundamental elmi əsərləri ilə yaradıcı ziyalı və yaradıcılıq məsələlərinin öyrənilməsində müstəsna rol oynamışdır. Professor Nisbət Mehdiyevanın "Azərbaycan Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" (1990) adlı dərs vəsaiti, "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələri (1960–1980 – ci illər)" (1991) və "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" (2014) adlı 2 monoqrafiyası Azərbaycan Yaradıcılıq İttifaqlarının fəaliyyəti və respublikada yaradıcı ziyalıların mədəniyyətin inkişafı sahəsində oynadıqları rola həsr olunmuş fundamental elmi – tədqiqat əsərləridir. Tədqiqatçı qeyd edir ki, bədii cəhətdən yüksək səviyyəli əsərlərin yazılması uğrunda mübarizə yaradıcılıq ittifaqlarının fəaliyyətində

əsas yer tuturdu. Belə ki, Yazıçılar İttifaqı 1970 və 1971– ci illərdə keçirdiyi səyyar plenumlarda bədii əsərlərdə insan obrazının yaradılması məsələsi və xalqlar dostluğunun Azərbaycan ədəbiyyatında əksi, humanizm ideyalarının bədii ədəbiyyata gətirilməsi və s. aktual məsələləri müzakirəyə çıxarmışdır. Ədəbiyyat və incəsənət əsərlərinin ideya – bədii səviyyəsinin yüksəldilməsində ədəbi – bədii tənqidin rolu da burada vurğulanmışdır. Bununla Yazıçılar İttifaqı orqanlarının tənqid şöbələri məşğul olurdu. İttifaq yaradıcılıq problemlərinin həlli və yaradıcılıq hesabatlarının hazırlanması – dinlənilməsi məsələlərinə xüsusi diqqət yetirirdi.

Yaradıcı ziyalılar bu dövrdə yaratdıqları ədəbiyyat və incəsənət əsərlərinin bədii – mənəvi cəhətdən mükəmməl, möhkəm kompozisiyaya malik, dəqiq süjet xətti, dolğun insan obrazları və rəngarəng təsir vasitələrinə söykənən mükəmməl bir yaradıcılıq nümunəsi olması uğrunda durmadan çalışır və mübarizə aparırdılar. Onlar çalışırdılar ki, teatr tamaşaları və kinofilmlər nəinki öz məzmunu ilə tamaşaçıları tərbiyə etsin, həm də forma yeniliyi, insan xarakterinin zənginliyi və həyat tərzinin xarakterik xüsusiyyətlərini əks etdirsin. Eyni zamanda yaradıcı ziyalılar öz əsərlərində şablonçuluq, primitivlik, standart mövzulardan əl çəkmək, cəsarətli axtarışlar, novaturluq, yeni janr və yaradıcılıq problemlərinin həllinin vacibliyinə çalışırdılar. Yaradıcı ziyalıların Azərbaycan mədəniyyətinin inkişafında rolu olduqca spesifik və rəngarəng olmuş, onlar XX əsrin 60–80-ci illərində uğurlu və eyni zamanda yaradıcılıq mübarizəsi ilə zəngin şərəfli yol keçmişlər. Yaradıcı ziyalıların mədəniyyətin bütün sferalarının inkişafında oynadıqları rol Azərbaycan mədəniyyətini olduqca zənginləşdirmiş, inkişaf etdirmiş və mütərəqqi– realist çalarlarla zəngin, yalnız dəqiq faktlar və bir qədər də sənətkarın yaradıcı təxəyyülünə əsaslanan misilsiz sənət nümunələrinin yaranmasına səbəb olmuşdur.

IV fəsil

# XX ƏSRİN 60–80 – Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN YARADICILIQ İTTİFAQLARININ TƏBLİĞAT SAHƏSİNDƏ FƏALİYYƏTİ PROFESSOR NİSBƏT MEHDİYEVANIN ELMİ YARADICILIĞINDA

## 4.1. Yaradıcılıq İttifaqlarının təbliğat sahəsində fəaliyyəti

Təbliğ dedikdə təşkilati tədbirlər, əsərlərin yazılmasının forma və üsulları, kütləvi təbliğat, onun təşkili və s. nəzəri və praktik aspektlər nəzərə alınmalıdır. Təşkilati tədbirlər olaraq təbliğ büroları və şöbəsinin yaradılması nəzərdə tutulmuşdur. Təbliğat bürolarının fəaliyyətinə yaradıcı ziyalıların insanlarla görüşləri və oxucu, tamaşaçı konfranslarının təşkili, disputlar və s. kütləvi – mədəni tədbirlərin keçirilməsi, müxtəlif yaradıcı peşə sahiblərinin təbliğat sahəsində fəaliyyətinin təşkil edilməsi, müxtəlif yaş kateqoriyalı insanlarla iş planının işlənib hazırlanması, yaradıcı ziyalılarla oxucu və tamaşaçılar arasında mənəvi körpünün qurulması, cəmiyyətin ideoloji, mənəvi və estetik tərbiyəsinin formalaşdırılması və s. nəzəri və əməli tədbirlər daxildir.

Təbliğat büroları xətti ilə ölkədə yaradıcı ziyalılarla oxucular və tamaşaçılar arasında mütəmadi görüşlər, tədbirlər, dəyirmi stollar, disputlar, diskussiyalar, müzakirələr və s. mühün tədbirlər silsiləsi keçirilmişdir. Bu sırada yeni – yeni əsərlərin yaranması, yaradıcılıq forma və metodlarının işlənib hazırlanması, yaradıcı ziyalıların bədii təxəyyülünün məhsulu olan gözəl sənət nümunələri və əsərlərin müzakirəsinin keçirilməsi, yaradıcılıq axtarışlarının müəyyənləşdirilməsi və s. vasitələr təbliğatın əsas istiqamətlərindən hesab oluna bilər. Eyni zamanda mühazirələrin oxunması, mədəniyyət universitetlərinin işində iştirak, poeziya günləri və həftələrinin mütəmadi olaraq keçirilməsi, mədəni tədbirlərin təşkili və yaradıcı təşkilatların fəaliyyətinə hamiliyin təmin edilməsi, mədəni – maarif müəssisələri ilə

əməli işin təşkili, bədii özfəaliyyətin inkişafına qayğı, sərgilərin nümayişi, musiqi təbliğatı, festivalların təşkilinin mütəmadi xarakter alması, teatr tamaşalarınn təbliği, kino – təbliğat, kinofilmlərin müzakirəsi, nümayişi, ssenarilərin real həyat hadisələrindən götürülməsi və real faktlara söykənməsi, bədii və sənədli film çəkilişi və s. təbliğatın əsas sahələridir. Yalnız 1973 – cü ildə Rəssamlar İttifaqı və Mədəniyyət Nazirliyi birgə 100 sərgi təşkil etmişdir. Lakin eyni zamanda onu da qeyd etmək lazımdır ki, ciddi sosial – mənəvi problemlər, real faktlar, əhəmiyyətli məsələlər, ölkə və xalqın real həyatından irəli gələn epizodları özündə əks etdirən bu ədəbi – bədii əsərlərlə yanaşı, bayağı, cılız, kiməsə xoş gəlsin deyə yazılan və yaradılan, qələmə alınan əsərlərə də rast gəlmək mümkün idi. Bununla yanaşı yaradıcılıq ittifaqlarının fəaliyyətində prinsipal mövqenin nümayiş etdirilməsi, məsuliyyət, tələbkarlıq, istedada qayğı, onların məhv edilməsi və sıradan çıxarılmasına hər vəchlə həm dövlət, həm də vətəndaşlar və yaradıcı təşkilatlar tərəfindən maneçilik göstərilməsi ölkənin yaradıcı ziyalı mühiti qarşısında duran ən mühüm və ümdə vəzifələrdən hesab olunmalıdır. Bu baxımdan bütün ədəbi – bədii əsərlər və müxtəlif sənət nümunələrinin yaradılmasında vicdanlılıq, bəşəriyyət, humanizm, sənət və elm, ölkə qarşısında məsuliyyət kimi xüsusiyyətlər əldə rəhbər tutulmuş və vətəndaş, yaradıcı ziyalı hər zaman bu prizmadan ölkədə cərəyan edən hadisələr, mövcud ictimai – siyasi vəziyyət, ölkənin durumu, gündəlik həyatda qarşılaşdığımız neqativ hallar və çatışmazlıqlara vətəndaş mövqeyindən yanaşaraq hər zaman öz yolu ilə getmiş və öz sözünü deməyə çalışmışdır. Bu baxımdan tarixçi alim, böyük pedaqoq, həmişəyaşar ziyalı, professor Nisbət Mehdiyevanın (Şəkil 1) bu sahədə apardığı geniş tədqiqat işləri, qaldırdığı aktual məsələlər, daim reallıqla səsləşən, haqqın üstünlüyünü müdafiə edən gözəl tədqiqat əsərləri olduqca diqqətəlayiqdir.

Professor Nisbət Mehdiyevanın "Azərbaycan Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" (1990) adlı dərs vəsaiti, "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələri (1960–1980 – ci illər)" (1991) və "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" (2014) adlı 2 monoqrafiyası və s. əsərləri bu baxımdan olduqca diqqətəlayiq olub

Azərbaycan Yaradıcılıq İttifaqlarının fəaliyyətinin öyrənilməsində fundamental tədqiqat əsərləri hesab olunmalıdır.



**Şəkil 1.** Tarix elmləri doktoru, Professor Nisbət Mehdiyeva

Professor Nisbət Mehdiyevanın "Azərbaycan Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı dərs vəsaiti (Şəkil 2) Azərbaycan Yaradıcılıq İttifaqlarının müxtəlif forma və metodlardan istifadə edərək ədəbiyyat və incəsənət əsərlərini geniş şəkildə yaymaq sahəsində gördüyü kütləvi təbliğat fəaliyyətinə həsr olunmuşdur. Yaradıcı ziyalıların bədii mədəniyyətin təbliği sahəsində həyata keçirdikləri tədbirlər, sərgilər, festivallar, teatr və kino əsərlərinin nümayişi və s. mühüm məsələlər ətraflı şəkildə işıqlandırılmışdır.

Professor Nisbət Mehdiyevanın "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələri (1960–1980 – ci illər)" adlı monoqrafiyasında (Şəkil 3) Azərbaycan Yazıçılar İttifaqının respublikada bədii tərcümə, ədəbiyyatın təbliği və ədəbi – mədəni tədbirlər sahəsində əlaqələr sferasında fəaliyyəti və s. mühüm yaradıcılıq aspektləri öz əksini tapmışdır. Monoqrafiyada Bəstəkarlar, Rəssamlar, Kinematoqrafçılar, Teatr Xadimləri İttifaqları və "Azərbaycanfilm"

kinostudiyasının musiqi, rəssamlıq, teatr və kino əsərləri vasitəsilə çoxsahəli əlaqələri ətraflı tədqiq və şərh edilmişdir.

*Н. Ч. МЕҺДИЈЕВА*

**АЗӘРБАЈЧАН ЈАРАДЫЧЫЛЫГ ИТТИФАГЛАРЫНЫН КҮТЛӘВИ ТӘБЛИҒАТ САҺӘСИНДӘ ФӘАЛИЈЈӘТИ**

*(1960—1980-чи илләр)*

**Şəkil 2.** Professor Nisbət Mehdiyevanın "Azərbaycan Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı dərs vəsaiti

Bu əlaqələrin respublika və xarici ölkələrin müvafiq ittifaq və təşkilatları ilə qarşılıqlı surətdə həyata keçirilməsi kimi aspektlər də tədqiqat əsərində vurğulanmışdır. Bununla yanaşı Professor Nisbət Mehdiyeva əsərdə Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələrinin forma və metodlarının təkmilləşdirilməsi, səmərəliliyinin artırılması sahəsində müəyyən təkliflər və yaradıcılıq prosesi dövründə yol verilmiş nöqsanların aradan qaldırılması sahəsində bir sıra tövsiyələr irəli sürmüşdür. Tədqiqatçının bu sahədə gördüyü dəyərli elmi iş və apardığı geniş fəaliyyət real faktlar və əməli fəaliyyətə dayanaraq görkəmli alimin böyük elmi araşdırmalarının məhsulu hesab oluna bilər.




**Şəkil 3.** Professor Nisbət Mehdiyevanın “Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələri (1960–1980 – ci illər)” adlı monoqrafiyası (1991)

Professor Nisbət Mehdiyevanın “Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)” adlı monoqrafiyasında (Şəkil 4) Azərbaycan tarixşünaslığında Yazıçılar İttifaqı, Bəstəkarlar İttifaqı, Rəssamlar İttifaqı, Teatr Xadimləri İttifaqı və Kinematoqrafçılar İttifaqının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti məsələsi öz əksini tapmışdır. Ölkədə yaradıcı ziyalıların ideya – siyasi səviyyəsi, professional sənətkarlığı, ittifaqların yaradıcılıq və təşkilati işləri, bədii mədəniyyətin təbliği sahəsində onların rolu və mədəni əlaqələr sferasında fəaliyyəti problemi müəllif tərəfindən geniş tədqiqata cəlb edilmişdir. Professor Nisbət Mehdiyevanın bu tədqiqat əsəri böyük maraq doğurur. Yaradıcılıq İttifaqlarının fəaliyyəti olduqca rəngarəng olub müxtəlif mədəniyyət məsələlərini özündə əks etdirir, əhəmiyyətli və özünəməxsusdur. Bu yaradıcı təşkilatlar sırf yaradıcılıq, sənət

fəaliyyəti ilə məşğul olaraq xalqın mədəni səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Tədqiqatçı Professor Nisbət Mehdiyeva hər bir məsələnin izahı və araşdırılması prosesində əldə edilmiş nailiyyətlər və qazanılmış müvəffəqiyyətlərə yer ayırmaqla yanaşı, çatışmazlıqlar və yol verilmiş qüsurları da qeyd edərək onların aradan qaldırılması üçün vacib əməli tədbirlər planının işlənib hazırlanmasının zəruriliyini göstərmişdir.




**Şəkil 4.** Professor Nisbət Mehdiyevanın "Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər)" adlı monoqrafiyası (2014)

Respublikada Yaradıcılıq İttifaqlarının mədəni tərbiyə işinin aparılması, təşkili, formalaşdırılması və s. sahələrdə rolu özünəməxsusdur. Yaradıcılıq İttifaqlarının bu fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsində Təbliğ bürosu və klub, Sərgi salonu, Şəkil qalereyası, Bəstəkarlar evi, Kino evi, Aktyor evi və s. – in rolunu xüsusilə qeyd etmək lazımdır. Belə ki, yazıçılar üçün Bədii ədəbiyyatı təbliğ bürosu, rəssamlar üçün Sərgi salonu, Bəstəkarlar İttifaqının nəzdində Musiqi təbliği bürosu yaradılmışdır. 1960 – cı ildə yaradılan Sərgi salonu artıq 1974 – cü ildə Azərbaycan Dövlət Şəkil Qalereyasına çevrilmişdir.

Azərbaycan Kinematoqrafiya İşçiləri İttifaqı nəzdində 1962 – ci ildə kino sənətini təbliğ edən şöbə fəaliyyət göstərməyə başlamışdır. Bu şöbədə mütəmadi olaraq geniş aspektli mühazirələr oxunur, yaradıcılıq görüşləri və müxtəlif tədbirlər keçirilirdi.

Ədəbiyyat və incəsənət əsərlərinin təbliğində Yazıçılar İttifaqının orqanları "Ədəbiyyat və incəsənət" qəzeti, "Azərbaycan", "Ulduz", "Qobustan", "Литературный Азербайджан" jurnalları, o cümlədən respublikanın müxtəlif mətbuat orqanlarının rolu və fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Təsviri incəsənətin təbliğində kütləvi informasiya vasitələri olan televiziya və radiodan da geniş istifadə edilirdi. Televiziyada rəssamların fərdi və ümumi sərgilərinə aid 20 xüsusi veriliş, onlarla qısametrajlı film göstərilmişdir. Rəssamlar İttifaqı nəşriyyat və dövri mətbuat orqanları vasitəsilə də fəal təbliğat aparırdı. Azərbaycan rəssamlarının əsərlərindən ibarət rəngli albomlar, şəkillər, bədii poçt kartoçkası dəsti və s. buraxılırdı. Rəssamlar haqqında əsər və kataloqlar da nəşr edilirdi. Respublikanın bədii həyatı, yaradıcılıq mühitində baş verən yeniliklər və s. qəzet və jurnallarda işıqlandırılırdı.

Kino sənəti televiziya verilişləri vasitəsilə də geniş şəkildə təbliğ olunurdu. Hər ay televiziyada "Yazıçı və ekran" adlı televiziya verilişi təşkil edilirdi. Bu verilişlərdə ədəbi əsərlərin ekranlaşdırılmasının aktual problemləri, ədəbiyyatla kinonun qarşılıqlı əlaqələri, ədəbi əsərlərin ən yaxşı nümunələri, yeni – yeni süjet və ideya axtarışı nəticəsində meydana çıxan sənət əsərlərinin kinoya gətirilməsi və s. məsələlərdən bəhs edilirdi.

Professor Nisbət Mehdiyeva XX əsrin 60–80-ci illərində Azərbaycan Yaradıcılıq İttifaqlarının ədəbiyyat və incəsənət əsərlərinin tərbiyəvi əhəmiyyətinin artırılması sahəsində daim yeni forma axtarışında olduğunu göstərmişdir. Tədqiqatçıya görə, belə formalardan biri musiqi lektoriyalarının fəaliyyəti, əsərlərin müzakirəsi, oxucu və tamaşaçı konfransları, müxtəlif disputların keçirilməsi və s. olmuşdur. Bu tədbirlərin keçirilməsində məqsəd geniş dinləyici, tamaşaçı və oxucu auditoriyası ilə bilavasitə təmasın qurulması, yaradıcılıq diskussiyaları və fikir mübadiləsinin aparılması olmuşdur.

1960 – cı ildə Respublika Rəssamlar İttifaqının üzvləri 85 mühazirə oxumuşlar. Bu mühazirələr müxtəlif idarə və təşkilatlar, hərbi hissələr, sərhəd rayonları, mədəniyyət evləri, zabitlər evi, incəsənət muzeyi və s. yerlərdə

keçirilən tədbirlərdə oxucu, dinləyici və tamaşaçıların diqqətinə çatdırılırdı. Bu tədbirlərdə 6000 adam iştirak etmişdi. 1962 – ci ildə Rəssamlar İttifaqının üzvləri 102 məruzə oxumuşlar. Hər il təşkil olunan mühazirələrin coğrafi xəritəsi olduqca geniş idi.

Respublika Yazıçılar İttifaqının Bədii ədəbiyyatı təbliğ bürosu 1970–1975 – ci illərdə yazıçıların 27 563 görüşünü təşkil etmişdir. Bu görüşlərdə 200 – ə yaxın yazıçı iştirak etmişdir. Bu görüşlərin əksəriyyəti ayrı – ayrı məruzələr, mühazirələr, disputlar, diskussiyalar, yaradıcılıq hesabatları, yeni – yeni yaradıcılıq forma və metodlarının müzakirəsi və təhlili, oxucularla sual – cavablar, dairəvi stollar, müxtəlif müsahibə formalı görüş və tədbirlərin keçirilməsi, yaradıcı fəaliyyətin qiymətləndirilməsi və istiqamətlərin müəyyən edilməsi və s. məsələlərə həsr edilirdi. Tədqiqatçı bu məsələlərə xüsusi diqqət çəkərək onların vacibliyini vurğulamışdır.

Azərbaycan Teatr Cəmiyyəti XX əsrin 70 – ci illərində mühazirə – təbliğat vasitəsindən səmərəli istifadə mövzusunu əldə rəhbər tutaraq respublikanın müxtəlif şəhərlərində təkcə 6 il ərzində teatr sənətinin problemləri ilə bağlı 596 mühazirənin oxunmasını təşkil etmişdir. Bu mühazirələrin mövzuları "Teatrda realizm", "Klassiklərin müasir oxunuşu", "Aktyor Kukla Teatrında" və s. olmuşdur. Belə ki, bu mövzularda oxunan mühazirələr tamaşaçıların teatr sənətinin problemləri, teatrların repertuarları və sənətkarlıq məsələləri ilə tanış edilməsi, XX əsr teatr yaradıcılığında aktyor və səhnə problemi, müasir teatr tamaşaçıların gözü ilə, teatr və realizm aspektləri, teatral baxışın formalaşması, müasir həyatda teatrın yeri, aktyor və tamaşaçı anlayışının qurulması, real həyati fakt və hadisələrin teatrda əks olunması və s. məsələlərin həlli, analizi və real şəkildə səhnələşdirilməsinə yönəlmişdi.

Professor Nisbət Mehdiyeva qeyd edir ki, Azərbaycan Kinematoqrafçılar İttifaqının Təbliğat bürosu kino sənətinin təbliği ilə bağlı demək olar hər il 440 məruzə oxunmasını təşkil edirdi. Tədqiqatçının sözlərinə görə, Respublika Yaradıcılıq İttifaqlarının təşkil etdiyi bu mühazirələr ədəbiyyatşünaslar, teatrşünaslar, sənətşünaslar, musiqişünaslar və kinoşünaslar tərəfindən oxunurdu. Həmçinin Professor Nisbət Mehdiyeva göstərir ki, müvafiq sənətlər üzrə çalışan və ixtisaslaşan sənətşünaslar və tənqidçilər də bu işə cəlb olunurdular.

Təbliğatın bu müxtəlif formaları hər biri özünəməxsus şəkildə fəaliyyət göstərərək əhalinin mədəni – estetik tərbiyəsi və zövqünün formalaşmasında həlledici rol oynayırdı. Sənət əsərlərinin təbliğində yaradıcılıq ittifaqlarının mütəmadi olaraq keçirdiyi poeziya günləri, rəssamlıq günləri, ədəbiyyat və incəsənət həftələri də mühüm rol oynayırdı. Yazıçılar İttifaqının hər il keçirdiyi poeziya günlərində oxunan şeirlər daha sonra ayrıca kitab şəklində çap edilirdi.

Respublika Rəssamlar İttifaqının 1961 – ci il aprelin 1–16 – da keçirdiyi Rəssam günündə 8 sərgi açılmış, 4 məruzə oxunmuş, 10 söhbət təşkil edilmiş və 15 görüş keçirilmişdir. Bununla əlaqədar olaraq, radioda 7, televiziyada 9 veriliş hazırlanmış, efirə verilmiş və qəzetlərdə məqalələr çap edilmişdir. Bu silsilədən Bakı, Sumqayıt, Gəncə şəhərləri və Neft Daşlarında da "Rəssam günü" keçirilmiş, burada peşəkar rəssamlar, sənətşünaslar, tənqidçilər və digər yaradıcı ziyalılar iştirak etmişdir.

## 4.2. Ədəbi – mədəni əlaqələr

Azərbaycan Yaradıcılıq İttifaqları beynəlxalq əlaqələrdə yaxından iştirak edirdi. Tədqiqatçının sözlərinə görə, bu əlaqələrin forma və vasitələri zəngin, əhatə dairəsi geniş, coğrafiyası sərhədsiz, əhəmiyyəti isə böyük idi. Yaradıcılıq İttifaqlarında keçirilən yığıncaqlarda beynəlxalq mədəni əlaqələr, tərcümə problemləri, müzakirələr, disputlar, müsahibələr, yaradıcılıq mühitinin formalaşması və inkişafında beynəlxalq əlaqələrin rolu və yeri, müxtəlif yaradıcılıq məsələləri və problemləri və s. aspektlərə geniş yer verilirdi.

Görkəmli tədqiqatçı qeyd edir ki, Azərbaycan Yaradıcılıq İttifaqlarının müxtəlif ölkələrin ədəbiyyat və incəsənət əsərlərinin nəşri, nümayişi və təbliği ilə məşğul olan müəssisələri və qurumları ilə əlaqələrinin forma və metodları olduqca rəngarəngdir. Tanışlıq, öyrənmə, əlaqə yaratmaq, mübadilə, inkişaf etdirmək və s. forma və metodlar bu təşkilatların fəaliyyətində mühüm yer tuturdu.

Azərbaycan Yaradıcılıq İttifaqlarının beynəlxalq mədəni əlaqələrinin tədqiqi üçün görülən işlər, toplanmış materiallar və faktlar rəngarəng və dəyərlidir. Belə ki, onların yazılması, təhlili və formalaşdırılması olduqca zəruridir. Yaradıcılıq İttifaqlarının beynəlxalq əlaqələri, əsasən,

ədəbi – mədəni əlaqələr və incəsənət sahəsində əməkdaşlıq məsələlərini əhatə edirdi.

Mədəni əlaqələr sahəsində qarşılıqlı təsir və zənginləşmə mühüm məsələlərdən biri olub öz aktuallığı ilə hər zaman seçilir. Qarşılıqlı milli zənginləşmə və mədəni əməkdaşlıq beynəlxalq əlaqələrin qurulması və möhkəmlənməsində mühüm rol oynayır. Xalqların mədəni irsi və onların bu sahədəki tərəqqisi mədəni əlaqələr vasitəsi ilə də təzahür edir.

Azərbaycan Yazıçılar İttifaqının beynəlxalq mədəni əlaqələr sahəsində fəaliyyətində bədii tərcümə və ədəbiyyatın təbliği əsas yer tuturdu. Tədqiqatçı hesab edir ki, məhz buna görə İttifaqın nəzdində tərcümə bölməsi fəaliyyət göstərirdi. Bir sıra əsərlərin Azərbaycan dilinə, Azərbaycan ədəbiyyatı nümunələrinin isə dünyanın müxtəlif dillərinə tərcümə olunaraq nəşr edilməsi, eyni zamanda nəsr, poeziya və dram əsərlərinin tərcüməsinin ədəbi orqanlarda çap edilməsi Yazıçılar İttifaqının qarşısında duran ən vacib məsələlərdən hesab oluna bilərdi. XX əsrin 60–70 – ci illərində 100 – dən artıq Azərbaycan sənətkarının əsəri, ümumilikdə, təxminən 500 adda kitab müxtəlif xalqların dillərinə tərcümə olunmuşdur.

Azərbaycan Yazıçılar İttifaqının ədəbi – mədəni əlaqələri Polşa, Bolqarıstan, Macarıstan, İtaliya, İspaniya, İngiltərə, Fransa, ABŞ, Monqolustan, Vyetnam, Əfqanıstan, İran, İraq və dünyanın digər ölkələri ilə əməkdaşlığı özündə təcəssüm etdirirdi.

Professor Nisbət Mehdiyeva öz tədqiqatlarında göstərir ki, bu dövrdə Azərbaycan – Avropa ədəbi əlaqələri böyük miqyas almışdı. Azərbaycan Elmlər Akademiyasının əlaqədar institutları və ali məktəblərin müvafiq kafedraları bu əlaqələri tədqiq edərək yayır və ayrıca məcmuələr çap olunurdu.

XX əsrin 70–80 – ci illərində "Gənclik" nəşriyyatı dünya ədəbiyyatı xəzinəsindən ən qiymətli incilər – unikal əsərləri 50 cild həcmində nəfis tərtibatda çap etməyə başlamışdır. Bu əsərlərin əksəriyyətinin Azərbaycan oxucusuna məlum olmasına baxmayaraq, bu seriyada onların küll halda, bir sistem kimi çap olunması ilk dəfə olmuşdur. Dünya ədəbiyyatı xəzinəsindən incilər 1990 – cı ilədək mütəmadi şəkildə nəşr edilmişdir.

XX əsrin 70 – ci illərində Bolqarıstan, Çexoslovakiya, Macarıstan, Polşa və Danimarkada Azərbaycan mədəniyyəti günləri, Azərbaycanda isə bu ölkələrin mədəniyyət günləri keçirilmişdir.

Professor Nisbət Mehdiyeva qeyd edir ki, mədəni əlaqələrin inkişafında tərcümə ədəbiyyatı, kitab nəşri və kitab təbliği ilə yanaşı, kitab aylığı və kitab yarmarkalarının keçirilməsi sahəsində aparılan qarşılıqlı mübadilələrin böyük əhəmiyyəti var idi. 1975 – ci ildə Azərbaycan Respublikası "Azərbaycan – beynəlxalq kitab sərgisində" devizi altında Beynəlxalq kitab sərgi – yarmarkasında iştirak etmişdir. 1977 – ci ildə keçirilən Beynəlxalq kitab sərgi – yarmarkasında müxtəlif xarici ölkə nəşriyyatları, kitab ticarəti firmaları, nəşriyyat avadanlıqları və çap işi üzrə ixtisaslaşan müəssisələr, əlaqədar təşkilatlar və s. iştirak etmişdir. XX əsrin 80 – ci illərində Bakı şəhərində Almaniyanın "Buxexport" Xarici Ticarət Birliyi topdansatış kitab yarmarkası keçirmişdir.

1986 – cı ildə Azərbaycan yazıçılarının VIII qurultayında yaradıcılıq ittifaqları və təşkilatları, mədəniyyət ocaqlarının fəaliyyət metodlarının yenilənməsi, onların fəaliyyətinin məzmununun zənginləşdirilməsi, yazılan, tərcümə edilən və başqa xalqların dillərində səslənəcək bütün əsərlərin dövrün tələblərinə cavab verməsi, tərcümə işinin təşkili, nəşri, yayılması və təbliği kimi məsələlər ümdə xarakter daşımış və tədqiqatçının əsərlərində ətraflı araşdırılaraq dövrün ictimai – siyasi analizi prizmasından məsələyə münasibət bildirilmişdir.

## 4.3. İncəsənət sahəsində əməkdaşlıq

Hər bir xalqın tükənməz sərvətini onun dili və tarixi ilə yanaşı, musiqisi də təşkil edir. Əsrlərdən süzülüb gələn Azərbaycan musiqisinə qayğı göstərərək, onu inkişaf etdirmək, müasirləşdirmək, təbliğ etmək və yaymaq Azərbaycan Bəstəkarlar İttifaqının qarşısında duran ən mühüm məsələlərdir. Musiqi əsərlərinin geniş miqyasda yayılması və təbliğində incəsənət bayramı, mahnı və rəqs bayramı, məhsul bayramı, val və disklərin buraxılması, incəsənət işçilərinin çıxışları, festivallar və s. forma və üsullardan istifadə edilirdi. Azərbaycan bəstəkar və müsiqişünaslarının mahnı təbliği sahəsində fəaliyyəti tədqiqatçıya görə geniş tamaşaçı və dinləyici auditoriyasına hesablanırdı.

Bu baxımdan 1961 – ci ildə Respublika stadionunda keçirilən “İncəsənət bayramı”nı misal göstərmək olar. Bu tədbirdə 60 mindən artıq tamaşaçı iştirak etmişdir.

Maarif, mədəniyyət ocaqları və elmi mərkəzlərlə yanaşı, yaradıcılıq ittifaqları da əhalinin bədii – estetik zövqünün formalaşması, onun mənəvi – əxlaqi dəyərlərinin durmadan zənginləşməsi, insanların ahəngdar inkişaf etmiş şəxsiyyət kimi püxtələşməsi üçün onlara gözəllik hislərinin aşılanması, incəsənət əsərləri, tarixi – memarlıq abidələrinin təkrarsız gözəlliyinin dərk edilməsi və qiymətləndirilməsi sahələrində fəal iştirak edir. Tədqiqatçı qeyd edir ki, XX əsrin 60 – cı illərində Azərbaycan bəstəkarlarının vala köçürülmüş əsərləri geniş təbliğ edilir və onların satışı təmin olunurdu. 1965 – ci ildə Bakı şəhərində açılmış yeni musiqi əsərləri satılan mağazada musiqisevərlər bəstəkarların əsərlərinin partiturasını əldə edirdilər. Ölkədə musiqi təbliğatı sahəsində radio və televiziya verilişlərinin imkanlarından istifadə edilirdi. Yaradıcılıq İttifaqlarının incəsənət əsərlərinin təbliği sahəsində iştirak və təşkil etdiyi tədbirlərdən biri də festivallar idi.

Tədqiqatçı bu baxımdan musiqi festivalları, kino festivalları, teatr və dramaturgiya festivalları, özfəaliyyət yaradıcılığı festivalları və s. tədbirləri qeyd etmişdir. 1974 – cü ildə Respublika mahnı festivalı keçirilmişdir. 1976 – cı ildə keçirilən incəsənət festivalında Qərbi Avropa, Azərbaycan və digər respublikaların bəstəkarlarının əsərləri ifa edilmişdir. Azərbaycan bəstəkarları və musiqişünasları 1971 – ci ildə VII Beynəlxalq musiqi konqresi, 1973 – cü ildə Asiya və Afrika ölkələrinin III Beynəlxalq musiqi tribunası, 1978 – ci ildə muğam sənətinə həsr olunmuş Beynəlxalq musiqi simpoziumunda fəal iştirak etmiş və musiqi təbliği sahəsində əhəmiyyətli fəaliyyət göstərmişlər.

Kino əsərlərinin festivalları öz əhatə dairəsi və təsir gücünə görə olduqca mühüm idi. Professor Nisbət Mehdiyeva bu sahəni öz elmi yaradıcılığında geniş şəkildə tədqiq etmişdir. 1960 – cı ildə Azərbaycanda “Elm və texnikanın nailiyyətləri istehsalata” adlı elmi – texniki filmlər festivalı keçirilmişdir. Festival günlərində kinoteatrlarda stendlər, sərgilər, foto – vitrinlər təşkil olunmuş, 896 mühazirə oxunmuş, 1632 seans nümayiş olunmuş, burada elm və texnikanın nailiyyətlərinə həsr edilmiş sənədli filmlər göstərilmişdir.

1986 – cı ildə Bakı şəhərində VII Televiziya gənclər proqram və filmləri festivalında 70 kinostudiyadan 150 nəfər nümayəndə iştirak etmişdir.

Tədqiqatçı hesab edir ki, teatr sənətinin təbliği sahəsində də müəyyən işlər görülmüşdür. Azərbaycan teatrının fəaliyyətində mədəni əlaqələr sistem şəklində inkişaf etmişdir. XX əsrin 60–80-ci illərində aktyor və rejissor, dramaturq kadrların fəaliyyətinin düzgün nizamlanmasında çatışmazlıqlar, kinonun inkişafı, televiziya verilişlərinin kütləvi hal alması və s. amillər teatrın inkişafında müəyyən durğunluğun yaranmasına səbəb olmuşdur.

Azərbaycan teatrının mədəni əlaqələri – görüşlər, yaradıcılıq əlaqələri, qastrollar, aylıqlar, dekadalar, günlər, festivallar və s. mədəni tədbirlər vasitəsilə həyata keçirilirdi. Belə tədbirlərin həyata keçirilməsi üçün təşkilati tədbirlər, canlı əlaqələr və müxtəlif köməkçi vasitələrdən istifadə edilirdi. 1979 – cu ildə Azərbaycanda keçirilən dramaturgiya və teatr sənəti festivalında müxtəlif teatrlar, sənət xadimləri, yazıçılar, yazıçı – tərcüməçilər, dramaturqlar və b. iştirak etmişlər. Eyni zamanda tədqiqatçı Azərbaycanda başqa respublikaların teatr günləri, dekadaları və festivallarının keçirildiyini qeyd edir. 1972 – ci ildə Bakı şəhərində Respublika Teatr Cəmiyyətinin təşkilatçılığı ilə müxtəlif respublikaların teatr günləri keçirilmişdir.

Azərbaycan Teatr Cəmiyyəti və respublika teatrlarının yaradıcılıq görüşləri, mübadilələri və qastrol səfərləri olduqca rəngarəng idi. 1980 – ci ildə Bakı şəhərində keçirilən "Yaradıcı gənclər teatrı həftəsi"ndə müxtəlif dramaturqların əsərlərinə qoyulmuş tamaşalarla yanaşı, müzakirə və disputlar da aparılmışdır.

Azərbaycan səhnəsində müxtəlif ölkələrdən olan müəlliflərin əsərlərinin göstərilməsi, o cümlədən bu xalqların teatr səhnələrində respublika dramaturqlarının müxtəlif əsərlərinin səhnələşdirilməsi xalqlar arasında mədəni əlaqələrin güclənməsi və teatr sahəsində təbliğatın aparılmasına bariz sübutdur. Azərbaycan teatr kollektivləri 1968 – ci ildə bolqar və macar dramaturgiya festivallarında fəal iştirak etmişdir. 1965 – ci ildə Bakı şəhərində keçirilən Çexoslovakiya mədəniyyəti dekadasında iştirak edən artistlər Azərbaycan Dövlət Opera və Balet teatrının "Toska" və "Məhəbbət əfsanəsi" ilə səhnəyə çıxmışılar. Bu tamaşaları ölkələr arasında mədəni əlaqələrdə əsas vasitə hesab etmək mümkündür. 1979 – cu ildə respublika incəsənət ustaları

və bədii kollektivləri Hollandiya, Almaniya Federativ Respublikası, İtaliya və İsveçrədə incəsənətin təbliği sahəsində mühüm rol oynamışdır.

İncəsənət əsərlərinin təbliğində bədii özfəaliyyət və gənclərin respublika festivalları da müəyyən rol oynayırdı. 1970 – ci ildə keçirilən bədii özfəaliyyət sənəti festivalı bu baxımdan diqqətəlayiqdir. 1986 – cı ildə II Respublika xalq yaradıcılığı festivalında baxışlar, müsabiqələr və sərgilər keçirilmişdir. Burada ilk dəfə olaraq xalq yaradıcılığı festivalında dram kollektivlərinin çıxışlarına baxış keçirilmişdir. Peşəkar rejissor, aktyor və teatrşünaslar 100 – dən çox kollektiv – 48 xalq teatrı, 35 dram dərnəyi və 20 təbliğat briqadasının çıxışlarına baxmışlar. Professor Nisbət Mehdiyeva haqlı olaraq göstərir ki, teatr təbliğatı kompleks yaradıcılıq sahəsidir. Burada yaradıcılıq təşkilatları, teatr kollektivləri, dramaturqlar və teatr tənqidçiləri həlledici rol oynayır.

Rəssamlıq əsərləri, əsasən, sərgilər, baxışlar vasitəsilə yayılır və təbliğ edilir. Azərbaycan Rəssamlar İttifaqı fərdi sərgilər – yaradıcılıq və hesabat sərgilərinin təbliğinə xüsusi diqqət yetirirdi. Təsviri sənət əsərlərinin təbliğində sənətşünas alimlər də yaxından iştirak edirdilər. Bir tərəfdən rəssamların əsərləri sərgilər vasitəsilə əhali arasında təbliğ olunurdusa, digər tərəfdən onların təsvir və analizinə həsr olunmuş sənətşünaslıq əsərlərinin sənətsevərlərə təqdim edilməsi məhz bu əsərlərin təbliğini təmin edirdi.

1960 – cı ildə Azərbaycan Rəssamlar İttifaqı şəhərlərdə 14 rəsm günü keçirmiş, incəsənət həftəsində 4 sərgi göstərmiş, bu sərgilərə 90 min tamaşaçı baxmışdır. 1961 – ci ildə respublika bədii sərgisində 120 müəllifin 200 – dən artıq təsviri sənət, qrafika və heykəltəraşlıq əsəri nümayiş etdirilmişdir. 1962 – ci ildə respublikada açılmış 97 sərgidə 272 780 tamaşaçı nümayiş etdirilən rəsm əsərlərinə baxmışdır. Bu sərgilər öz rəngarəngliyi ilə seçilmişdir. 1966–1970 – ci illərdə respublikada 200 – ə yaxın səyyar sərgi təşkil edilmişdir.

Professor Nisbət Mehdiyeva öz tədqiqatlarında qeyd edir ki, sərgi yaradıcılığı əyanilik, dinamiklik, müasirlik, aktuallıq tələb edən və zamanın tələblərinə cavab verən sahədir. Sərgilər insanların estetik tərbiyəsinin ən fəal növlərindən biri hesab olunurdu. Rəssamlar İttifaqının təşkil etdiyi rəsm əsərlərinin sərgiləri ilə yanaşı, heykəltəraşlıq nümunələrinə baxış, aqitplakat – təbliğat plakatlarının çəkilməsi, tərtibatı və yayılması incəsənət əsərlərinin

təbliğinin mühüm vasitələri hesab oluna bilərdi. Rəssamlar İttifaqı aqitplakat emalatxanasının işini daim təkmilləşdirərək onun inkişafı və təbliğinə xüsusi diqqət yetirirdi. Respublikada təşkil olunan aqitplakat sərgilərində müxtəliflik, çoxcəhətlik, süjet rəngarəngliyi, fərqli və özünəməxsus təsirli vasitələr xüsusilə diqqətəlayiqdir.

Azərbaycan Rəssamlar İttifaqının beynəlxalq əlaqələri sərgi və mövzu mübadilələri, şəxsi əlaqələrin qurulması, ittifaqın tədbirlərində müxtəlif respublikaların rəssamlar ittifaqları nümayəndələrinin iştirakı və s. formalarda təzahür edirdi. XX əsrin 70 – ci illərində Azərbaycan rəssamlarının əsərləri müxtəlif respublikalarda, başqa xalqların incəsənət nümunələrindən ibarət sərgilər isə respublikada dəfələrlə nümayiş etdirilmişdir.

Azərbaycan rəssamlarının xarici ölkələrin fırça ustaları ilə sıx yaradıcılıq əlaqələri olmuşdur. 1963 – cü ildə Bolqarıstanda Azərbaycan rəssamlarının əsərlərindən ibarət "Bizim müasirimiz" adlı sərgi, 1964 – cü ildə Polşa və Çexoslovakiyada sərgilər, 1965 – ci ildə Praqa şəhərində ölkə rəssamlarının iki sərgisi nümayiş etdirilmişdir. 1965 – ci ildə Lyublyana şəhərində VI Beynəlxalq qrafika sərgisində dünyanın 42 ölkəsindən 400 rəssam və keçmiş Sovet İttifaqından 10 qrafika ustası iştirak etmişdir. Lyublyana sərgisində Azərbaycanı rəssam Ə.Rzaquliyev qravyür əsərləri ilə təmsil etmişdir. 1968–1970 – ci illərdə Almaniya Demokratik Respublikasında 4 dəfə, Polşada 2 dəfə, Macarıstan, Bolqarıstan və Rumıniyada sərgilər nümayiş etdirilmişdir. XX əsrin 70 – ci illərində Polşada Azərbaycan rəssamlarının müstəqil sərgisi, Almaniya Demokratik Respublikasında Leypsiq yarmarkasında ölkə rəssamlarının iştirakı, Çexoslovakiyada respublika rəssamlarının əsərlərinin nümayişi, Polşada 2 rəssamımızın fərdi sərgiləri, müxtəlif tədbir və sərgilərdə iştirakı təmin edilmişdir. Respublika rəssamlarının belə beynəlxalq sərgilərdə iştirakı təsviri sənətin bütün forma və janrlarının yayılması, təbliği və inkişafında böyük rol oynamışdır. Çexoslovakiya rəssamlarının iştirakı ilə hazırlanmış "Dostluq palitrası" sərgisi Bakı şəhərində nümayiş etdirilmişdir. Azərbaycan rəssamları yaradıcılıq ezamiyyətlərinə gedərək yeni – yeni rəsm əsərləri çəkir və bu ölkələrin təbliği ilə məşğul olaraq tamaşaçıları həmin ölkələr və onların incəsənəti ilə tanış edirdilər. 1959–1960 – cı illərdə respublika rəssamları Çexoslovakiya, Polşa, Rumıniya və Bolqarıstana ezam olunmuşlar. Qarşılıqlı

sərgi mübadilələri sonrakı illərdə də davam etmişdir. Tədqiqatçı alim professor Nisbət Mehdiyeva göstərir ki, 1971–1975 – ci illərdə Bakı şəhərində Çexoslovakiya, Almaniya Demokratik Respublikası, Polşa, Rumıniya və s. ölkələrin incəsənət əsərlərinin sərgiləri keçirilmişdir.

Yaradıcı ziyalıların beynəlxalq əlaqələri mədəniyyətin inkişafı və zənginləşməsində mühüm rol oynamışdır. Bu sahədə görkəmli tədqiqatçı professor Nisbət Mehdiyevanın elmi tədqiqatlarının əhəmiyyəti danılmazdır.

# NƏTİCƏ

Tarix hər zaman öz qəhrəman övladları ilə fəxr edir. Belə şəxslər öz yüksək əxlaqi – mənəvi dəyərləri, istedadı, bacarıq və qabiliyyəti, ağlagəlməz dərəcədə böyük zəhməti, təhsil və elmin inkişafı yolunda yorulmaq bilmədən çalışması, ölkənin bütün dünyada layiq olduğu dürüstlüklə tanınması, öz yüksək şəxsi keyfiyyətləri və s. üstün cəhətləri ilə daim öndə olmuş və xüsusilə fərqlənmişlər. Zaman keçdikcə bu insanlar şəxsiyyət kimi formalaşmış, tarixdə və çalışdıqları, fəaliyyət göstərdikləri sahələrdə sonsuz həvəs, optimizm, ruh yüksəkliyi, öz işinə sədaqət və etibarlılıq kimi dəyərli xüsusiyyətlər nümayiş etdirmişlər.

Böyük istedadı, yüksək alimlik duyumu və dühası, şüuru və dərrakəsi, bacarıq və qabiliyyəti, geniş dünyagörüşü, zəngin elmi və pedaqoji təcrübəsi, sonsuz öyrənmək və öyrətmək istəyi, həyata, insanlara və ölkəsinə tükənməz məhəbbəti, mübarizliyi, yaşamaq və işləmək həvəsi, üzləşdiyi bütün çətinlikləri və maneələri igidliklə aşması, zəngin pedaqoji və elmi irsi və s. üstün keyfiyyətlərinə görə tarix elmləri doktoru, professor Nisbət Mehdiyeva böyük alim, ziyalı və işıqlı insan, əvəzolunmaz şəxsiyyətdir. Professor Nisbət Mehdiyevanın Azərbaycan tarix elminin inkişafında oynadığı nəhəng rol danılmazdır.

Mədəni inkişafında böyük və olduqca mürəkkəb mərhələ keçmiş Azərbaycan zaman keçdikcə öz maddi və mənəvi sərvətlərini qoruyub saxlamaqla yanaşı, onları inkişaf etdirmiş, zənginləşdirmiş, yaradıcılıq istiqamətləri və spektrlarını rəngarəng və mürəkkəb elementlərlə çulğalaşdıraraq yenilikçi, mütərəqqi, mübariz, saf, dürüst və yüksək ideallara sadiq yeni mədəniyyət anlamı formalaşdırmışdır. Mədəniyyət həm də cəmiyyətin inkişafı ilə bağlı olub, aid olduğu dövrün bütün təzahürləri, obyektiv və subyektiv şərtləri, xarakterik xüsusiyyətləri, real və aktual aspektlərini özündə birləşdirərək onların real və dürüst təcəssümünə çevrilir. Dövlətin qayğısı və xalqın böyük sevgisi sayəsində mədəniyyətin müxtəlif sferaları ümumi məcmu formadan hər biri müstəqil şəkildə fəaliyyət göstərən, getdikcə inkişaf edən, təkmilləşən,

zənginləşən, durmadan dəyişən və eyni zamanda sənətin bütün qanunauyğunluqlarına sadiq qalan fəaliyyət sahələrinə çevrilmişdir.

XX əsrin 60–80-ci illərində respublikada mədəniyyət sahəsində əldə edilmiş

nailiyyətlər həm də bu dövrdə artıq öz sözünü deməyə çalışan, var qüvvəsini mədəniyyətin inkişafına yönəldən və bacarıqlı yaradıcı ziyalıları öz sıralarında birləşdirən yaradıcılıq ittifaqlarının apardığı səmərəli və yaradıcı fəaliyyətlə birbaşa bağlı idi. Mədəniyyətin bütün komponentləri yaradıcılıq ittifaqlarının fəaliyyətində öz əksini tapırdı.

Mədəniyyət hər xalqın ayrılmaz tərkib hissəsidir. Mədəniyyəti inkişaf etməyən xalq özünü dərk edə bilməz və digər xalqlar arasında öz layiqli yerini tuta bilməz. Mədəniyyət yaradıcılıq deməkdir. Yaradıcılıq isə yaradıcı ziyalıların fəaliyyətində təzahür edir. Yaradıcı ziyalılar mədəniyyəti inkişaf etdirən, zənginləşdirən, yeni – yeni mükəmməl sənət nümunələri, ədəbiyyat və incəsənət əsərləri yaradan, təbliğ edən, yeni yaradıcılıq axtarışında olan, yeni fikir və ideyaları sənətə gətirən novatorçu, mütərəqqi dünyagörüşlü, yetkin və yaradıcı şəxslərdir. Yaradıcı ziyalılar öz bacarıq və istedadları, sonsuz yazıb yaratmaq həvəsi, geniş dünyagörüşü, mütərəqqi fikir və ideyaları, ziyalı mövqeyi, hadisələri yalnız dürüst və realist prizmadan təsvir etmək bacarığı, yaradıcı şəxsin bütün bədii təxəyyülünə baxmayaraq eyni zamanda real hadisə və faktları sənətə gətirmək bacarığı və s. üstün keyfiyyətləri ilə seçilərək özlərini bir ziyalı kimi yetişdirir, inkişaf etdirir və özləri inkişaf etdikcə mədəniyyəti də inkişaf etdirir, təkmilləşdirir və müasirləşdirirdilər. Yaradıcı ziyalılar mədəniyyətin müxtəlif sahələrində çalışaraq gözəl dram əsərləri yaradır, füsunkar aktyor ifası nümayiş etdirir, maraqlı əsərlər səhnələşdirir və teatr tamaşalarına quruluş verir, zəngin süjetli kinofilmlər çəkir və mədəniyyətin qarşısında duran ən çətin problemləri sənətə gətirərək onların həlli yollarını axtarırdılar. Onlar realizm ideyalarını rəhbər tutaraq bu mövzuları bir qədər sənətkar təxəyyülü ilə zənginləşdirir və bunları birləşdirərək gözəl əsərlər, tablolar, rəsm əsərləri, heykəltəraşlıq nümunələri, gözəl tamaşalar, maraqlı kinofilmlər, fundamental musiqi əsərləri və s. ədəbiyyat və incəsənət şedevrləri yaradırdılar. Hər bir əsər konkret mövzu, vahid süjet xətti, obrazların vəhdəti, yazıçı və ya sənətkarın nəzərdə tutduğu və təsvir etmək istədiyi

hadisənin məcmusudur. Bu vəhdət obrazları əlaqələndirir, elementləri birgə təcəssüm etdirir, hər bir epizodu hadisə və ya problemin ümumi mahiyyəti ilə çulğalaşdırır. Yaradıcı ziyalılar isə bu vəhdəti istedad və bacarıqla ifadə edərək misilsiz sənət nümunələri yaradırdılar. Mədəniyyət öz inkişafına görə bu yaradıcı ziyalıların böyük zəhməti, sonsuz istedadı, bacarıq və qabiliyyəti, yaradıcılıq sənətkarlığına borcludur.

XX əsrin 60–80-ci illərində Azərbaycanın yaradıcı ziyalıları öz elmi və bədii fəaliyyəti ilə böyük işlər görərək mədəniyyətin aktual problemlərinin həlli və araşdırılmasında iştirak etmişlər. Yaradıcı ziyalıların Azərbaycan mədəniyyətinin inkişafında rolu olduqca fərqli olub bu dövrdə xüsusi fəallığı və aktuallığı ilə seçilmişdir. Onlar müxtəlif yaradıcılıq ittifaqlarında təmsil olunaraq fərdi, unikal, spesifik, düşündürücü və olduqca dəyərli sənət əsərləri yaradırdılar. Yaradıcı ziyalıların bu dövrdə apardıqları geniş fəaliyyət, yaradıcılıq ittifaqlarının mədəniyyətin inkişafı sahəsində rolu və s. tədqiqatçı alimlər tərəfindən araşdırılaraq onların elmi qiyməti verilir, dəqiq elmi analizi aparılır və tədqiqat əsərləri yazılırdı.

Azərbaycan mədəniyyəti öz yaradıcı ziyalıları ilə fəxr edir. Onlar çox qısa zaman fasiləsində olduqca böyük iş görmüş və mədəniyyətin hər bir sahəsini ayrı – ayrılıqda inkişaf etdirməyə nail olmuşlar. Mədəniyyət də dəmir kimidir, işləndikcə, oxunduqca, yazıldıqca, ifa edildikcə, dərk edildikcə inkişaf edir, mükəmməlləşir, mütərəqqi fikir və ideyaları özündə təcəssüm etdirir və daim incə zövqləri oxşayır. Bu baxımdan XX əsrin 60–80-ci illərində yaradıcı ziyalıların Azərbaycan mədəniyyətinin inkişafı sahəsində rolu danılmazdır və ən layiqli yerlərdən birini tutur.

Görkəmli tədqiqatçı alim, tarixçi, tarix elmləri doktoru, professor Nisbət Mehdiyeva respublikada mədəniyyət problemləri, Azərbaycan Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti, mədəni əlaqələri, onların inkişafı və möhkəmlənməsi, mədəniyyətin inkişafı sahəsində gördüyü iş və geniş fəaliyyət dairəsinə görə XX əsrin 60–80-ci illər dövrünü əhatə edərək mədəniyyətin qarşısında duran aktual xarakterli problemlərin tədqiqata cəlb edilməsi, onlara fundamental elmi əsərlər həsr edilməsi və yazılmasında nəhəng əməyi olan dəyərli araşdırmaçıdır. Mədəniyyətin hər bir sferası və bu sahələrin üzləşdiyi maneə və çətinlikləri, əldə olunan nailiyyət və uğurları

addım – addım araşdıran bu istedadlı tədqiqatçı, bu sahənin mahir bilicisi və mütəxəssisi professor Nisbət Mehdiyeva olduqca dəqiq və ətraflı tədqiqatlar və elmi axtarışlar aparmış, külli miqdarda mənbəyə müraciət edərək dəqiq faktlar qaldırmışdır.

Mədəniyyət cəmiyyətin mənəvi inkişafında mühüm rol oynayır. Mədəniyyətin bütün sferalarının təbliği olduqca əhəmiyyətli olub şəxsiyyətin bir fərd, müstəqil kadr kimi formalaşmasında ən güclü təsir vasitəsi hesab edilə bilər. Bu baxımdan Professor Nisbət Mehdiyevanın mədəniyyətin aktual problemləri və Azərbaycan mədəniyyətinin XX əsrin 60–80-ci illər dövrünə həsr olunmuş elmi tədqiqatları olduqca dəyərli mənbə və nəhəng fundamental əsərlərdir. Gənc və həmişəyaşar professor Nisbət Mehdiyevanın bu əsərləri də onun özü kimi həmişə gənc və həmişə yaşar olub Azərbaycan mədəniyyətinin inkişafında xüsusi rol oynamışdır. Bu elmi axtarışların təsiri, rolu və əhəmiyyəti danılmazdır.

# İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. Azərbaycan kinematoqrafçılarının üçüncü qurultayı. Bakı: 1975.
2. Azərbaycan Mədəniyyət Nazirliyinin arxivi, f. 13, siy. 1, iş 348, v. 295–297; siy. 7, iş 348, v. 172; iş 352, v. 28.
3. Azərbaycan Milli Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, f. 254, siy. 2, iş 122, v. 41; iş 132, v. 26; iş 151, v. 175; iş 158, v. 65; iş 159, v. 19–22; f. 330, siy. 10, iş 58, v. 40; f. 344, siy. 3, iş 227, v. 53; iş 261, v. 67–69; iş 262, v. 6, 80; iş 270, v. 104; iş 272, v. 17, 58, 59; iş 282, v. 31, 159; f. 444, siy. 1, iş 8, v. 9; iş 49, v. 14; iş 50, v. 1, 3; iş 116, v. 9; iş 188, v. 66; iş 212, v. 89; f. 486, siy. 1, iş 161, v. 92; iş 162, v. 1, 2; iş 165, v. 80–81, 102–103; iş 187, v. 37, 39; iş 189, v. 9–10; iş 213, v. 16, 18; f. 501, siy. 1, iş 101, v. 6, 7, 8; iş 145, v. 9, 15; iş 283, v. 265; iş 120, v. 47–48; siy. 2, iş 288, v. 85, 88–90; siy. 4, iş 140, v. 32; siy. 6, iş 195, v. 80; siy. 7, iş 147, v. 127; iş 262, v. 36.
4. Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin V və VI qurultaylar arasında görülən yaradıcılıq – təşkilat işləri haqqında hesabat. Bakı: 1976.
5. MLİ Azərbaycan filialının partiya arxivi, f. 1, siy. 397, iş 52, v. 23.
6. Mehdiyeva N. Azərbaycan rəssamlarının mədəni əlaqələri (1960–1980 – ci illər). Mədəni – maarif, 1991, № 2.
7. Mehdiyeva N. Azərbaycan Yaradıcılıq İttifaqlarının kütləvi təbliğat sahəsində fəaliyyəti (1960–1980 – ci illər). Bakı: Bakı Universiteti Nəşriyyatı, 1990.
8. Mehdiyeva N. Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəni əlaqələri (1960–1980 – ci illər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991.
9. Mehdiyeva N. Yaradıcılıq İttifaqlarının mədəni – maarif sahəsində fəaliyyəti (1960–1980 – ci illər). Azərbaycan SSR – də mədəni – maarif işi. Elmi əsərlərin tematik məcmuəsi. Bakı: ADU, 1989.
10. Mehdiyeva N. Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafında rolu. İxtisas kursunun proqramı. Bakı: BDU, 1990.

11. Mehdiyeva N. Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər). Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 1991.
12. Mehdiyeva N. Azərbaycan Yaradıcılıq İttifaqlarının mədəniyyətin inkişafı sahəsində fəaliyyəti (1960–1980 – ci illər). Bakı: Mütərcim, 2014.
13. Mehdiyeva Nisbət // XX əsr Azərbaycan yazıçıları. Ensiklopedik məlumat kitabı (Təkmilləşdirilmiş üçüncü nəşr). Bakı: "Nurlar" Nəşriyyat – Poliqrafiya Mərkəzi, 2004.
14. Mehdiyeva N. Yaradıcı ziyalıdan çox şey asılıdır. Azərbaycan təbiəti, 1987, № 2.
15. Rəhimova (Mehdiyeva) N. Azərbaycan Həmkarlar İttifaqlarının partiyanın rəhbərliyi altında neft sənayesinin bərpası uğrunda mübarizəsi (1921–1925 – ci illər). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 1968.

**İngilis dilində**

16. Mehdiyeva, A. The activity of the Azerbaijan Creative Unions in the field of propaganda in the 60–80s of the XXcentury in the scientific work of Professor Nisbet Mehdiyeva // Sciences of Europe (Praha, Czech Republic). No 180 (2025). The journal is registered and published in Czech Republic, pp. 19–26.
17. Mehdiyeva, A. The prominent scientist who played the invaluable role in the development of historical science in Azerbaijan // Sciences of Europe (Praha, Czech Republic). No 173 (2025). The journal is registered and published in Czech Republic. ISSN 3162-2364, pp. 36–41.
18. Mehdiyeva, A. The role of creative intellectuals in the development of Azerbaijan culture (1960–1980s) // NJD-iScience. Norwegian Journal of development of the International Science. № 174/2026, pp. 18–26.
19. Mehdiyeva, A. The scientific investigations of the outstanding researcher scholar Professor Nisbet Mehdiyeva in the field of culture (60–80s of the XXcentury) // Sciences of Europe (Praha, Czech Republic). No 186 (2026). The journal is registered and published in Czech Republic, pp. 32–43.

**Rus dilində**

20. Абасова Э. Музыкальное искусство // Расцвет Азербайджанского советского искусства. Баку: Элм, 1986, с. 65–81.
21. Аббасова Э. Высокое искусство музыки // Культура советского Азербайджана. Баку: Азернешр, 1980, с. 44–61.
22. Алиев А. Кино вчера и сегодня // Культура Советского Азербайджана. Баку: Азернешр, 1980, с. 96–104.
23. Алиева А. Киноискусство // Расцвет Азербайджанского советского искусства. Баку: Элм, 1986, с. 105–125.
24. Алиева А. Театр и его мастера // Культура Советского Азербайджана. Баку: Азернешр, 1980, с. 62–76.
25. Алиева А. Театральное искусство // Расцвет Азербайджанского советского искусства. Баку: Элм, 1986, с. 92–104.
26. Асадуллаев С. В русле социалистического реализма // Культура Советского Азербайджана. Баку: Азернешр, 1980, с. 25–43.
27. Габибов Г. Изобразительное искусство // Расцвет Азербайджанского советского искусства. Баку: Элм, 1986, с. 28–43.
28. Наджафов М. От наскальных рисунков до международных выставок // Культура Советского Азербайджана. Баку: Азернешр, 1980, с. 77–95.
29. Союз кинематографистов Азербайджана. От съезда к съезду (1976–1980 гг.). Баку: 1981.
30. Союз композиторов Азербайджана. Справочник. Декабрь 1973 – июнь 1979 гг. Баку: 1979.
31. Союз композиторов Азербайджана 1934–1994 гг. Баку: 2014.
32. Усейнов М. Вступительная статья // Расцвет Азербайджанского советского искусства. Баку: Элм, 1986, с. 3–10.

# CONTENTS

FROM THE EDITOR ........................................9

FROM THE AUTHOR........................................12

INTRODUCTION ........................................15

Chapter I. THE ACTIVITY OF THE TIRELESS FIGHTER AND PROMINENT HISTORIAN SCIENTIST PROFESSOR NISBET MEHDIYEVA......24

1.1. Scientific activity................................. 24

1.2. Labor activity.................................... 31

Chapter II. THE SCIENTIFIC INVESTIGATIONS OF THE OUTSTANDING SCHOLAR PROFESSOR NISBET MEHDIYEVA IN THE FIELD OF CULTURE (60–80s of the XXcentury) .......33

2.1. The works done in the field of culture............... 33

2.2. The scientific investigations conducted by Professor Nisbet Mehdiyeva in the field of culture and their impact on the development of culture .......................... 49

Chapter III. THE ROLE OF CREATIVE INTELLECTUALS IN THE DEVELOPMENT OF CULTURE (1960–1980s)........57

3.1. The formation of creative intellectuals .............. 57

3.2. The role of creative intellectuals in the field of development of culture ........................ 66

Chapter IV. THE ACTIVITY OF THE AZERBAIJAN CREATIVE UNIONS IN THE FIELD OF PROPAGANDA IN THE 60–80s OF THE XXCENTURY IN THE SCIENTIFIC WORK OF PROFESSOR NISBET MEHDIYEVA ................74

4.1. The activity of the Creative Unions in the field of propaganda ................................ 74

4.2. The literary and cultural relations.................... 82

4.3. The cooperation in the field of art .................. 84

CONCLUSION ..............................................90

LIST OF SOURCES AND REFERENCES USED....................94

# MÜNDƏRİCAT

REDAKTORDAN ........................................107

MÜƏLLİFDƏN........................................110

GİRİŞ........................................113

I fəsil YORULMAZ MÜBARİZ VƏ GÖRKƏMLİ TARİXÇİ ALİM PROFESSOR NİSBƏT MEHDİYEVANIN FƏALİYYƏTİ ........................................122

1.1. Elmi fəaliyyət ........................................122

1.2. Əmək fəaliyyəti ........................................129

II fəsil GÖRKƏMLİ ALİM PROFESSOR NİSBƏT MEHDİYEVANIN MƏDƏNİYYƏT SAHƏSİNDƏ ELMİ TƏDQİQATLARI (XX ƏSRİN 60–80 – Cİ İLLƏRİ)...131

2.1. Mədəniyyət sahəsində görülən işlər........................................131

2.2. Professor Nisbət Mehdiyevanın mədəniyyət sahəsində apardığı elmi tədqiqatların mədəniyyətin inkişafına təsiri........................................146

III fəsil YARADICI ZİYALILARIN MƏDƏNİYYƏTİN İNKİŞAFINDA ROLU (XX ƏSRİN 60–80 – Cİ İLLƏRİ) .... 154

3.1. Yaradıcı ziyalıların formalaşması........................................154

3.2. Yaradıcı ziyalıların mədəniyyətin inkişafı sahəsində rolu........................................163

IV fəsil XX ƏSRİN 60–80 – Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN YARADICILIQ İTTİFAQLARININ TƏBLİĞAT SAHƏSİNDƏ FƏALİYYƏTİ PROFESSOR NİSBƏT MEHDİYEVANIN ELMİ YARADICILIĞINDA........................................ 170

4.1. Yaradıcılıq İttifaqlarının təbliğat sahəsində fəaliyyəti 170
4.2. Ədəbi – mədəni əlaqələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 178
4.3. İncəsənət sahəsində əməkdaşlıq . . . . . . . . . . . . . . . . . . . . 180

NƏTİCƏ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .186

İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT SİYAHISI. . . . . . . . .190

CONTENTS . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .196